Xalqın qəzeti!

# Xalq qəzeti

№ 30 (30724) 11 fevral 2025-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## Dünya Bankı: Azərbaycan orta gəlirli ölkədir



Səhifə ⇨ 7

# Azərbaycanda regional inkişaf marafonu uğurla davam edir

## *100 milyard manat yatırım bölgələrdə ÜDM-i 4 dəfə artırıb*



**Azərbaycanda regional dövlət proqramlarının (2004-2008, 2009-2013, 2014-2018 və 2019-2023-cü illər üzrə) uğurla həyata keçirilməsi ötən 21 ildə ölkəmizdə qeyri-neft sektorunun davamlı inkişafına, kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəlməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına və nəticədə əhalinin məşğulluğunun artmasına, eləcə də yoxsulluq səviyyəsinin azalmasına təkan verib.**

Bütün bu qeyd edilənlərlə yanaşı, 2004-cü ildən uğurla icra olunan regional proqramlar şəhər, qəsəbə və kəndlərin simasını köklü şəkildə dəyişib, bölgələrdə sosial-iqtisadi inkişaf potensialının artmasına, biznes və investisiya mühitinin yaxşılaşmasına və ekoloji təhlükəsizliyin güclənməsinə əlverişli şərait yaradıb.

Ümumiyyətlə, regional dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində aşağıdakı nəticələr əldə olunub:

*(ardı 8-ci səhifədə)*

# Qaluzinin “sülh göyərçinliyi” və təyyarəmizi vuran “quşlar”

## *Rusiyanın Cənubi Qafqazdakı normallaşma dramatizmi*

**Rusiyanın xarici işlər nazirinin müavini Mixail Qaluzin “İzvestiya”-ya müsahibəsində Azərbaycan və Ermənistan arasındakı normallaşma prosesinə toxunub. Əlbəttə, cənab Qaluzini başa düşmək olar. Çünki o, Rusiyanın rəsmi nümayəndəsi kimi prosesdə Qərbin hansısa üstünlük qazanma perspektivinə qarşı çıxır və bunu təbii qarşılamaq lazımdır.**



Ancaq bir məqam da var ki, hazırda, belə demək mümkünsə, “səssizliyə” qərq olmuş normallaşmada Qərbin hansısa üstün xəttindən əsər-əlamət yoxdur. Elə Rusiya da mövcud istiqamətdə passivdir. Qaluzinin səsləndirdikləri isə müəyyən mənada Moskvanın təşəbbüsü ələ keçirmək istəyi kimi görünməkdədir. Hərçənd, indiki məqamda bu cəhdin uğurlu alınacağına dair şübhələr həmişəkindən daha çoxdur.

Bəli, məlum təyyarə olayından, yəni AZAL-a məxsus hava gəmisinin Qroznı səmasında vurulmasından sonra Azərbaycan – Rusiya münasibətlərində nəzərəçarpacaq gərginlik yaşanır. Qaluzin isə belə bir durumda Bakı – İrəvan sülhündən, daha doğrusu, prosesdə Kremlin mövqeyindən söz açır. Yəqin, razılaşarsınız ki, onun dedikləri heç yerinə düşmür.

Əslində, Azərbaycan – Ermənistan münasibətlərinin tənzimlənməsində Rusiyanın mövqeyi ifadə baxımından böyük səslənir. Çünki məsələ çox kiçikdir. Əvvəla, Rusiyanın iki Cənubi Qafqaz ölkəsinin sülhə gəlməsində prioriteti yoxdur. Heç vaxt olmayıb da. Moskva, sadəcə, özünə lazım olanda, vaxtaşırı bəzi reallıqları qəbul etmək məcburiyyətində qalıb.

*(ardı 3-cü səhifədə)*

# Ermənistana əsən “USAID küləyi” kəsildi

**Erməni təşkilatları çaşqınlıq içindədir, çünki ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) vəsaitləri ilə həyata keçirilməli olan çoxsaylı proqramların gələcəyi sual altına düşüb. Ağ evin USAID-in demək olar ki, bütün xarici yardımlarını 90 gün müddətinə dondurmaq qərarı erməni mediasına, ictimai təşkilatlara və vətəndaş sektoruna ciddi təsir edib. USAID bağlandıqdan sonra rəsmi İrəvanın bu və digər proqramları davam etdirmək üçün vəsait tapmalı olacağı vurğulanır. Amma qalmaqallı qurumun hayları əvvəlkitək hərtərəfli “qayğı” ilə əhatə edəcəyi gözlənilmir.**




113 ölkədə 63 ildən çox fəaliyyət göstərən USAID, demək olar ki, bağlanıb. ABŞ prezidenti Donald Tramp artıq milyardlarla xarici yardımı dayandırıb. Agentliyin təhlükəsizlik üzrə direktoru, onun müavini və USAID-in 60 digər əməkdaşı inzibati məzuniyyətə buraxılıb, qurumun mindən çox əməkdaşı və podratçısı işdən çıxarılıb və ya evlərinə göndərilib. USAID-in layiq olduğu münasibətlə qarşılaşması Ermənistanı da məyus edib. Çünki qurumun diqqət göstərdiyi ölkələrdən biri də Ermənistan idi, haylartəşkilatdan xeyli vəsait alırdılar. Xatırladaq ki, USAID-in Ermənistana yaxından diqqəti 2018-ci ildə “məxməri inqilab”dan və Nikol Paşinyanın Qərbyönümlü komandasının hakimiyyətə gəlməsindən sonra başlayıb. 2024-cü ildə rəsmi İrəvan ilə ABŞ və Avropa İttifaqı (Aİ) ölkələri arasında dostluğun möhkəmlənməsi fonunda USAID-in maliyyələşdirilməsi 250 milyon dollara çatıb. Təşkilat Ermənistanda 1992-ci ildən fəaliyyət göstərsə də, dövlət qurumları ilə birbaşa əlaqələrin qurulması 2013-cü ilə təsadüf edir.

*(ardı 3-cü səhifədə)*

# Sülhü bölgədə yox, uzaqda axtarmaq fitnəsi




**Görünür, evin içində və çölündə danışmaqdan yorulan Nikol Paşinyan bu dəfə qələmə güc verib. Toxunduğu konkret mövzulara, qələmə aldığı siyasi tezislərin əhatə dairəsinə görə Nikol Paşinyanın məqaləsində maraq doğuran məqamlar az deyil. Keçmiş jurnalist təcrübəsindən yararlanmağa çalışan Paşinyan siyasi ritorika ilə zəngin üç səhifəlik məqaləsində deyir: “Azərbaycan getdikcə diqqəti daha çox bu tezis üzərinə yönəldir ki, Ermənistan silahlanır və hücuma hazırlaşır.**

Deməli, Azərbaycanın özünü müdafiə etmək və qabaqlayıcı tədbirlər görmək haqqı var. Rəsmi Bakının ritorikasının bu tezislərini bir qədər yığcam və sadə şəkildə təkrar etsək, hər şey aşağıdakı anlama gəlir: Ermənistan Azərbaycana hücuma hazırlaşır, ona görə də Azərbaycanın Ermənistana hücum etməsi daha yaxşı olar”.

Həmişə olduğu kimi, bu dəfə də Ermənistan baş nazirinin yazılı açıqlamasında populizm elementləri var. Fəqət, onu da qeyd etməliyik ki, Paşinyanın məqaləsində dinamika da hiss olunur. O, buna qədərki mövqeyinə yenidən baxır, bəzi məqamlarda rasional yanaşma nümayiş etdirir; Azərbaycanın gözləntilərini inkar etmir. Bakı üçün bunlar kifayət deyil. Ona görə ki, Paşinyanın mövqeyində hələ də tam aydınlıq yoxdur. Əgər aydınlıq olsaydı, müharibədən dəm vurmaz, sülhə ikiüzlü yanaşma sərgiləməzdi. Azərbaycanın mövqeyini Prezident İlham Əliyev 2025-ci il yanvarın 7-də yerli telekanallara müsahibəsində dəqiq ortaya qoydu. Azərbaycan daha nəyisə dəyişmək fikrində deyil. Çünki top Ermənistanın meydançasındadır.

*(ardı 4-cü səhifədə)*

## Türkiyə ilə miqrasiya əməkdaşlığı



Səhifə ⇨ 4

## ABŞ üçün “ölü Ermənistan”



Səhifə ⇨ 3

## Ölkəmizin yatırım imkanları artır



Səhifə ⇨ 7

# Rusiya–Ukrayna savaşı: 3 il tərəfləri sülhə qovuşdurmadı



Səhifə ⇨ 11

# Qəbələ “Qış nağılı” söyləyir



Səhifə ⇨ 10

# İcbari tibbi sığorta fondunun 2025-ci il büdcəsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 15-21.1-1-ci maddəsinə uyğun olaraq **qərara alıram:**

İcbari tibbi sığorta fondunun 2025-ci il büdcəsinin xərcləri 2 941 690 000,00 manat məbləğində təsdiq edilsin. Bu xərclərin maliyyələşmə mənbələri aşağıdakılardır:

– icbari tibbi sığorta fondunun 2025-ci il büdcəsinin gəlirləri 2 571 690 000,00 manat;

– icbari tibbi sığorta fondunun büdcəsinin əvvəlki illərdə istifadə olunmamış vəsaitlərindən (qalığından) 2025-ci ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilən 370 000 000,00 manat.

Müəyyən edilsin ki, 2025-ci ildə icbari tibbi sığorta fondunun gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

| Sıra №-si | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| **2.1.** | **Dövlət büdcəsindən ayırmalar** | **1 416 405 000,00** |
| 2.1.1. | Əhalinin dövlət büdcəsinin vəsaiti hesabına icbari tibbi sığortalanması | 1 266 640 000,00 |
| 2.1.1.1. | o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə | 57 741 708,00 |
| 2.1.2. | Səhiyyə sahəsində dövlət proqramlarına və tədbirlərə ayrılan vəsait | 149 765 000,00 |
| **2.2.** | İşəgötürən və işçi tərəfindən icbari tibbi sığorta üzrə ödənilən sığorta haqları | **909 060 000,00** |
| 2.2.1. | Büdcədən maliyyələşən təşkilatlar üzrə: | 318 358 600,00 |
| 2.2.1.1. | İşəgötürən | 159 179 300,00 |
| 2.2.1.1.1. | o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə | 8 400 000,00 |
| 2.2.1.2. | İşçi | 159 179 300,00 |
| 2.2.1.2.1. | o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə | 8 400 000,00 |
| 2.2.2. | Neft-qaz sahəsində fəaliyyəti olan və ya qeyri-büdcə dövlət sektoruna aid edilən sahələr üzrə: | 241 087 600,00 |
| 2.2.2.1. | İşəgötürən | 120 543 800,00 |
| 2.2.2.1.1. | o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə | 1 900 000,00 |
| 2.2.2.2. | İşçi | 120 543 800,00 |
| 2.2.2.2.1. | o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə | 1 900 000,00 |
| 2.2.3. | Neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən sahələr üzrə: | 349 613 800,00 |
| 2.2.3.1. | İşəgötürən | 174 806 900,00 |
| 2.2.3.1.1. | o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə | 1 700 000,00 |
| 2.2.3.2. | İşçi | 174 806 900,00 |
| 2.2.3.2.1. | o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə | 1 700 000,00 |
| **2.3.** | **Fiziki şəxslərdən sığorta haqları üzrə daxilolmalar** | **17 000 000,00** |
| 2.3.1. | Vergi uçotuna alınmış fiziki şəxslərdən (fərdi sahibkarlardan, xüsusi notariuslardan, vəkillər kollegiyasının üzvlərindən) | 16 500 000,00 |
| 2.3.1.1. | o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə | 750 000,00 |
| 2.3.2. | Mülki hüquqi müqavilələr əsasında işləri (xidmətləri) yerinə yetirən fiziki şəxslərdən | 500 000,00 |
| 2.3.2.1. | o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə | 1 000,00 |
| **2.4.** | **Avtomobil benzininin, dizel yanacağının, maye qazın Azərbaycan Respublikasının ərazisinə idxalı və daxili istehlakı, alkoqollu içkilərə və tütün məhsullarına tətbiq olunan aksizlər üzrə daxilolmalar** | **140 625 000,00** |
| 2.4.1. | Azərbaycan Respublikasının ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən (topdan satılan) və Azərbaycan Respublikasının ərazisinə idxal olunan avtomobil benzininin, dizel yanacağının, maye qazın hər litrinə görə daxilolma | 108 068 000,00 |
| 2.4.2. | Araq (vodka), tündləşdirilmiş içkilər və tündləşdirilmiş içki materialları, likör və likör məmulatlarının hər litrinə görə tətbiq edilən aksiz dərəcəsi üzrə daxilolma | 5 159 000,00 |
| 2.4.2.1. | o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə | 20 000,00 |
| 2.4.3. | Pivə (alkoqolsuz pivə istisna olmaqla) və pivə tərkibli digər içkilərin hər litrinə görə tətbiq edilən aksiz dərəcəsi üzrə daxilolma | 2 948 000,00 |
| 2.4.3.1. | o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə | 40 000,00 |
| 2.4.4. | Siqarilla (nazik siqarlar) və tütündən hazırlanan siqaretlər və onun əvəzedicilərinin 1000 ədədinə görə tətbiq edilən aksiz dərəcəsi üzrə daxilolma | 24 070 000,00 |
| 2.4.4.1. | o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə | 2 137 000,00 |
| 2.4.5. | Energetik içkilərin hər litrinə görə tətbiq edilən aksiz dərəcəsi üzrə daxilolma | 380 000,00 |
| 2.4.5.1. | o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə | 2 000,00 |
| **2.5.** | **Digər daxilolmalar** | **88 600 000,00** |
| 2.5.1. | İcbari tibbi sığorta üzrə sərbəst vəsaitin idarə olunması üzrə gəlirlər | 85 000 000,00 |
| 2.5.2. | "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulması ilə bağlı tətbiq olunan cərimələrdən, maliyyə sanksiyalarından və hesablanmış faizlərdən daxilolmalar | 3 600 000,00 |

Müəyyən edilsin ki, icbari tibbi sığorta fondunun 2025-ci il büdcəsinin xərcləri aşağıdakı istiqamətlərdə həyata keçirilir:

| Sıra №-si | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| **3.1.** | **"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsin Aparatının (filial, idarə) saxlanılma xərcləri** | **33 500 000,00** |
| **3.2.** | **"Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsin xərcləri** | **84 691 708,00** |
| 3.2.1. | Dövlət büdcəsinin vəsaiti hesabına tam təqvim ili üçün adambaşına ayrılmış vəsait | 57 741 708,00 |
| 3.2.2. | İşəgötürən və işçi tərəfindən ödənilən sığorta haqları, digər sığorta haqları, habelə digər maliyyə mənbələrindən daxilolmalar hesabına ayrılmış vəsait (Naxçıvan Muxtar Respublikası üzrə daxilolmalar hesabına) | 26 950 000,00 |
| **3.3.** | **"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin saxlanılma xərcləri** | **47 300 000,00** |
| | o cümlədən: | |
| 3.3.1. | "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin Aparatının saxlanılma xərcləri | 26 500 000,00 |
| 3.3.2. | "İnnovasiya və Təchizat Mərkəzi" publik hüquqi şəxsin saxlanılma xərcləri | 10 100 000,00 |
| 3.3.3. | "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki digər hüquqi şəxslərin saxlanılma xərcləri | 10 700 000,00 |
| **3.4.** | İcbari tibbi sığorta ödənişləri və dotasiya məbləği, cəmi | **2 655 721 292,00** |
| **3.4.1.** | **"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələri üzrə icbari tibbi sığorta ödənişləri və dotasiya məbləği üzrə xərclər** | **1 720 956 292,00** |
| | o cümlədən: | |
| 3.4.1.1. | Tibb müəssisələrində kadr potensialının gücləndirilməsi ilə bağlı xərclər | 6 000 000,00 |
| 3.4.1.2. | İşğaldan azad olunmuş ərazilərdə mobil hospitalların saxlanılma xərcləri | 2 500 000,00 |
| **3.4.2.** | **"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrinin dərman, sarğı ləvazimatlarının və materiallarının, maddi-texniki bazasının, kadr təminatının və digər xərclərin maliyyələşdirilməsi** | **464 765 000,00** |
| | o cümlədən: | |
| 3.4.2.1. | Səhiyyə sahəsində dövlət proqramlarına və tədbirlərə ayrılan vəsait | 149 765 000,00 |
| 3.4.2.2. | Dərman, sarğı ləvazimatlarının və materiallarının alınması üzrə xərclər | 200 000 000,00 |
| 3.4.2.3. | Tibb müəssisələri üçün ərzaq məhsullarının alınması və təminatı üzrə xərclər | 25 000 000,00 |
| 3.4.2.4. | Tibb müəssisələri üçün zəruri tibbi avadanlıq və inventarın alınması | 28 000 000,00 |
| 3.4.2.5. | Tibb müəssisələrində daşınmaz əmlakın əsaslı təmiri, yüngül inşaat konstruksiyalarından inşa edilən və asanlıqla quraşdırılıb-sökülə bilən tikililərin, kənd yerlərində modul tipli tibb məntəqələrinin tikintisi və quraşdırılması xərcləri | 35 000 000,00 |
| 3.4.2.6. | Xidməti və xüsusi təyinatlı nəqliyyat vasitələrinin alınması | 10 000 000,00 |
| 3.4.2.7. | İcbari tibbi sığorta sisteminin rəqəmsallaşdırılması üçün tibb müəssisələrində İT infrastrukturunun qurulması ilə bağlı xərclər | 17 000 000,00 |
| | o cümlədən: | |
| 3.4.2.7.1. | "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsin məlumat mərkəzlərində informasiya təhlükəsizliyinin qorunması və elektron sistemlərin davamlı fəaliyyətinin təmin edilməsi (qeyri-maddi aktivlərin və avadanlığın alınması, quraşdırılması, sazlanması, proqram təminatı, texniki dəstək və lisenziyalar) xərcləri | 15 000 000,00 |
| 3.4.2.7.2. | Digər xərclər | 2 000 000,00 |
| **3.4.3.** | **"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyində olmayan tibb müəssisələrinə tibbi xidmətlərə görə sığorta ödənişləri** | **430 000 000,00** |
| **3.4.4.** | **Aptek təşkilatlarına ambulator şəraitdə istifadə olunan dərman vasitələrinə görə sığorta ödənişi** | **40 000 000,00** |
| **3.5.** | **Sair xərclər** | **20 000 000,00** |
| **3.6.** | **Sığorta ehtiyatları** | **96 877 000,00** |
| 3.6.1. | o cümlədən Naxçıvan Muxtar Respublikası üzrə | 3 387 668,00 |
| **3.7.** | **Yeni növ koronavirus (COVID–19) pandemiyası ilə mübarizə tədbirlərinin bir hissəsinin maliyyələşdirilməsi xərcləri** | **3 500 000,00** |
| **3.8.** | **Bank xərcləri** | **100 000,00** |

4. Müəyyən edilsin ki:

4.1. İcbari tibbi sığorta fondunun 2025-ci il büdcəsinin 2.1.1-ci yarımbəndində nəzərdə tutulmuş vəsaitin ödənilməsini "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 15-11.2-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həyata keçirir.

4.2. İcbari tibbi sığorta fondunun 2025-ci il büdcəsinin 2.1.2-ci yarımbəndində nəzərdə tutulmuş vəsaitin ödənilməsini "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs (bundan sonra – Agentlik) ilə razılaşdırılmış aylıq və rüblük bölgü əsasında Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həyata keçirir.

4.3. "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrinin xərclər smetasında nəzərdə tutulmuş məbləğlə Agentliyin həmin qurumlara ödədiyi sığorta ödənişlərinin məbləği arasında kəsir yarandığı halda, həmin kəsir aylıq əsaslarla icbari tibbi sığorta fondunun 2025-ci il büdcəsinin 3.4.1-ci yarımbəndində nəzərdə tutulan vəsait hesabına maliyyələşdirilir. Agentlik tərəfindən tibb müəssisələrinin smetaları əsasında ödənilən vəsaitin xərclənməmiş hissəsi büdcə ilinin sonunadək Agentliyə qaytarılır.

4.4. Naxçıvan Muxtar Respublikası üzrə:

4.4.1. İcbari tibbi sığorta fondunun 2025-ci il büdcəsinin 3.2-ci bəndində nəzərdə tutulan vəsaitin bölgüsü Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir;

4.4.2. İcbari tibbi sığorta fondunun 2025-ci il büdcəsinin 3.2.1-ci yarımbəndində Naxçıvan Muxtar Respublikası üzrə nəzərdə tutulmuş vəsaiti Agentlik hər ay üçün bərabər hissələrlə növbəti ayın 10-dan gec olmayaraq "Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsə ödəyir;

4.4.3. İcbari tibbi sığorta fondunun 2025-ci il büdcəsinin 3.2.2-ci yarımbəndində Naxçıvan Muxtar Respublikası üzrə nəzərdə tutulmuş vəsaiti Naxçıvan Muxtar Respublikasının ərazisində icbari tibbi sığorta haqlarının ("Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 15-10.1.1-ci maddəsində nəzərdə tutulmuş vəsait istisna olmaqla) yığımını həyata keçirən səlahiyyətli orqanlar "Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsə ödəyirlər.

4.5. İcbari tibbi sığorta fondunun 2025-ci il büdcəsinin 3.4.2.1-ci abzasında nəzərdə tutulan vəsaitin bölgüsünü Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

4.6. İcbari tibbi sığorta fondunun 2025-ci il büdcəsinin 3.5-ci bəndində "Sair xərclər" üzrə nəzərdə tutulmuş vəsaitdən Agentliyin İdarə Heyətinin qərarı əsasında icbari tibbi sığortanın tətbiqi məqsədilə digər tədbirlərin maliyyələşdirilməsi üçün istifadə olunur.

4.7. İcbari tibbi sığorta fondunun 2025-ci il büdcəsinin 3.7-ci bəndində "Yeni növ koronavirus (COVID–19) pandemiyası ilə mübarizə tədbirlərinin bir hissəsinin maliyyələşdirilməsi xərcləri" üzrə nəzərdə tutulmuş vəsaitin bölgüsünü Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla Agentlik həyata keçirir.

5. Bu Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 fevral 2025-ci il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Cənab Prezident!**

"Azərbaycan Hava Yolları" aviaşirkətinə məxsus təyyarənin ötən il dekabrın 25-də Qazaxıstan Respublikası ərazisində qəzaya uğraması və çoxsaylı insan tələfatı ilə əlaqədar böyük kədər hissi keçirdik.

Həmin faciəvi hadisə ilə bağlı Sizə dərin hüznlə başsağlığı verir və Burkina Faso xalqının həmrəyliyini ifadə edirəm.

Cənab Prezident, dərin hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***İbrahim TRAORE,***
***Burkina Fasonun Prezidenti***

# XİN-də diplomatik görüşlər

**Fevralın 10-da xarici işlər naziri Ceyhun Bayramov Sloveniya Xarici İşlər Nazirliyinin dövlət katibi Marko Ştutsinlə görüşüb.**



Ceyhun Bayramov ATƏT Nazirlər Şurasının 31-ci iclası çərçivəsində həmkarı Tanya Fayon ilə keçirilmiş görüşü xatırlayaraq, bu kimi təmasların ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişaf perspektivlərinin müzakirəsinə töhfə verməsi baxımından əhəmiyyətini və bu istiqamətdə dialoqun inkişafının vacibliyini qeyd edib.

Görüşdə iki ölkə arasında enerji təhlükəsizliyi, ticarət, biznes, nəqliyyat-kommunikasiyalar sahələri üzrə əməkdaşlığın mövcud perspektivlərindən istifadənin zəruriliyi, xüsusilə Azərbaycanın Orta Dəhlizdə tutduğu strateji mövqenin bu imkanlardan yararlanmağa təkan verdiyi diqqətə çatdırılıb.

Söhbət zamanı ölkələrimiz arasında təhsil və humanitar istiqamətlər üzrə əməkdaşlığa toxunulub, o cümlədən İkinci Dünya müharibəsi zamanı Sloveniyanın azad edilməsinə mühüm töhfələr verən soydaşlarımız, xüsusilə əfsanəvi Mehdi Hüseynzadə (Mixaylo) kimi qəhrəmanların olmasının müasir dövrdə xalqlarımız arasında əlaqə və yaxınlığın əsasında dayandığı qeyd edilib.

Qarşı tərəf, həmçinin postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, minatəmizləmə səyləri barədə ətraflı məlumatlandırılıb, xüsusilə humanitar minatəmizləmənin əməkdaşlıq üçün yeni istiqamətlərdən biri olduğu diqqətə çatdırılıb.

***

**Dünən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Belarusun ölkəmizə yeni təyin olunmuş səfiri Dmitri Pineviçlə görüşüb. Diplomat etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib.**

Nazir yeni təyin olunmuş səfiri təbrik edib, ona diplomatik missiyasında uğurlar arzulayıb.

Görüş zamanı Azərbaycan ilə Belarus arasında mövcud ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyində duran məsələlər müzakirə olunub. Tərəflər ölkələrimiz arasında strateji tərəfdaşlığın inkişaf perspektivlərini, həmçinin ikitərəfli və çoxtərəfli əməkdaşlığın müxtəlif aspektlərini müzakirə ediblər. İki ölkə arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın rolunun vacibliyi vurğulanıb.

***XQ***

# Nikolay Valuyevin də adı "qara siyahı"da

**Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının Turizm komitəsi sədrinin birinci müavini Nikolay Valuyevin Azərbaycan və xalqımız əleyhinə işlətdiyi təhqiramiz ifadələr, ölkəmizə qarşı təhdid xarakterli fikirləri tamamilə qəbuledilməzdir.**

Bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Rusiya Federasiyasının Dövlət Dumasının deputatının Azərbaycan əleyhinə fikirləri və ona qarşı atılacaq addımlar ilə bağlı yerli medianın sualına cavabında söyləyib. O deyib: "Qeyd edilən deputatın ölkəmiz əleyhinə fikirləri ilə bağlı onun adı Azərbaycan Respublikasına girişi qadağan edilmiş şəxslərin siyahısına daxil edilib və onun ölkəmizə girişinə qadağa qoyulub.

XİN sözçüsü qeyd edib ki, bu, Rusiya Dövlət Dumasının deputatlarının "arzuolunmaz şəxslər" siyahısına daxil edilməsi üzrə ilk hal deyil: "Bundan əvvəl, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı fəaliyyət göstərən Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının MDB ilə iş Komitəsi sədrinin birinci müavini Konstantin Zatulin və Ailənin müdafiəsi komitəsi sədrinin müavini Vitali Milonov da Azərbaycanda "arzuolunmaz şəxs" kimi müvafiq siyahıya daxil edilib. Təəssüflə bildirmək istərdik ki, ölkəmizə qarşı fəaliyyət göstərən bütün bu deputatlar məhz Rusiyanın hakim partiyası olan "Vahid Rusiya" partiyasının üzvləridir".

A.Hacızadə bildirib ki, ölkəmizin suverenliyinə, ərazi bütövlüyünə, Azərbaycan xalqına qarşı fəaliyyət göstərən bu şəxslərə qarşı ölkəmizin qanunvericiliyi çərçivəsində bundan sonra da müvafiq addımlar atılacaq.

***XQ***

# Qərbi Azərbaycana qayıdış bəşəri hüquq məsələsidir

**Ermənistanın baş naziri Nikol Paşinyan fevralın 10-da bu ölkənin "Armenpress" xəbər agentliyində dərc olunmuş məqaləsində regional proseslərə və Qərbi Azərbaycan mövzusuna dair yanlış, əsassız və zərərli fikirlər səsləndirmişdir.**

Qərbi Azərbaycan İcması bununla bağlı bəyanat yayıb. Bəyanatda deyilir: "İlk olaraq vurğulamaq istərdik ki, Qərbi Azərbaycan İcması Azərbaycan və Ermənistan arasında sülhün bərqərar edilməsi istiqamətində aparılan siyasi prosesləri dəstəkləyir. Hesab edirik ki, iki dövlət arasında sülhün bərqərar olması və Qərbi azərbaycanlıların öz evlərinə qayıtması bir-birini tamamlayan məqsədlərdir.

Baş nazir Paşinyanın məqaləsində Qərbi Azərbaycan məsələsini hərbi təhdid kimi təqdim etməsi tamamilə qəbuledilməzdir. Baş nazirin bu mövzuda söylədikləri, o cümlədən guya İcmanın əsas sənədlərində Ermənistan ərazisinin 60 faizinə iddia əks olunduğuna dair fikirləri əsassızdır.

Qərbi Azərbaycan İcması olaraq biz Ermənistan hökumətindən sülhə və insan hüquqlarına zidd addımlarına, o cümlədən hərbi canilərin qəhrəmanlaşdırılmasına son qoymağı, silahlanma proqramını dayandırmağı, aldığı hücum xarakterli ağır və müasir silahları geri qaytarmağı və Qərbi azərbaycanlıların qayıdışına şərait yaratmağı tələb edirik".

***XQ***

# Qaluzinin “sülh göyərçinliyi” və təyyarəmizi vuran “quşlar”

**(əvvəli 1-ci səhifədə)**

M.Qaluzin bildirib ki, ölkəsi Azərbaycan və Ermənistan arasında münasibətləri uzunmüddətli, dayanıqlı nizamlayacaq və gələcək nəsillər üçün “minaya” çevrilməyəcək sülh müqaviləsinin imzalanmasının tərəfdarıdır: “Təbii ki, biz hər zaman irəliyə doğru hərəkəti asanlaşdırmağa hazırıq və Qərbin təkid etdiyi kimi, Ermənistanı və Azərbaycanı mümkün qədər tez hansısa Qərb platformasında sülh müqaviləsi bağlamağa sövq etmək istəyən tələsik sənədlərin əleyhinəyik. Bu cür tələsik, düşünülməmiş və tam təsdiqlənməmiş qərarlar uzunmüddətli davamlı sülhə gətirib çıxarmaya, əksinə, gələcək üçün müəyyən qarşıdurma toxumları səpə bilər. Bunu, təbii ki, Ermənistan və Azərbaycan, Cənubi Qafqaz və Rusiya üçün son dərəcə arzuolunmaz hesab edirik”.

Əlbəttə, bölgədə dayanıqlı barış mühitinin mövcudluğu şərtdir. Digər tərəfdən, “Region region ölkələri üçündür!” şüarı ilə hərəkət edən ölkəmiz Rusiyanın Cənubi Qafqaza tarixi bağlılıq tellərini inkar etməyib və hər zaman bu düşüncədə olub ki, Kremlin maraq və mənafeləri ilə hesablaşılması vacibdir. Eləcə də regiona bağlılığı olan Türkiyənin və İranın da maraqları önəmlidir. Moskvanın, Ankaranın və Tehranın istəklərinin Cənubi Qafqaz ölkələrinin mənafeləri ilə uzlaşdırılması isə ən başlıca prioritetdir. Buna görə rəsmi Bakı “3+3” regional məşvərət formatını irəli sürüb. Bu format bərabərtərəfli və bərabərhüquqlu münasibətlər trayektoriyasını rəhbər tutur, hansısa ölkənin özünü əlahiddə göstərməsini yox. Rusiya belə bir formula hazırdırmı? AZAL-ın təyyarəsinin vurulması olayı göstərdi ki, Kremlin düşüncə tərzi, yumşaq desək, arxaikdir. Yəni, imperialist yanaşmaya əsaslanır.



Bəli, Qaluzinin timsalında Rusiya yaxın vaxtlarda Azərbaycan və Ermənistan arasında barış sazişinin imzalanacağından əsla narahat olmamalıdır. Çünki belə bir durum labüd görünmür. Digər tərəfdən, Rusiya heç vaxt Bakı – İrəvan münasibətlərinin tənzimlənməsi baxımından tutarlı variant və ya formul təklif etməyib. Məsələyə haqq və ədalət prizmasından yanaşsaq, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi məhz Qərb platformasında aparılan danışıqlar nəticəsində tanınmışdı. Söhbət Ermənistanın baş naziri Nikol Paşinyanın Qarabağ da daxil olmaqla ölkəmizin ərazi bütövlüyünün tanınmasına dair bəyanatlarından gedir. O bəyanatlar ki, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə reallaşdırılmış Brüssel prosesinin nəticəsi idi.

Ancaq indi Rusiya tərəfi, o cümlədən Prezident Vladimir Putin bildirir ki, Paşinyan gərək belə bir addımı atmayaydı. Atıbsa, deməli, Ermənistanın Qarabağ istəyi heçə çıxıb. Görəsən niyə? Ümumən, Qarabağ iddiası nə üçün, hansı səbəbə olmalı idi? Ona görə ki, bundan həm də rus imperializmi bölgəni nəzarətdə saxlamaq üçün istifadə etmədi. Daha doğrusu, Moskva Ermənistanı tamamilə məhvdən xilas etdi. Qarabağa rus sülhməramlılarının yeridilməsi fonunda yaşananlar Moskvanın erməni avantürasının davamında maraqlı olduğunu göstərdi. Kreml çox çalışdı ki, “Qarabağ kartı”nı diri saxlamaqla, rəsmi İrəvanı Qərbyönümlü xəttindən ayırsın. Həmin dönəmdə Rusiya bölgənin əlahiddə statusda təqdim olunmasına da cəhd göstərdi ki, Ermənistan rəhbərliyi kursunu dəyişsin. Təxminən, “biz tərəfə keçin, sizin üçün hər şeyi edək” mesajını verdi.

İndi Qaluzin uzunmüddətli, dayanıqlı sülhdən dəm vurursa və bunun Qərb platformasında ərsəyə gəlməsini şübhələndirirsə, xatırladaq ki, barış sazişinin imzalanmasını, Qarabağa status məsələnin müzakirəsinin isə sonraya saxlanılmasını birinci təklif edən məhz Rusiya olmuşdu. Yəni, ölkə durumu natamamlığa daşımaq istəmişdi. Rus sülhməramlılarının komandanlığının Qarabağdakı separatçı rejimin hazırda Bakı həbsxanalarında yatan liderləri ilə daim bir arada olduğunu, rus əsgərlərinin bölgə ermənilərini şirnikləndirmək üçün “sülh göyərçini”nə çevrilib onlara pampers, salfetka daşıdıqlarını da yaddan çıxarmamalıyıq. Hələ separatçı rejimin qorunması üçün rus sülhməramlılarının müşayiəti ilə Qarabağa silah-sursat daşınması halları da faktdır. Bu idimi Rusiyanın dayanıqlı sülh təşəbbüsü?

Bir məqamı da vurğulayaq ki, Rusiya hazırda üzləşdiyi beynəlxalq sanksiyalar şəraitində regional kommunikasiyaların açılmasında maraqlı tərəfdir. Haqqında söz açdığımız üçtərəfli bəyanatda da bununla bağlı konkret müddəa var. Söhbət sənədin 9-cu bəndindən gedir. O bənddən ki, orada Azərbaycanın digər ərazilərinin Naxçıvanla maneəsiz yolunun olmasından söz açılır. Yolda Rusiya tərəfi təhlükəsizliyi təmin etməli idi. Ancaq Ermənistan bununla razılaşmadı. Qaluzinin barəsində söz açdığı növbəti məsələ də İrəvanın barışmazlıq xətti ilə bağlıdır. O, Rusiya, Azərbaycan və Ermənistan baş nazirləri müavinlərinin rəhbərlik etdikləri üçtərəfli qrupun nəqliyyat kommunikasiyalarının yaradılması və iqtisadi əlaqələrin bərpası üzrə işinin yarımçıq qaldığını diqqətə çatdırıb: “Təbii ki, biz tərəfləri və ilk növbədə erməni dostlarımızı bu qrup çərçivəsində işə qayıtmağa çağırırıq. Rusiya tərəflərə hər cür kömək göstərməyə həmişə hazırdır”.

Məlum olduğu kimi, sözügedən işçi qrupunun iclasında Naxçıvana yolun həm maneəsizliyi, həm də Ermənistan yurisdiksiyasının pozulmaması şərtilə açılmasına dair razılıq əldə edilmiş, lakin son anda rəsmi İrəvan anlaşmadan boyun qaçırmışdı. Görünür, Qaluzin məhz bu səbəbdən Qərbin Cənubi Qafqazdakı xəttini tamamilə dağıdıcı hesab etdiyini, həmin xəttin Rusiya üçün strateji əhəmiyyətli regionda vəziyyəti sabitləşdirməyə deyil, Moskvanı məğlubiyyətlə üzləşdirməyə yönəldiyini vurğulayır. Elə isə sual yaranır: Rusiya 44 günlük müharibədən ötən müddətdə məğlubiyyətdən qaçmaq üçün səmimi davrandımı? Söhbət Azərbaycana münasibətdəki səmimiyyətdən gedir.

Rusiyanın səmimiyyətsizliyi özünü ənənəvi erməni sevdasından qaynaqlanmış ədalətsizlikdə göstərib. Moskva ötən müddətdə Qərbə erməni avantürizmini saxladığını nümayiş etdirmək və daha yaxşı erməni təəssübkeşi olduğunu göstərmək istədi. İndi Qaluzin bildirir ki, hazırda bəzi ölkələri Rusiyaya qarşı Cənubi Qafqazda ikinci cəbhə açmağa razı salmaq cəhdləri var. Ermənistanın bu cəhdlərdə başlıca fiqur olduğu məlumdur. Yəni, yaxşı olar ki, XİN rəhbərinin müavini konkret danışsın.

Uzun sözün qısası, Rusiya Azərbaycan – Ermənistan münasibətlərində hansısa formalı vasitəçiliyə haqqı olmayan tərəfdir. Bu haqqı tanımayan Ermənistan olub. Təyyarə olayı ilə bağlı Moskvanın Bakıya münasibətdəki qeyri-səmimi mövqeyi durumu daha da dramatikləşdirib. Cənubi Qafqaz isə hansısa böyük gücün at oynadacağı, indiki halda sülhün xarakterini müəyyənləşdirəcəyi platforma deyil. Bunu nəinki Qaluzinin, bütövlükdə Rusiya dövlətinin və onun xəttini müəyyəndirən düşüncə mərkəzlərinin qəbul etməsində fayda var.



Azərbaycan və Ermənistan arasında hazırda səngimiş təsir bağışlayan normallaşmaya gəlincə, prosesdə Qərbin hansısa diktəsi yoxdur. Bakının iki şərti (Ermənistan konstitusiyasının dəyişdirilməsi və ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı müştərək müraciətin ünvanlanması – red.) var ki, İrəvanın onları yerinə yetirmək üçün heç bir addım atmaq istəmədiyi də ortadadır. Mövcud durumda, görəsən, Qaluzin nədən danışır? Onun bildirdiklərindən belə nəticə hasil olur ki, guya, hazırda Bakı və İrəvan Qərbin təkidi ilə sülh müqaviləsi bağlamağa hazırlaşırlar. Halbuki, belə bir durum yoxdur.

Ümumiyyətlə, Cənubi Qafqazda sülhün Qərb platforması deyilən məsələ aktuallığını itirib. Azərbaycan və Ermənistan ikitərəfli danışıqlar müstəvisini əsas götürürlər. Bu, ölkəmizin tələbidir. Tələb həm də ona görə irəli sürülüb ki, Qərb normallaşma prosesinə anti-Rusiya ovqatı gətirmək istəyib. Ermənistan həmin istəyi təmin etməyə cəhd göstərən tərəfdir. Azərbaycan isə məsələnin belə qoyuluşuna qarşıdır. Yəni, ikitərəfli danışıqlarda nə anti-Rusiya təmayülü var, nə də Qərbə demarş xətti. Tərəflər özləri hər şeyi müəyyənləşdirirlər. Rəsmi İrəvan prosesə fərqli ovqat, avantürist meyil gətirmək istəyir ki, bu, başqa söhbətin mövzusudur. Ancaq bu da bir reallıqdır ki, həmin mövzu gündəmdə olduğundan, sülh müqaviləsi imzalanmır.

44 günlük müharibədən sonra Rusiya 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın imzalanmasına nail olmaqdan başqa heç nəsin? Hələ tipik erməni xəstəliyini bir kənara qoyuruq. Hərçənd, o xəstəliyi virus şəklində erməni qövmünün canına Qərbin, eyni zamanda, Rusiyanın müştərək şəkildə yeritdiyini yaddan çıxarmamalıyıq. Hələ Moskvanın mövcud istiqamətdə daha “fəal” olduğunu diqqətə almaq da şərtdir. Ermənistana bir milyardlıq silah verənin də, torpaqlarımızın işğal olunması üçün ölkəyə kömək üçün canlı qüvvə göndərənin də, xüsusi amansızlıqla Xocalı faciəsini törədib azərbaycanlıların müqavimətini qırmaqda, onları ruhdan salmaqda erməni cəlladlarına yardım göstərənin də Rusiya olduğunu unutmamışıq.

Rusiya artıq canını tapşırmış ATƏT-in Minsk qrupunun üzvü kimi uzun illər Fransa və ABŞ-la birgə Qarabağ münaqişəsinin dondurulmuş halda saxlanılmasına çalışıb. Elə bir halda ki, bu, Ermənistana sərfəli idi. Yəni, münaqişənin dondurulması, faktiki olaraq, işğalı leqallaşdırırdı və Azərbaycana durumla barışmağı təlqin edirdi. Qaluzin isə uzunmüddətli sülhdən danışır. Rusiya Azərbaycana uzunmüddətli işğal gətirən ölkədir və bu imicdən qurtulmaq üçün real addım atmayıb. Bəlkə 44 günlük müharibə zamanı İrəvana uzaqmənzilli raketləri verən Rusiya deyildi? Moskva ermənilərə Mingəçeviri, Bakını, Gəncəni, Bərdəni hədəf alan silahlara ona görə peşkəş etmişdi ki, Azərbaycan Haqq davasını, Zəfər yürüşünü dayandırsın. Bunların hamısını gözəl bilirik.

***Ə.CAHANGİROĞLU***
***XQ***

**Replika**

# ABŞ üçün “ölü Ermənistan”

*Yaxud Paşinyanın Vaşinqton səfərinə elegiya*

**ABŞ-da belə bir deyim var ki, prezidentin ölməsini ən çox istəyən vitse-prezidentdir. Çünki vitse-prezidentlər Birləşmiş Ştatların federal hakimiyyətində dövlət başçısından sonra ikinci şəxs kimi qəbul edilsələr də, əsas funksiyaları birincilərin dünyalarını dəyişmələri, istefaları və ya hansısa səbəbdən hakimiyyətdən uzaqlaşdırılmaları hallarında onları əvəzləyirlər. Əlbəttə, ABŞ təcrübəsində əvvəllər vitse-prezident olmuş şəxslərin sonradan prezident postunu tutmalarına da rast gəlinib.**

Amma bu, tamam başqa hekayətdir. Yazımıza belə başlamağımız isə təsadüfi deyil.

Məlum olduğu kimi, Ermənistanın baş naziri Nikol Paşinyan ötən həftə Birləşmiş Ştatlara səfər etdi. Səfərin Beynəlxalq Dini Azadlıq Sammitində iştirak məqsədi daşıdığı açıqlansa da, aydın idi ki, Paşinyan ABŞ-ın yeni administrasiyasına yaxınlaşmaq niyyəti güdür. Güman ki, ona bu təlimatı Fransa prezidenti Emmanuel Makron vermişdi. Çünki ABŞ Prezidenti Donald Trampın Makrondan, yumşaq desək, xoşu gəlmir və o da yaxşı anlayır ki, Ermənistan baş nazirini Ağ evin yeni sahibinə təqdim etmək cəhdi uğursuz alınacaq. Axı Makronun özünün təqdimata ehtiyacı var. Əlbəttə, söhbət yaxşı mənada təqdimatdan gedir ki, bu, son dərəcə mümkünsüz görünür. Fransa prezidentinin nüfuzu yerlə birdir.



Ermənipərəstlik kollektiv Qərbin “müştərək məhsulu” olduğundan, Birləşmiş Ştatların da ona dəstəyi önəmlidir. Yəni, Fransa və ya bütövlükdə Avropa ilə iş aşmır. Paşinyan Vaşinqtona məhz həmin dəstəyi təkbaşına qazanmaq üçün yollanmışdı.

Yəni, Nikol özü öz başına çarə qılmalı, ABŞ-ın əvvəlki administrasiyası dövründə Vaşinqton – İrəvan əməkdaşlığı sahəsində indiyədək qazanılmışları qorumalıdır. Söhbət Trampın andiçmə mərasimindən bir neçə gün əvvəl imzalanmış ABŞ – Ermənistan strateji tərəfdaşlıq sazişinin qüvvədə saxlanılmasından və sənədin müddəalarının həyata keçirilməsindən gedir.

Bəli, Nikol çalışır ki, sözügedən saziş lazımsız kağız parçasına çevrilməsin. Halbuki, bu mümkünsüzdür. Əvvəla, strateji tərəfdaşlıq tərəflərin müəyyən mənada bərabər müstəvidə qiymətləndirilməsi halında mümkündür. ABŞ hara, Ermənistan hara? İkincisi, sənəd ABŞ-ın Cənubi Qafqazdakı anti-Rusiya köklənişinin təzahürü idi və Ermənistan prosesdə yalnız alətdir. İndiki durumda lüzumsuz alət.

Əlbəttə, deməzdik ki, Birləşmiş Ştatların hazırkı rəhbərliyi Rusiyaya qarşı deyil. Sadəcə, onun davranış yöntəmi fərqlidir və bu fərqlilikdə Ermənistanın “xidmətlərinə” ehtiyacın duyulmadığını Nikol və onun dəstəkçisi Makron bilməmiş deyil. Amma azacıq bir ümid var. Yəni, güman var ki, Tramp Ermənistanı, heç olmasa, xəritədə tapmaq istəyəcək.

Paşinyan da ABŞ-a Ermənistanın dünya xəritəsində harada yerləşdiyini göstərmək üçün yollanmışdı. Yollandı və dinlə bağlı tədbirdə ölkəsinin, guya, 301-ci ildə xristianlığı qəbul etdiyinə dair nağıl danışdı. Özü də sən demə, bu qəbuletmə rəsmi səviyyədə olubmuş. Nikol hələ erməni krallığından da söz açdı. Bir sözlə, o, Vaşinqtonda dünya erməniliyinin xəstə təfəkküründə bəslədiyi sərsəm mücərrədliyi vurğulamaqdan başqa heç nə etmədi.

Bəli, Trampla görüşü xəyalı da quran, Birləşmiş Ştatların yeni administrasiyasında aparıcı hansısa şəxslə görüşməyə ümid bəsləyən erməni baş nazir sonda ölkənin yeni vitse-prezidenti Ceyms Devid Venslə “şəkil çəkdirməyə” nail oldu. Əlbəttə, Riçard Niksondan sonra ölkənin ən gənc vitse-prezidenti olmuş Vensin gələcək karyerasına dair nə isə demək, yaxud onu əhəmiyyətsiz şəxs kimi qələmə vermək niyyətindən uzağıq. Heç şübhəsiz, ABŞ-ın yeni vitse-prezidenti siyasətdə iddialıdır.

Vaxtilə Trampın qatı əleyhdarı kimi tanınmış, hətta dövlət başçısını açıq şəkildə “axmaq” adlandırmış, həmçinin trampizmi hitlerçiliklə, “ən bədbəxt amerikalıları anlaqsız hala salan narkotiklərlə” müqayisə etmiş birinin sonradan 180 dərəcə dəyişməsi adi məsələ deyil. Nə bilmək olar, bəlkə 1984-cü il təvəllüdlü Vens gələcəkdə ABŞ-ın prezidenti də oldu. Amma indi tutduğu post onun bir zamanlar hazırkı dövlət başçısı barədə dediklərinə uyğun gəlmir.

Yəni, Vens Trampın, belə demək mümkünsə, amnistiyasına düşməyib və deməli, birinci üçün parlaq gələcək şansı yalnız ikinci həyatda olmayanda yetişəcək. Nəticəyə gəlirik ki, Paşinyanın ABŞ-ın federal hökumətindəki qaydaya əsasən, yalnız prezidentin yoxluğu şəraitində söz sahibinə çevrilə biləcək Vens tərəfindən qəbul edilməsində subliminal mesaj payı var. Mesaj isə budur: “erməni məsələsi” Birləşmiş Ştatların hazırkı rəhbərliyi üçün ölü durumdadır.

Digər tərəfdən, onu da nəzərə alaq ki, hazırda Birləşmiş Ştatların yeni komandasındakı yüksək rütbəli şəxslərin hamısı məşğuldur və onların xəritədə yerini güclə tapa biləcəkləri önəmsiz ölkənin baş nazirini qəbul etməyə vaxtları yoxdur. Bu mənada Vens daha rahatdır. Çünki, prinsipcə, təmsil olunduğu komandadakı digər şəxslərdən fərqli olaraq, üzərinə elə bir ciddi iş, hansısa əsaslı dəyişiklik aparmaq vəzifəsi düşmür. Ən əsası, Vensin Ermənistana dair qərar vermək səlahiyyəti də yoxdur.

Sonda isə Paşinyanın ABŞ səfərinə, daha doğrusu, Nikol və tərəfdarlarının səfəri müstəsna əhəmiyyətli hadisə kimi təbliğ etmələrinə tamam başqa rakursdan yanaşaq. Axı erməni baş nazirin Birləşmiş Ştatlara gedişi rəsmi xarakter daşımırdı. Bir qayda olaraq, yüksək ranqlı şəxslərin başqa ölkələrə səfərləri əvvəlcədən razılaşdırılmış plan əsasında qrafikə uyğun gerçəkləşir. Yəni, Nikol, bir növ, “çağrılmamış qonaq” idi. Belə olan halda, onun ABŞ-a yollanması nə qədər mənasız idisə, tərəfdarlarının səfərə fövqəladə əhəmiyyət verən fikirləri də bir o qədər cəfəngdir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Ermənistana əsən “USAID küləyi” kəsildi

**(əvvəli 1-ci səhifədə)**

USAID və Ermənistan arasında əlaqələr texniki yardım proqramları, dil kursları və təhsil proqramları ilə başlayıb. Daha sonra ABŞ qurumu sevdiyi mövzuları gündəmə gətirmişdi - “demokratiyanın inkişafı” və “insan hüquqlarının təmini və qorunması” və s. Bu müddət ərzində USAID maraqlarını müdafiə edən “məzunlar” yetişdirib və onların vasitəsilə Ermənistanın xarici siyasət prioritetlərinə müəyyən mənada təsir göstərib. Qeyd edək ki, 2024-cü il aprelin 5-də ABŞ-Aİ-Ermənistan formatının Brüsseldə keçirilən yüksək səviyyəli görüşündən sonra USAID Ermənistandakı fəaliyyət sahələrini təqdim edən press-reliz dərc etmişdi. Agentlik 1992-ci ildən bəri ABŞ-ın Ermənistana təxminən 3,3 milyard dollar yardım etdiyini xatırlatmışdı.

2018-ci ildə Ermənistanda “məxməri inqilab”dan həvəslənən USAID haylara daha çox pul ayırmağa başlamışdı. Məsələn, 2023-cü ildə təşkilat İrəvanda 20 milyon dollar dəyərində beş illik proqrama start vermiş və həmin il USAID-in direktoru Samanta Pauer Ermənistana enerji sektorunu inkişaf etdirməyə kömək edəcəyini bildirmişdi. USAID-in “narahatlığı” aydın idi, təşkilat Ermənistanın enerji məsələsində Rusiyadan asılılığını azaltmaq istəyirdi. Artıq 2024-cü ilin fevralında qurum “Ermənistanda enerji sektorunun təhlükəsizliyini təmin etmək üçün uzunmüddətli proqrama əlavə maliyyə ayrılacağını” elan etmişdi. 2024-cü ilin mart ayının sonunda USAID Ermənistanın “enerji təhlükəsizliyi” mövzusunda növbəti iclas keçirmişdi. Bundan sonra yeni proqramlar üçün ayrılan vəsaitin 40 faizi (8,6 milyon dollar) “Ermənistanın enerji təhlükəsizliyinin gücləndirilməsi”nə yönəldilmişdi.

USAID Bürosunun Avropa və Avrasiya üzrə direktoru Erin Makki İrəvanı ABŞ-ın dinc nüvə enerjisi sahəsində əməkdaşlıq layihələri üçün mühüm tərəfdaş adlandırmışdı. Bütün bunların fonunda ABŞ-ın Ermənistana modul stansiyaları yerləşdirməyə “kömək etməyə” hazır olduğu barədə söhbətlər gedirdi. Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan isə hətta Ermənistanla ABŞ arasında yeni atom elektrik stansiyasının tikintisi üzrə danışıqların substantiv fazaya keçdiyini bəyan etmişdi. Məqsəd aydın idi: Qərb texnologiyalarından istifadə etməklə yeni enerji blokunun tikintisi təkcə Ermənistanı elektrik enerjisi ilə təmin etməyəcək, həm də İrəvanın enerji məsələsində Rusiyadan asılılığını azaldacaq.

USAID hayların təkcə enerji sahəsində “müstəqil” olmalarının qayğısına qalmırdı. Qurum həm də Ermənistanda Qərbin “mənəvi dəyərləri”nin də güclənməsinə çalışırdı. Belə ki, USAID-in Ermənistandakı fəaliyyətlərə dair hesabatında bir çox proqramlar arasında LGBT icması üzvlərinin hüquqlarının təşviqi də qeyd olunur. USAID Ermənistandakı QHT-yə 2019-cu ilin sentyabrından 2022-ci ilin sentyabrınadək 1,1 milyon ABŞ dolları ayırmışdı. Proqramın məqsədi də “insan hüquqlarının təşviqi və onları zorakılıq və ayrı-seçkilikdən qorumaq”dan ibarət olmuşdu. Bundan başqa, USAID-in Ermənistan missiyasının direktoru Con Allelo ötən ilin dekabr ayında mətbuata açıqlamışdı ki, qurum hazırda İrəvanda və Ermənistanın bütün regionlarında ümumilikdə 32 proqram həyata keçirir. Allelo 2018-ci ildən agentliyin erməni missiyasının maliyyələşdirilməsinin 75 faiz artdığını da bildirmişdi.

Erməni ekspertlər deyirlər ki, USAID-in fəaliyyətinin miqyasının azaldılması iş yerlərinin itirilməsi və bir çox proqramların dayandırılması ilə nəticələnəcək. Eyni zamanda, qurumun bağlanması Ermənistandakı bir sıra islahatlara da təsir edəcək, çünki agentlik bununla birbaşa məşğul olurdu. Politoloq Qriqor Balasanyan buna misal olaraq hüquq-mühafizə sistemində aparılan islahatları göstərir: “Polis patrul xidmətinin başına gələnləri görmək maraqlı olacaq, çünki mətbuata görə, onun maliyyəsinin bir hissəsi USAID tərəfindən verilirdi. Milli Qvardiyanın formalaşdırılması prosesi, Ədliyyə Nazirliyində aparılan islahatlar necə olacaq? İctimai rəyi formalaşdıran və USAID tərəfindən maliyyələşdirilən mətbuat klublarının gələcək taleyi də aydın deyil”. Onun sözlərinə görə, çoxlu sahələr var və təbii ki, onların zəiflədilməsi və ya bağlanması dövlət siyasətinə, ilk növbədə, təbii ki, daxili siyasətə öz təsirini göstərəcək, çünki dövlət bu vəsaitləri təkbaşına doldurmağa məcbur olacaq.

Bir sözlə, USAID-in ABŞ-ın xarici siyasət alət olduğunu hamı bilir. Qurumun uzun illər ərzində ayırdığı maliyyə vəsaitləri sayəsində Ermənistanda maraqlarına uyğun hərəkət edən “vətəndaş cəmiyyəti” fəalları formalaşdırmaq bacarığı ortadadır. Ancaq indi vəziyyət dəyişir. Ağ ev USAID-i milli maraqlara cavab verməməkdə ittiham edir. Bu da “sorosçu” erməniləri də ciddi şəkildə narahat edir və onlar düşünürlər ki, USAID-in Ermənistandakı fəaliyyətinin başa çatması vətəndaş cəmiyyətinin ab-havasını və palitrasını əhəmiyyətli dərəcədə dəyişəcək. Belə bir perspektiv isə Ermənistanda Qərb küləklərinin əsməsini dayandıra bilər. Buna görə də, Ermənistanda müxtəlif media qurumları, QHT-lər ABŞ hökumətinin USAID-lə bağlı mərhəmətə gələcəyinə ümid edirlər. Lakin Ağ evin son bəyanatları göstərir ki, Birləşmiş Ştatlar sağa-sola pul paylamağı dayandıracaqlar. Bundan sonra ABŞ-ın real strateji maraqlarına uyğun gələn layihələrə vəsait ayrılacaq. Bu isə o deməkdir ki, ermənilər USAID-in əvvəlki “sevgisini” hiss edə bilməyəcəklər.

***S.ELAY***
***XQ***

# Sülhü bölgədə yox, uzaqda axtarmaq fitnəsi



*(əvvəli 1-ci səhifədə)*

Paşinyan məqalədə qoyduğu sualı özü cavablandırır: “Ermənistan Azərbaycana hücum etmək niyyətindədirmi? Neytral müşahidəçi qeyd edə bilər ki, Ermənistan hökuməti bu məsələ ilə bağlı şərhə yer buraxmayıb. Mən dəfələrlə bəyan etmişəm və indi də aydınlaşdırmağı zəruri sayıram ki, Ermənistan 2022-ci il oktyabrın 6-da Praqada Ermənistan və Azərbaycanın Alma-Ata Bəyannaməsinin prinsipləri əsasında bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanıması barədə strateji razılaşmaya sadiqdir. Yəni, Ermənistan Azərbaycan SSR ərazisi daxilində Azərbaycan Respublikasının ərazi bütövlüyünü və suverenliyini, Azərbaycan isə Ermənistan SSR ərazisi daxilində Ermənistan Respublikasının ərazi bütövlüyünü və suverenliyini tanıyır”.

Ola bilsin ki, Paşinyan bunu deyərkən Bakıya hər şeyi “sıfırdan başlamaq” təklifində səmimidir. Ən azı ona görə ki, təklifin motivləri başadüşüləndir. Paşinyan ölkəsini Qərb strukturlarına – NATO və Avropa Birliyinə inteqrasiyaya yönəltməyə çalışır. Bunun üçün Türkiyədən sərhədi açmaq və buradan Avropaya daha qısa marşrutla mal idxal etmək üçün Ankara ilə münasibətləri yaxşılaşdırmaq onun üçün faydalıdır. Həmçinin gələcəkdə Ermənistanın NATO-ya daxil olması məsələsi ortaya çıxanda Türkiyənin dəstəyinə ehtiyac yaranacaq. İntəhası, ikitərəfli əlaqələrin bərpası üçün Ankara ortaya ciddi şərt qoyub: Bakı ilə münasibətləri normallaşdırsın. Deməli, Paşinyanın Azərbaycanla sülh müqaviləsini imzalamaq üçün motivi var. Amma, o, ümidlərini Ermənistan–Azərbaycan münasibətlərinə deyil, daha çox Ermənistan–Türkiyə əlaqələrinin bərpasına bağlayır. Bu səbəbdən sülhü unutdurmaq, “iz azdırmaq” üçün xaricə səfərlərini intensivləşdirib.

**Milli Məclisin deputatı, politoloq Asim Mollazadə mövzu ilə bağlı XQ-yə açıqlamasında Paşinyanın özəl cəhətlərindən biri kimi ora-bura qaçmasına, getdiyi yerlərdə isə fərqli açıqlamalar verməsinə diqqət çəkdi:** “Vaşinqtondan



yeni qayıdıb, ardınca Parisə getdi, daha sonra Moskvaya səfər etməlidir. Paşinyan hara gedirsə, orada yeni tezislər irəli sürür, “təzə mahnılar” oxuyur. Hətta eyni günün içində bir-birinə zidd açıqlamalarla çıxış edir. Hayların baş naziri bütün buları ona görə edir ki, sülh sazişini imzalamaqdan qorxur. Ona görə ki, o, revanş xəyallarından əl çəkməyən, müharibə istəyən diaspordan çəkinir. Eləcə də daxildəki birləşmiş müxalifətdən, Qarabağ klanından, keçmiş hakimiyyət mənsublarından, o cümlədən Rusiyadan ehtiyat edir. Və o, düşündüyü oyunları oynamaqla, bir-birini təkzib edən bəyanatlar verməklə hamını aldada biləcəyini zənn edir. Bu zaman sülhə doğru real addımlar atmağa siyasi iradəsi çatmır. Çünki bunu ona imkan verməyən qüvvələr kifayət qədər güclüdür. Yəni, Ermənistanın baş naziri sülhdən ağızdolusu danışır, amma ona tərəf getmir. Güman edirik ki, Nikol Paşinyanın bu ikibaşlı oyunlarının müəyyən məqamda opponentləri tərəfindən faciəyə çevrilməsi də istisna deyil. Belə olan halda Paşinyan hakimiyyətini itirə bilər.

Hazırda Ermənistanın daxilində də mübarizə gedir. Bundan başqa, xaricdəki erməni diasporların öz içərilərində problemlər yaşanmaqdadır. Ermənistan–diaspor problemi kifayət qədər ciddi şəkil alıb. Səbəb odur ki, onların məqsəd və hədəfləri heç də üst-üstə düşmür. Bunun nə ilə nəticələnəcəyi məlum deyil. İndi onu deyə bilərik ki, əgər Ermənistan Azərbaycana qarşı hansısa formada hərbi təxribata yol verərsə, bu halda ölkənin mövcudluğu sual altında qalacaq. Bu ölkə dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üzləşə bilər”.

* * *

Belə məlum olur ki, Ermənistan–Azərbaycan münasibətləri, əslində, Paşinyan üçün önəmli deyil, haradasa Avroatlantik strukturlara inteqrasiya prioritet sayılır. Çünki üçüncü qüvvələrin sərhəddə yerləşdirilməsi Bakı üçün qəbuledilməzdir. Məntiqlə, ən azı, Ermənistan sərhədində xarici qüvvələrin olmaması ilə razılaşmaq məqsədəuyğun olardı. Sonda tam aydındır ki, Azərbaycan tərəfindən hətta eskalasiyaya heç bir eyham olmadığı halda, sərhəddə vəziyyətə nəzarət etməyə ehtiyac yoxdur. Və bütün oyunçular yaxşı bilirlər ki, Avropa İttifaqının mülki müşahidə missiyası iki ölkənin şərti sərhədində şübhəli işlərlə məşğuldur.

Nikol Paşinyan məqaləsində iddia edir ki, Praqada əldə edilən razılaşmaların əksinə olaraq, Azərbaycandan ən yüksək səviyyədə Ermənistanın ərazi bütövlüyünü şübhə altına alan bəyanatlar səsləndirilir: “Bu bəyanatlar ən dolğun şəkildə ali rəhbərliyin himayə etdiyi “Qərbi Azərbaycan”ın diskursunda öz əksini tapıb. Bu eyniadlı təşkilatın təsis sənədlərində Ermənistan Respublikasının suveren ərazisinin təxminən 60 faizi hazırda Ermənistanın nəzarətində olan ərazilərdir. Yaxud “Ermənistan Respublikası” adlanan siyasi-hüquqi vahidin nəzarətində olan ərazilər”.

“Real Ermənistan”ın tarixinə yaxşı bələd olan hayların baş naziri soydaşlarımızın məhz Qərbi Azərbaycandan hansı dönəmlərdə və nə səbəbə deportasiya olunduğunu da bilməmiş deyil. Bakının milyardlarla dollar dəyərində silah alması “faktını”, bunun müqabilində aqressiv ritorikasını məqaləsində qeyd edən Paşinyan Azərbaycanda Ermənistanın təhlükəsizliyinə “real təhdidlərin” yarandığından bəhs edir: “Bu vəziyyətin həlli yolları masa üzərindədir və onlar Ermənistan və Azərbaycan nümayəndələrinin birgə işi nəticəsində hazırlanıb”.

Bunun ardınca hay baş nazirin özünütəkzib qeydləri başlayır: “Sülh müqaviləsinin artıq razılaşdırılmış maddələri nəinki bir-birinə qarşı ərazi iddialarının olmaması, həm də gələcəkdə belə iddiaların əmələ gəlməməsi məsələsini tamamilə həll etdi. Sülh müqaviləsinin imzalanması bir-birinə qarşı ərazi iddiaları irəli sürən Ermənistan və Azərbaycanın üzünə Praqada onsuz da bağlanmış qapıları həmişəlik bağlayır”.

Məgər Bakı bundan fərqli təkliflər verib? Baş nazir Paşinyanın Ermənistan daxilində çoxlu siyasi düşməninin olduğu yeni fakt deyil. Köçəryan və Sarkisyanın ətrafında cəmləşmiş Qarabağ klanı ən təhlükəli qüvvədir. Paşinyan bu klandan qurtulmaq istəsə də, nədənsə Qarabağ separatçılarının başçılıq etdiyi bu hərbi cinayətkar dəstənin rəhbərlərinin Bakıya ekstradisiya perspektivindən danışmır. Əgər, o, bu addımı atarsa, onda Azərbaycan ilə Ermənistanın əvvəlki İrəvandan həqiqətən ayırmaq istədikləri müasir İrəvan arasında münasibətləri yaxşılaşdırmaq üçün məntiqli siyasi sövdələşmə olardı.

Maraqlıdır ki, bu kontekstdə keçmişin illüziyalarından imtina etməyə qərarlı görünən, “real Ermənistan” konsepsiyasını hazırladığını bəyan edən Paşinyan bu istiqamətdə hələ də konkret addım atmayıb.

* * *

“Görünən odur ki, Nikol Paşinyan özünün Qərbyönlü bəyanatları ilə Rusiyadan daha da uzaqlaşmaq istəyir, amma bununla həm də Kremli qıcıqlandırır”.

**Bu fikrin müəllifi, Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxov hesab edir ki, Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzinin bununla bağlı açıqlaması təsadüfi deyil:**



“Qaluzin bəyan edib ki, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi Qərbin təklif etdiyi platformalarda imzalana bilməz. Əslində, bu, Paşinyana ünvanlanmış bir işarədir. Yaranmış vəziyyətdə məhz dediyimiz səbəbdən İrəvanla Moskva arasında yeni gərginlik dalğasını müşahidə etməkdəyik. Ermənistan baş nazirinin son bəyanatları, xüsusilə soyqırımı barədə yeni açıqlaması Kremlin əsəblərini tarıma çəkib.

Paşinyanın bəyan etdiyinə görə, 1939-cu ilə qədər “soyqırımı” məsələsi gündəmdə olmayıb. Yalnız İkinci dünya müharibəsindən sonra ictimai rəyə sırınan bu mövzu Türkiyənin NATO-ya daxil olması ilə birbaşa bağlı idi. Şübhəsiz ki, bu, Moskvanı çox narahat edən tezislərdən biridir. Eyni zamanda, hiss olunur ki, kənarda özünə dəstək axtarışına çıxan Paşinyan Vaşinqtonda ictimai xadimlərlə görüşdü və indi də Fransaya gedib. Yəqin onlardan da yardım umacaq. Amma üz tutduqları ünvanların ona nə dərəcədə kömək edəcəkləri hələ məlum deyil. Azərbaycanın mövqeyi ondan ibarətdir ki, Paşinyan bizim sülh şərtlərimizə əməl etsin. Bakının şərtləri beynəlxalq hüquqa, ədalət prinsipinə əsaslanan şərtlərdir. Ermənistan konstitusiyasına dəyişikilik, sərhədlərin delimitasiya və demarkasiyanın aparılması, hələ də işğal altında qalan kəndlərin qaytarılması, Zəngəzur dəhlizinin açılması. Bu, Azərbaycanın açıq şəkildə nümayiş etdirdiyi mövqedir. Hayların baş naziri gec-tez bunlara əməl edəcəyini yaxşı başa düşür. Əks-təqdirdə sülh müqaviləsi bağlana bilməz”.

Nikol Paşinyanın sözlərinə görə, “sülh müqaviləsi imzalanmağa yaxındır, sadəcə, siyasi iradə nümayiş etdirmək qalır”. Hayların baş naziri canlı şahiddir ki, Bakının siyasi iradə məsələsində heç vaxt problemi olmayıb. İntəhası, əvvəlcə aydınlaşdırmaq lazımdır ki, Nikol Paşinyanın sözlərinə etibar etmək olar, yoxsa yox?

Sonda ümumiləşdirərək, bir daha qeyd etmək istərdik ki, Nikol Paşinyanın nə dediklərinə, nə də yazdıqlarına etibar etmək olar. Amma sülhə tərəf yalandan əl-qol atmaması üçün onu evinəcən qovmaq daha məqsədəuyğundur: kənarda sülh axtarışlarına son qoyması üçün. Müdriklərdən birinin dediyi kimi, siyasi avantüristlər sıxılmış vəziyyətdə məntiqli və adekvat davranır, hər şeyə imza atırlar. Paradoksal səslənsə də, ikitərəfli münasibətləri normallaşdırmaq üçün, bu, ən optimal variantlardan biridir...

***İmran BƏDİRXANLI,***
***XQ***

# Borçalıda həftəsonu məktəbləri

**Diasporla İş üzrə Dövlət Komitəsinin layihələri çərçivəsində Dmanisi Tədris Mərkəzinin təşkilatçılığı ilə rayonun Qarabulaq kəndində həftəsonu məktəbi fəaliyyətə başlayıb. Məktəbdə müxtəlif yaş qruplarından azərbaycanlı uşaqlara ana dili və gürcü dilini dərindən öyrənmək imkanı yaradılıb.**



Mərkəzin rəhbəri Kamran Xıdırov XQ-yə bildirdi ki, məktəbə ixtisaslı müəllimlər cəlb olunub, uşaqlar isə Azərbaycan dilini mükəmməl öyrənməyə böyük maraq göstərirlər. Onlar həftəsonu məktəbin xidmətlərindən həvəslə istifadə edirlər: “Bu məktəblərin məqsədi yeni nəslə doğma dilimizi ədəbi dil səviyyəsində öyrətməklə yanaşı, milli tariximizi, mədəni dəyərlərimizi onlara ətraflı çatdırmaqdır. Hamamlı və Qarabulaq kəndlərindəki Azərbaycan dili kurslarında gürcü dilinin də tədris olunmasını vacib hesab edirik. Bu kəndlər dağlıq zonada yerləşdiyindən onların gürcü dilini öyrənməsinə dəstəyə ehtiyac var idi”.

Məktəbin Azərbaycan dili müəllimi Etiqam İsmayılovla əlaqə saxladıq, soydaşımız dedi: “Ana dilini mükəmməl mənimsəmədən ulu öndər Heydər Əliyevin formalaşdırdığı azərbaycançılıq ideologiyasından xəbərdar olub ondan bəhrələnmək çətindir. Kursa gələn uşaqlar Azərbaycanın orta məktəblərində tədris olunan “Əlifba” və “Ana sözü” dərsliklərindən istifadə edirlər. Onlara Azərbaycan yazıçılarının uşaqlar üçün yazdıqları bədii nümunələri də çatdırırıq”.

“Bazar günü” məktəbinin gürcü dili müəllimi Maya Xmaladze isə qeyd etdi ki, son illərdə Gürcüstanın ali məktəblərinə test üsulu ilə daxil olan azərbaycanlı tələbələrin sayının xeyli artmasında bu kursların xüsusi rolu var: “İki xalq arasındakı dostluq münasibətlərinin möhkəmləndirilməsində, azərbaycanlıların gürcü cəmiyyətinə inteqrasiyasında da bu kursların önəmi böyükdür”.

***P.ƏMİRCANOV***
***XQ***

Replika

# Yaqlandın “şərəf” ləkəsi

**Göstərilən xidmətin müqabilində pul, hədiyyə öz yerində, hətta rəsmi təltif də keçərli sayılırmış. Söhbət uzun illər hayların hüzurunda duran, anti–Azərbaycan fəaliyyəti ilə tanınan Avropa İttifaqının keçmiş baş katibi Turbyern Yaqlanddan gedir. Daha doğrusu, onun Ermənistan Respublikasının “Şərəf” ordeni ilə təltif edilməsindən.**



Hayastanın “şərəf”ləndirdiyi bu zat uzun illər ölkəmizə qarşı aparılan çirkin kampaniyalarda ön sıralarda olub. Ermənistan xarici işlər naziri Ararat Mirzoyanın Norveçə rəsmi səfəri zamanı yaxasına sancdığı ordenə fərəhlə baxıb, “Ermənistan daim qəlbimdə yaşayacaq” – deyən T.Yaqlandın 5 il bundan əvvəl insan hüquqları ilə bağlı Azərbaycana sanksiyaların tətbiqi məsələsini qaldıran amerikalı konqresmenlərlə birgə canfəşanlığını unutmamışıq. Burada Yaqlandın məqsədinin heç də insan hüquqlarının qorunmasına töhfə vermək olmadığı məlum faktdır. Əgər Aİ-nin keçmiş rəhbərinin zərrə qədər şərəfi olsaydı, 1 milyondan artıq qaçqın və məcburi köçkünümüzün hüququnun bərpasından da danışardı.

* * *

Qəlbindən “hay sevgisi” əskik olmayacaq Yaqlandın təltifetmə mərasimində A.Mirzoyanın çıxışından: “Sizə bu ordeni təqdim etmək mənim üçün böyük şərəfdir. Bu, demokratiyamıza və ölkələrimiz arasındakı əlaqələrin möhkəmlənməsinə verdiyiniz töhfənin nişanəsi və sübutudur”.

Yaqland cavabında belə deyib: “Bu ordeni almaq böyük şərəf və məmnuniyyət hissidir”. Sonra rüşvət kimi aldığı ordenin sevincindən özünü itirmiş qoca norveçli bir hekayət danışıb. “İlk dəfə ermənilərlə və Ermənistanla tanış olanda Norveçin xarici işlər naziri idim. İordan çayının Qərb sahilinə – Ramallaha səfərə getmişdim. Ramazanın son günləri idi. Yasir Ərəfatın bir ənənəsi vardı: bölgədəki bütün dini liderləri Ramazanın son günündə iftar süfrəsinə dəvət edirdi. Məni də dəvət etmişdilər. Yasir Ərəfatın yanında oturmuşdum, sağımda isə yaşlı bir kişi əyləşmişdi. Kim olduğunu bilmirdim, lakin onun üzərində qeyri-adi bir geyim vardı. O, yaşlı adam idi və düşünmürdüm ki, mənim kim olduğumdan xəbəri var. Amma sonra o, mənim Norveçin xarici işlər naziri olduğumu öyrəndi və bilirsiniz nə etdi? Cibindən bir sənəd çıxardı və dedi: “Bu sənəd mənim bütün həyatıma müşayiət edib, bu, mənim həyatımı xilas edib. O sənəd Nansen pasportu idi”.

Yəni, “uğurdan başgicəllənmə” keçirən Yaqland mərasimdə danışdığı hekayət ilə, yəqin özü də bilmədən, hayların ordeninin onu kasıbçılıqdan xilas etməsinə, erməni lobbisinin qonorarları hesabına əla gün-güzəran keçirdiyinə işarə vurub. O, Avropa Şurası tərəfindən Ermənistan üçün bir şey edə bildiklərinə, ona dəstək olduqlarına görə qürur duyduğunu ərz edəndən sonra üzünü Mirzoyana tutub deyib: “Mən çox şadam ki, sizdə parlament respublikasına keçidi dəstəklədik və bununla böyük töhfə vermiş olduq”.

“Atı atın yanına bağlayanda həmrəng olmasa da, həmxasiyyət olar”. Müdriklərimiz bu kəlamı elə Turbyern Yaqland kimilərini nəzərdə tutub deyib. Təmənnalı xidmətinin əvəzi olaraq “şərəflənmiş” norveçlinin çıxışında hay riyakarlığının izləri aydın sezilir. Belələri ənam naminə nəinki ədaləti ayaqlar altına atmağa, haqlı tərəfə qara yaxmağa, hətta sivil insanların həyatını qurban verməyə hazırdırlar. T.Yaqlandın Aİ-də səs verdiyi sənədlər, irəli sürdüyü əsassız fikirlər, separatçı və terrorçulara qucaq açması bunun əyani sübutlarıdır.

Bu gün də Qərbin bəzi institutları və ayrı-ayrı siyasiləri səlahiyyətlərindən sui-istifadə edərək demokratiya, insan hüquqları adı altında bir sıra ölkələrə təzyiq və təsir etmək istəyirlər. Türkofob, İslamofob, ermənipərəst dairələr bu işdə xüsusi fəallıq göstərirlər. Ancaq daha Azərbaycanla bu dildə danışmaq mümkün deyil. Cənubi Qafqazda söz və güc sahibinə çevrilən Azərbaycan o cür ucuz təhdidlərə cavab vermək iqtidarındadır. Bu zaman Aİ-nin nə keçmiş, nə də indiki rəhbərliyi Azərbaycanın yanından yel olub keçə bilməz.

***İ.HƏSƏNQALA***
***XQ***

# Türkiyə ilə miqrasiya əməkdaşlığı

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanla miqrasiya sahəsində əməkdaşlığa dair Hökumətlərarası Sazişi təsdiq edib. Qardaş ölkə rəhbərinin müvafiq sərəncamı fevralın 10-da rəsmi hökumət nəşri olan “Rəsmi qəzetə”də dərc olunub. Bu razılaşma bir sıra əməkdaşlıq məsələləri ilə yanaşı, iki ölkənin qeyri-leqal miqrasiya ilə mübarizə üzrə qarşılıqlı fəaliyyətini də ehtiva edir.**

Miqrasiya proseslərinin tənzimlənməsi ölkənin inkişafı və təhlükəsizliyi baxımından mühüm əhəmiyyət kəsb edir. Hazırda dünyada hər 35 nəfərdən biri beynəlxalq miqrantdır. Bu isə 175 milyon nəfər, yəni dünya əhalisinin 2,9 faizi deməkdir.

Bu rəqəmlər bir daha təsdiq edir ki, miqrasiya dünyanın qloballaşmasının aydın göstəricilərindən biridir və insanların yerdəyişmə proseslərini əhatə edir. Miqrantlar arasında azərbaycanlılar da var.



Soydaşlarımızın miqrasiyası bir neçə amillə bağlıdır. Birincisi, iqtisadi səbəbdir. Belə ki, SSRİ dağıldıqdan sonra, bir sıra zavod və fabriklər bağlandı, məşğulluğun səviyyəsi aşağı düşdü. İşsizlik və əmək haqlarının aşağı olması çoxlu sayda azərbaycanlı miqrantın iş axtarışı üçün qonşu ölkələrə üz tutmasına səbəb oldu. Münasib iş tapa bilməyən, sosial cəhətdən təmin olunmayan, yaşayış səviyyəsi aşağı insanlar başqa ölkələrə miqrasiya etdilər.

Eyni zamanda, Ermənistanla münaqişə də bu prosesə təsirsiz ötüşmədi. Torpaqlarımızın işğal edilməsi nəticəsində bir milyon Azərbaycan vətəndaşı qaçqın və məcburi köçkün vəziyyətinə düşdü. Onların bir hissəsi xarici ölkələrə miqrasiya etdi. Bu ölkələr arasında Türkiyə əsas yer tutur. Onların əksəriyyəti müvafiq sənədləri olmadığından qeyri-rəsmi yaşayırlar. Bəziləri isə saxta nikaha girərək ailə qururlar. Bu, soydaşlarımızın qarşılaşdığı əsas problemlərdən biridir. Belə nikahlardan doğulmuş azərbaycanlı uşaqlar heç bir yerdə rəsmi qeydiyyatı olmadan böyüyürlər.

Qeyri-rəsmi məlumatlara əsasən, belə miqrantların sayı 40 min nəfərə yaxındır. Onların taleyi həmişə Azərbaycan dövlətinin diqqət mərkəzində olub. Azərbaycanda da türkiyəli miqrantlar var. İki ölkə arasındakı dil və mədəniyyət yaxınlığı qarşılıqlı miqrasiyanın intensivliyini artırır. Azərbaycanda yaşayan və işləyən əcnəbilər arasında Türkiyə vətəndaşları ilk sıradadır. Bu tendensiyanın ilbəil artması ölkələrimizin miqrasiya qurumları arasındakı əməkdaşlıqda nəzərə alınır. Ötən il iyunun 6-da imzalanmış miqrasiya sahəsində əməkdaşlığa dair Hökumətlərarası Saziş də bu məqsədə xidmət edir. Sazişə əsasən, milli şəxsiyyət vəsiqələri əsasında vətəndaşların vizasız gediş-gəliş rejimi tətbiq edilir. Hər iki ölkə vətəndaşlarının əmək fəaliyyətinə cəlb olunması məsələsi də həllini tapır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Ruben Vardanyanın təqsirləndirildiyi cinayət işinin məhkəmə baxışı davam etdirilib

**Ermənistan vətəndaşı olan, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin işgəncə, muzdluluq, müharibə qanunlarını və adətlərini pozma, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə və digər maddələri ilə təqsirləndirilən Ruben Vardanyanın barəsində olan cinayət işi üzrə məhkəmə prosesinin baxış iclası fevralın 10-da davam etdirilib.**



Bakı Məhkəmə Kompleksində yerləşən Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün vəkillərlə təmin olunub.

Məhkəmə iclasında zərərçəkmiş şəxslər, onların hüquqi varisləri və nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar, habelə Azərbaycan dövləti adından zərərçəkmişin nümayəndəsi qismində Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədov iştirak ediblər.





Ruben Vardanyanın müdafiəçisi, vəkil Avraam Berman hüquqlarını qoruduğu təqsirləndirilən şəxslə konfidensial görüş üçün şərait yaradılmasına dair vəsatət verib. Məhkəmə vəsatəti təmin edib, təqsirləndirilən şəxsə vəkili ilə konfidensial görüş üçün şərait yaradıb və bununla bağlı məhkəmədə fasilə elan olunub.

Fasilədən sonra məhkəmə iclası davam etdirilib.

Sədrlik edən hakim məhkəmə prosesinə yeni tərcüməçilərin cəlb olunduğunu elan edib. İttiham və müdafiə tərəfi məhkəmə baxışına yeni cəlb olunan tərcüməçilərin iştirakına etiraz etməyib.

Daha sonra Ruben Vardanyan tərəfindən qaldırılan vəsatətlərin təmin olunmamasını əsas gətirərək işə baxan hakimlər kollegiyasının cinayət təqibində maraqlı olduğunu bildirib və məhkəmə tərkibinə etiraz edib. Təqsirləndirilən şəxsin vəkilləri etirazı müdafiə ediblər.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev vəsatətə münasibət bildirərək qeyd edib ki, Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində hakimə etirazın konkret halları müəyyən edilib və bu etiraz əsaslandırılmalıdır.

Eyni zamanda, qanunvericiliyə əsasən, hakimin cinayət təqibində maraqlı olmasını təsdiqləyən konkret və mötəbər sübutlar olduqda etiraz etmək olar. Prokuror deyib ki, prosesin hazırkı mərhələsində müdafiə tərəfi məhkəmə kollegiyasının cinayət təqibində maraqlı olmasına dair konkret sübut təqdim etmədiyindən etiraz baxılmamış saxlanılmalıdır.

Zərərçəkmişin nümayəndəsi qismində Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədov və məhkəmədə iştirak edən digər zərərçəkmiş şəxslər də etirazın baxılmamış saxlanılmasını məhkəmədən xahiş ediblər.



Bundan sonra məhkəmə etiraza baxmaq üçün müşavirəyə gedib. Müşavirədən sonra elan edilən qərara əsasən, etiraz baxılmamış saxlanılıb.

R.Vardanyanın vəkili məhkəməyə müraciət edərək müdafiə etdiyi təqsirləndirilən şəxslə konfidensial görüş üçün yenidən şərait yaradılmasını xahiş edib. Hakim konfidensial görüş üçün şərait yaradıb.

Bununla əlaqədar məhkəmədə fasilə elan olunub.

Fasilədən sonra məhkəmə prosesi dövlət ittihamını müdafiə edən prokurorlar tərəfindən cinayət işi üzrə ittiham aktının nəticəvi hissəsinin elanı ilə davam etdirilib.

İttiham aktının Ermənistan dövlətinin və onun hərbi qüvvələrinin bilavasitə iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə Azərbaycana hərbi təcavüz etmək məqsədilə Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə yaradılmış cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibə nəticəsində Azərbaycan Respublikasının suveren ərazilərinin işğal olunmasına dair cinayət əməlləri üzrə epizodları elan edilib.

Dövlət ittihamçısı Vüsal Abdullayev vurğulayıb ki, irəli sürülmüş ittihama əsasən qeyd olunan Ermənistan dövlətinin, onun silahlı qüvvələrinin və qanunsuz silahlı birləşmələrin apardığı təcavüzkar müharibə nəticəsində Azərbaycan Respublikasının Xankəndi şəhəri, Kəlbəcər, Şuşa, Laçın, Xocalı, Xocavənd, Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının tam, Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Kərki kəndi, Qazax rayonunun 7 kəndi - Bağanıs-Ayrım, Aşağı Əskipara, Xeyrimli, Barxudarlı, Sofulu, Qızılhacılı, Yuxarı Əskipara kəndləri, Ağdam, Füzuli rayonlarının rayon mərkəzləri və bir sıra kəndləri, Tərtər rayonunun bir sıra kəndləri yandırılmaqla, artilleriya qurğularından atəşlər açıb partladılmaqla, müxtəlif fiziki üsullarla qismən və tamamilə dağıdılmaqla, eləcə də oğurluq, soyğunçuluq, vandalizm aktları törədilməklə, talan edilməklə və digər üsullarla işğal edilib.

İşğal nəticəsində Azərbaycanın suveren əraziləri olan 12 şəhər, 18 qəsəbə, 895 kənd, ümumilikdə 925 yaşayış məntəqəsi işğal edilərək uzun illər ərzində işğal altında saxlanılıb. Bununla da xüsusi və dövlət mülkiyyətində olmuş ümumilikdə 37 min 168 əmlak üzrə 19 milyard manatdan artıq, tarix və mədəniyyət abidələri, məscidlər, kilsələr, muzeylər, tarixi binalar və qalalar üzrə 906 milyon manatdan artıq olmaqla, ümumilikdə 20 milyard manatdan artıq maddi ziyan vurulub.

Dövlət ittihamçısı Təranə Məmmədova ittiham aktının nəticəvi hissəsinin elan olunmasını davam etdirərək işğal nəticəsində dinc sakinlərin zorakılıqla yoxa çıxarılması, əsir və itkin düşmüş şəxslərə dair faktları, Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarənin şöbə rəisi Nəsir Bayramov isə muzdlu döyüşçülərdən istifadə olunması, Azərbaycan Respublikasının iqtisadiyyatına, ekologiyasına ciddi ziyan vurulması faktlarını sadalayıb.

İttiham aktının həcminin böyük olması nəzərə alınaraq, növbəti prosesdə ittiham aktının elan olunmasının davam etdiriləcəyi bildirilib.

Məhkəmənin növbəti iclası fevralın 13-nə təyin olunub.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, aparma), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə) əməllərinin törədilməsində təqsirləndirilib.

Həmçinin o, həmin Məcəllənin 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma), 318-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) və digər maddələrində nəzərdə tutulan əməllərin törədilməsində ittiham olunur.

**XQ**

# FHN-in Dövlət Yanğın Nəzarəti Xidmətində müşavirə



**Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidmətində 2024-cü ilin yekunları və 2025-ci ildə qarşıda duran vəzifələrin icrasına həsr olunmuş xidməti müşavirə keçirilib.**

FHN-in mətbuat xidmətindən bildirilib ki, müşavirəni açan Dövlət Yanğın Nəzarəti Xidmətinin rəisi daxili xidmət polkovniki Vaqif İbrahimov Xidmətin 2024-cü il ərzində fəaliyyəti barədə geniş məlumat verərək, ölkədə yanğın təhlükəsizliyinin etibarlı təmin edilməsi, o cümlədən vətəndaşların həyat və sağlamlığının, ölkənin milli sərvətlərinin yanğından qorunması istiqamətində müxtəlif təyinatlı obyektlərdə və yaşayış sahələrində qabaqlayıcı profilaktik tədbirlərin həyata keçirilməsinə nail olunduğunu qeyd edib. 2025-ci ildə də Xidmətin qarşısında duran vəzifələrin uğurla yerinə yetirilməsi üçün şəxsi heyətin səylə fəaliyyət göstərəcəyinə əminliyini bildirib.

Sonra nazirliyin Baş yanğın təhlükəsizliyi eksperti, daxili xidmət general-mayoru Yusif Nəbiyev çıxış edərək, ötən il əvvəlki illə müqayisədə yanğınların sayında azalmanın qeydə alındığını vurğulayıb, bu müsbət dinamikanın əsasında, ilk növbədə, nəzarət qurumunun yanğınların profilaktikası baxımından səmərəli fəaliyyəti və əhali arasında aparılan geniş maarifləndirmə işlərinin dayandığını qeyd edib, cari ildə Xidmətin qarşısında duran vəzifələrdən danışıb.

Daha sonra çıxış edənlər ötən il Xidmətin fəaliyyətinin ayrı-ayrı istiqamətləri üzrə məruzə edərək, görülmüş işlər barədə geniş məlumat verib, həmçinin cari ildə aidiyyəti üzrə atılacaq addımlardan danışıblar.

**XQ**

# Mərkəzi Seçki Komissiyasının iclası



**Məzahir Pənahovun sədrliyi ilə fevralın 10-da Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**

Əvvəlcə Komissiyanın fevralın 8-də keçirilmiş iclasının protokolu təsdiqlənib.

Sonra bu il yanvarın 29-da keçirilən bələdiyyə seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərə baxılıb. Komissiya üzvlərinin geniş müzakirəsinin nəticəsi olaraq, vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin edilməsi üçün hərtərəfli, obyektiv, şəffaf şəkildə araşdırılan və qanunvericiliklə müəyyənləşdirilmiş müddətdə və qaydada, operativ şəkildə iclasa çıxarılan müraciətlərlə bağlı müvafiq qərarlar qəbul edilib.

Media mənsublarının da iştirak etdiyi iclasın sonunda, həmçinin cari məsələlərə də baxılıb.

**XQ**



# Bakıda İranın milli bayramı

**Fevralın 10-da İranın Azərbaycandakı səfirliyi ölkəsinin milli bayramı - İslam İnqilabının 46-cı ildönümü münasibətilə rəsmi qəbul təşkil edib.**



Əvvəlcə Azərbaycanın və İranın Dövlət himnləri səsləndirilib.

İranın Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Seyid Cəfər Ağayi Məryan ölkəsinin inqilabdan ötən 46 ildə keçdiyi inkişaf yolundan danışıb, bu illərdə müxtəlif sahələrdə böyük uğurlar qazanıldığını vurğulayıb.

Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayev qeyd edib ki, bu gün ikitərəfli əlaqələrimizin müxtəlif sahələrdə inkişaf dinamikası məmnunluq doğurur. Bununla yanaşı, bir çox istiqamətlərdə - iqtisadiyyat, nəqliyyat, ticarət, investisiya, energetika, neft-qaz, kənd təsərrüfatı, humanitar və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı perspektivlər mövcuddur.

**XQ**

# Ankarada siyasi məsləhətləşmə



**Ankarada Azərbaycan Xarici İşlər Nazirliyinin regional təhlükəsizlik departamentinin direktoru Azər Musayevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə Türkiyə XİN-in Şərqi Avropa və Cənubi Qafqaz üzrə idarəsinin rəhbəri Mehmem Samsar arasında siyasi məsləhətləşmələr keçirilib.**

Azərbaycanın Ankaradakı səfirliyindən verilən məlumata görə, ikitərəfli siyasi əlaqələrin vəziyyəti və perspektivləri, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq üzrə fikir mübadiləsi aparılıb.

Məsləhətləşmələrdə Azərbaycanın Ankaradakı səfiri Rəşad Məmmədov da iştirak edib.

**XQ**

# USAID: demokratiya və hüququn əks tərəfində




**IV MƏQALƏ**

## USAID-in yardım proqramları: məqsəd nə idi?

Uzun müddət USAID-lə bağlı Azərbaycan KİV-də yayılan informasiyalar aşağıdakı məzmunda olmuşdur. Yazırdılar ki, "USAID-in yardım proqramları Azərbaycan xalqının həyatına birbaşa təsir göstərən fəaliyyətlərə, iqtisadi imkanların artırılmasına, habelə vətəndaş cəmiyyətinin gücləndirilməsinə yönəlib...1991-ci ildən USAID Azərbaycanda humanitar yardım və səhiyyə sektoruna, habelə iqtisadi və demokratik islahatlara 410 milyon ABŞ dollarından artıq vəsait xərcləyib".

ABŞ-ın Azərbaycandakı səfirliyinin 2021-ci il sentyabrın 28-də rəsmi səhifəsində yayılmış informasiyanın başlanğıcında vurğulanmışdı: "Bu gün Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi (USAID) Sosial-İqtisadi İnkişaf Fəaliyyəti (SEDA) layihəsi çərçivəsində İcma İnkişafı üzrə keçirilən beşinci konfransda Azərbaycan xalqı və hökuməti ilə əməkdaşlığının on illiyini qeyd edib. 10 illik SEDA proqramı Azərbaycanın bölgələrində sosial-iqtisadi inkişafı sürətləndirmək üçün vətəndaş iştirakçılığının, habelə vətəndaşlarla dövlət qurumları arasında tərəfdaşlığın gücləndirilməsinə töhfə verib. SEDA USAID tərəfindən, o cümlədən 2017-ci il dekabrın 31-nə qədər Azərbaycan hökuməti tərəfindən birgə maliyyələşdirilib. SEDA layihəsi ABŞ-da yerləşən qeyri-kommersiya təşkilatı olan "East-West Management Institute, Inc." (EWMI) tərəfindən İqtisadiyyat Nazirliyi ilə sıx əməkdaşlıq şəraitində həyata keçirilib".

Həmin xəbərin sonunda yazılmışdı: "USAID-in missiya direktoru Dr. Caydev Sinqxın sözlərinə görə, "SEDA Amerika xalqının və USAID-in Azərbaycan xalqı və Azərbaycan hökuməti ilə dostluğuna sadiqliyinin nümunəsidir. USAID Azərbaycan hökumətinin vətəndaşlarla əməkdaşlığını dəstəkləməyə; hökumətə daha şaxələnmiş və davamlı iqtisadiyyat yaratmaqda kömək etməyə; həm Azərbaycan, həm də Amerika xalqına xidmət edən uzunmüddətli tərəfdaşlığın əsasını formalaşdırmaq üçün inkişaf dialoqundan istifadə etməyə davam edir."

Bu seçmə informasiyalar nəyi ifadə edirdi?

**Birincisi,** Azərbaycan hökuməti öncədən, USAID-ə inanaraq, ona böyük hörmətlə yanaşmışdır, üzərinə düşənlərə tam əməl etmişdir.

**İkincisi,** informasiyalarda ayrıca vurğulanırdı ki, USAID Azərbaycan xalqı və Azərbaycan hökumətinin sadiq dostudur.

**Üçüncüsü,** "USAID Azərbaycan hökumətinin vətəndaşlarla əməkdaşlığını dəstəkləməyə" çalışır.

**Dördüncüsü,** USAID Amerika xalqı ilə Azərbaycan xalqı arasında uzunmüddətli tərəfdaşlığın əsaslarını formalaşdırmağa çalışır.

Gözəl səslənir, deyilmi? Bu mövzuda silsilə araşdırmalar və ABŞ-ın indiki rəhbərliyi isə bütün bunların doğru olmadığını və hətta təhlükəli fəaliyyətin ört-basdır edilməsi əlamətinin olduğunu təsdiq edir. Onda, təbii olaraq, sual meydana çıxır: USAID-in Azərbaycandakı fəaliyyətinin əsas məqsədi nədən ibarət olmuşdur? SEDA hansı anlamda və mahiyyətdə Azərbaycana "yardım proqramıdır"? Bir zamanlar USAID-in "Azərbaycanda filan icmalara filan yardımlar edilmişdir, proqramlar həyata keçirilmişdir" kimi hesabatlarının əsl mahiyyəti nədir?

## 1992-ci ildən başlanan macəra...

USAID-in rəsmi məlumatında deyilir: "USAID Azərbaycan Respublikasında 1992-ci ildən fəaliyyətə başlamışdır. Həmin il Azadlığa Dəstək Aktına edilmiş 907-ci düzəliş səbəbindən əsas fəaliyyət istiqaməti humanitar yardımla məhdudlaşmışdır".

Burada qeyri-adi heç nə yoxdur. Həmin dönəmdə hər tərəfdən təzyiqlərə məruz qalan Azərbaycan özünü humanitar cilddə göstərən USAID-ə qapıları açmalı idi. Bunun bədnam "907-ci düzəliş" fonunda baş verməsi isə ayrıca hadisədir. İndi aydın olur ki, reallıqda USAID-in məqsədləri ilə "907-ci düzəliş"i tərtib edənlərin niyyətləri arasında fərq olmamışdır; hər ikisi Azərbaycanın ABŞ-dan asılılığına çalışmışlar. Yəni, amerikan maraqlarının təmin edilməsinə çalışmışdır. USAID-in dərin qatlardakı məqsədləri haqqında yayılan informasiyalar isə göstərir ki, vəziyyət daha təhlükəli xarakterdə olmuşdur.

Məsələn, USAID bəyan edir ki, Azərbaycana 417 milyon ABŞ dolları həcmində yardım etmişdir. Ancaq bu rəqəm təcavüzkar Ermənistana olan yardımlardan 3 dəfə azdır. Üstəlik, USAID-in başında anti-Azərbaycan mövqeyi ilə seçilən Samanta Pauer durur. Samanta Pauer Soros Fonduna yaxın bir fiqurdur. O, dəfələrlə Bakını əsassız olaraq ittiham etmişdir.

2025-ci ildə rəsmi Bakının USAID haqqında qərar verməsi bütün bunlara görə, tamamilə təbii və gözləniləndir. Bu barədə 2025-ci il yanvarın 16-da Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramovun Gürcüstan Xarici işlər naziri Maka Boçorişvili ilə Bakıda keçirilən birgə mətbuat konfransında söylədikləri çox maraqlıdır. Onu xatırladaq ki, rəsmi Tbilisi son seçkidə USAID-in fəaliyyətinin çox neqativ olduğunu ifadə etmiş və onu dövlətin daxili işlərinə müdaxilə kimi qiymətləndirmişdir.

C.Bayramov isə vurğulamışdr ki, "2023-cü ilin sentyabr ayında Azərbaycan 23 saatlıq antiterror əməliyyatı keçirərək suverenliyini bərpa etdi. Bundan qısa müddət sonra biz ABŞ-dan beynəlxalq hüquqla uzlaşmayan hücumun şahidi olduq. 1992-ci ildə qəbul edilmiş Azadlığa dəstək aktına 907-ci düzəliş adlı bir sanksiya sənədi mövcud idi və onun Azərbaycana aid hissəsi uzun illər idi ki, dayandırılmışdı. Ancaq sonuncu dəfə bu dayandırılma baş vermədi və 20 il sonra sırf Azərbaycan suverenliyini bərpa etdiyi üçün bir növ "cəzalandırıldı".

Buna baxmayaraq, "Azərbaycan tərəfi dedi ki, əgər ABŞ Azərbaycana yardım etməkdə maraqlıdırsa, həmin yardımlar rəsmi şəkildə bütün şəffaflıqları özündə əks etdirməlidir". Lakin artıq 2024-cü ilin fevralında rəsmi Bakı bir həqiqətə əmin oldu.

Həmin ərəfədə Vaşinqtondan "Azərbaycana ən yüksək səviyyədə USAID çərçivəsində əməkdaşlığın davam etdirilməsi barədə mesajlar göndərildi. Biz qarşı tərəfə şərtlərlə bağlı danışıqların aparılmasının vacibliyini bildirdik və təkliflər yazılı şəkildə ABŞ-a göndərildi. Lakin fevraldan iyun ayına qədər bizə məlum oldu ki, ABŞ öz istəyini diktə edərək Azərbaycana qəbul etdirmək istəyir və Azərbaycanın heç bir legitim maraqlarını nəzərə almaq istəmir". Buna görə də, "USAID-in Azərbaycanda mövcudluğunun və təmsilçiliyinin davam etdirilməsinə ehtiyac yoxdur və fəaliyyətinin tam dayandırılmasının vaxtı yetişib".

Nəhayət, Donald Tramp administrasiyasının USAID-lə bağlı atdığı addımlar faktiki olaraq rəsmi Bakının tam haqlı olduğunu və onun vaxtında milli dövləti maraqlara uyğun qərar verdiyini təsdiq edir.

## Dərinlərdəki məqamlar

Belə aydın olur ki, USAID dərinlərdə Azərbaycanda özünün "zəif demokratiya" modelini tətbiq etməyə çalışmışdır. Onun xərclədiyi "humanitar pullar" əsasən buna xidmət etmişdir. Həmin prosesin Ermənistana daha ciddi dəstək vermək fonunda aparılması isə geosiyasi kontekstdə Azərbaycan üçün çox təhlükəli tendensiyadan xəbər verirdi. Onun iki aspektini vurğulaya bilərik.

**Birincisi,** USAID regionda Azərbaycanı təcavüzkar Ermənistandan asılı vəziyyətə salmağa çalışmışdır. Ermənilərin qondarma dövlətləri Azərbaycana nisbətən daha güclü və nüfuzlu olmalı idi. Sosial-iqtisadi və mədəni baxımdan da Azərbaycan cəmiyyəti erməni cəmiyyətindən aşağı səviyyədə olmalı idı. S.Pauer kimi saxta demokratlar bunun üçün müxtəlif yollara əl atmışlar.

O cümlədən, Qarabağı könüllü tərk etmiş ermənilərin hüquqları bəhanəsi ilə min cür oyunlardan çıxmışlar. Əlbəttə, bunları Azərbaycan hakimiyyəti çox gözəl görürdü və sonda konkret qərar qəbul etməli idi. Rəsmi Bakının aldığı qərarla USAID və ona bənzər təşkilatların erməni kultu yaratmaq kursu tam iflasa uğradı.

**İkincisi,** prosesin daha təhlükəli bir aspektini də vurğulamaq lazımdır. Biz USAID-in Azərbaycan cəmiyyətini zəiflətmək üçün apardığı informasiya, təbliğat və təşviqat işlərini nəzərdə tuturuq. Bir neçə ildir ki, bu istiqamətdə onlar fərqli metodlarla cəmiyyətə təsir etməyə çalışırlar. Adətən, onun iki aspekti olur.

**Birincisi,** iqtidar haqqında yalan informasiyalar yaymaqla onun legitimliyini zəiflətmək. Bu, sonradan xaotik üsyana aparıb çıxarmalı idi.

**İkincisi,** cəmiyyətin özünün antidemokratik, antisivil obrazını yaratmağa xidmət edən təxribat xarakterli informasiyalar yaymaq. Bu, toplumun özünə olan inamı və əminliyinin zəiflədilməsi ilə sonuclanmalı idi. Məqsəd cəmiyyətin öz ləyaqəti haqqında yanlış təsəvvürlərə malik olmasına nail olmaq əsasında müstəqil dövlət ola bilməyə şübhələr yaratmaqdan ibarətdir.

**Üçüncüsü.** Azərbaycanın milli adət-ənənələri, dini, mədəniyyəti və digər dəyərlərini təhrif etməklə iki hədəfə çatmaq məqsədi vardı. Onlardan biri toplumu mənəvi-əxlaqi cəhətdən daxildən parçalamağı, digəri isə müxtəlif etnik və dini mənsublar arasına nifaq salmağı nəzərdə tuturdu.

Bütün bunlar kompleks halında onu ifadə edir ki, Azərbaycan uzun müddətdir açıq və gizli cəbhələrdə təhlükəli informasiya müharibəsinin mərkəzində yer almışdır. Bu barədə dəqiq fikirləri Prezident İlham Əliyev müxtəlif kontekstlərdə dolğun olaraq ifadə etmişdir. Məsələn, 2024-cü ildə Şuşa Beynəlxalq Media Forumunda dövlət başçısının bununla əlaqədar bəyan etdiyi strateji xarakterli tezislərinə böyük maraq yaranmışdır.

Prezident İlham Əliyevin həmin fikirləri Azərbaycanın informasiya müharibəsinə cəlb edilməsinin konseptual təhlili məsələsini də ön plana çıxarır. USAID məsələsi həm də bu baxımdan daha dərindən araşdırılmalıdır. O cümlədən, onun Azərbaycan cəmiyyətini daxilən zəiflətmək xətti ilə "zəif demokratiya" modeli arasındakı nəzəri, siyasi və fəlsəfi bağlantıların tədqiqi çox vacibdir. Bu məsələ həm də II Qarabağ müharibəsindən sonra Azərbaycanda KİV-də aparılan informasiya təxribat xəttinin xüsusiyyətləri ilə sıx bağlıdır. Onun təhlili üzərində USAID kontekstində ayrıca dayanmaq gərəkdir.

**(ardı var)**

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# "Böyük manipulyator"

**Mark ENDEVELD**

*(əvvəli qəzetin ötən saylarında)*

## Axşam məsləhətçisi Mişel Şaras

Bununla belə, dövləti idarə edən adamların dördüncüsü olan Milli Assambleyanın sədri (Rişard Ferrand) hələ də yerli siyasi fiqurların hamısını öz tərəfinə çəkməkdə çətinlik çəkir, xüsusilə ona ki, onun Konstitusiya Şurasındakı keçmiş həmkarı Nikol Bellubeti ədliyyə naziri təyin etsin. Makron kimi bu keçmiş nazir və keçmiş senator da Sosialist Partiyasına dərindən nifrət edir. (Xüsusilə 2008-ci ildə Sosialist Partiyasından biabırçı şəkildə xaric edildiyinə görə) O, Sosialist Partiyasını lağca "Əyalət adamlarının partiyası" adlandırır. Ağır xəstəliyə düçar olub uzun müddət xəstəxanada yatmağına baxmayaraq, Mişel Şaras hazırkı prezidentlə daim əlaqə saxlayır.




görə ki, bu bölgədən olan digər iki makronist nazir – Jan-İv Lö Drian və Fransua dö Rüqy onunla dostluq etmirlər. Bu azmış kimi, Qimper şəhərinin keçmiş meri Bernard Puanyant öz növbəsində Fransua Hollanda sadiq qalır. Əvvəlki prezidentin dövründə Yelisey sarayının müşaviri olan bu adam Makronla yaxşı münasibət saxlayır, özü də o vaxt prezident sarayında onların kabineti eyni mərtəbədə yerləşirdi. Bundan əlavə, 2017-ci il yanvarın 16-da Bernard Puanyant mer olduğu Qimper şəhərində Makronun seçicilərlə görüşünü geniş şəkildə təşkil etmişdi. Görüşdən bir neçə saat əvvəl Makron ona zəng vurub: "Zəhmət olmasa, mənə Qimper şəhəri və Brotayn regionu haqqında geniş məlumat ver...", – deyə xahiş etmişdi. Bernard Puanyant cavab verir ki: "Qimper Breton dilində "su qovşağı" deməkdir... ya da "iki şeyin bir nöqtədə kəsişməsi..." və bu ifadələr sənə çox yaraşır...". Sonra bu qoca qurd (Bernard Puanyant) Makrona xəbərdarlıq edir: "Bilirsən, sən indi coşmusan, gözün ayağının altını görmür... amma ehtiyatlı ol, cəmiyyət səni məhv edə bilər". Daha sonra əlavə edir: "Sən hələ çox cavansan, Napoleon Bonapartdan da cavansan... uğur qazanmaq üçün, gərək sən cəmiyyətin gözündə model olasan, necə deyərlər, Fransa ilə evlənəsən, Fransa ilə ailə qurasan...". Və Makron cavabında deyir: "İnan ki, elə mən hal hazırda bununla məşğulam".

Makrona bu əcdadlardan qalma məsləhəti, həm də keçmiş büdcə naziri, Konstitusiya Şurasındakı mandatını yenicə başa vuran Mişel Şaras da verir. Vaxtilə Fransua Mitteranın silahdaşı olan bu adam, o qədər də Makronun təklif etdiyi "yeni dünya"nın adamı deyil. 1981-ci il mayın 10-da seçilən prezidentin (Mitteran) çox intim dostu olan Mişel Şaras, dövlət sirlərinin cikini də bilir, bikini də. O, sözün əsl mənasında V Respublikanın yaddaş diskidir. Ona görə də heç də təəccüblü deyil ki, Şirak da, Sarkozi də prezident olanda, onun məsləhətlərini su kimi içirdilər. Ancaq Fransua Holland Yelisey sarayında ağalıq edəndə, ona qətiyyən etibar eləmirdi, əksinə ondan uzaq qaçırdı. Çünki Mitteranın xüsusi məsləhətçisi olan Şaras, Yelisey sarayının altını da bilirdi, üstünü də. Özü də Mitteranın zibil işlərinin hamısından xəbəri vardı. Ona görə də Fransua Mitteranın hakimiyyətinin axırıncı illərində o, Şarl Paskua və o zamankı sağçılar partiyasından olan Baş nazir Eduard Balladür tərəfə daha çox yaxınlaşdı. Məhz elə o zaman Mitteranın bu xüsusi məsləhətçisi Nikola Sarkozi ilə tanış olur və elə tanışlığının ilk günündən ona qarşı simpatiyası yaranır. Həmin dövrdə o, Aleksandr Djurinin, eləcə də "Veolia" şirkətinin kommunikatorlarından biri olan Loran Obadianın yaxın adamı, keçmiş hüquqşünas Alan Marso ilə də tanış olur. Son illər Mişel Şaras ancaq və ancaq "yaxın dostları" ilə oturub-durur. O, müntəzəm olaraq sağçılar partiyasından olan tanışları Alain Marso, mətbuat rəhbəri Jan Miot, Serj Dassonun sağ əli Jan-Pier Beşter, hüquqşünas Jan-Klod Maran, hətta 2012-ci ildə Sarkozinin kampaniyasının qeyri-qanuni maliyyələşdirilməsi məsələsində ittiham olunan deputat Filip Briand kimi adamlarla nahar edir. Bu adamların hamısı Mişel Şaras kimi lazım gələndə dostlarına əl tutan, onlara arxa olan adamlardır...

2016-cı ildə Charles jurnalında silah gəzdirmək üçün lisenziyaya malik olduğunu elan edən və buna görə də üstündə silah gəzdirən şəxs, bir axşam Emmanuel Makronun yaxın məsləhətçisinə çevrilir. Məhz o şəxs prezidentə məsləhət görür

2018-ci ilin yanvar ayında Davos forumdan qayıdandan az sonra, dövlət başçısı Overyn bölgəsindəki fermerlərə yeni il arzularını çatdırmağa getdi. Səfərinin birinci günü Şamalier şəhərində keçmiş prezident Valeri Jiskard d'Estanla görüşüb çay içir. Sonra telekameralardan uzaq və jurnalistlərdən xəbərsiz, prezident, Mişel Şaras ilə birlikdə, onun dəniz səviyyəsindən 1162 metr yüksəklikdə yerləşən Şovet gölünün kənarındakı dağ evinə qalxır. Deyilənə görə, Fransua Mitteran da bu yerləri çox sevirmiş və 1977-ci ildən 1996-cı ilə qədər mütəmadi olaraq bura istirahət etməyə gələrmiş. Mişel Şarasın gölün yaxınlığında yerləşən 54 hektarlıq dağ evində Emmanuel Makron bir qrup adamla nahar edir. Qonaqların arasında Mişel Şarasın zəndeyi-zəhləsi getdiyi nazir Jak Mezard, eləcə də Bess şəhərinin keçmiş meri Andre Qay, Püydö Dom şəhərinin meri Jan-İv Qütt ebel və La Montagne mətbuat qrupun rəhbəri Alan Vedrin də var. Prezidenti bura gətirən Puma markalı iki vertolyot gölün kənarında yerə enəndə, bir qrup jandarm, o dağlarda yaşayan adamlara və fotoqraflara dövlət başçısına yaxınlaşmağı qadağan edir. Çünki prezidentin, dostunun gölün kənarındakı bu dağ evində bu adamlarla görüşü və nahar etməsi, rəsmi proqrama daxil deyildi. Makron şəxsi sirlərini mətbuata açmağı sevmir.

## Yelisey sarayının klanı

May 2017. Emmanuel Makron iri addımlarla Yelisey sarayına daxil olur. Fransua Hollandın keçmiş iqtisadiyyat naziri, nəhayət, istədiyinə çatdı: 40 yaşı tamam olmamış respublika Prezidenti seçildi. Onun düşmənləri panika içindədirlər: görəsən, indi onların başına nə gələcək? V Respublika məğlub olanlara qarşı amansızdır. Onun lehinə olanlar, onu dəstəkləyənlər, onun saysız-hesabsız "dostları" isə sevinc içindədir. Bu adamların hər biri ayrı-ayrılıqda inanır ki, nəhayət, bütün arzularına çatacaqlar. Onların hər biri əmindir ki, Emmanuel Makronu yaxşı tanıyırlar və hər biri özünü onun "yaxın" dostu kimi qələmə verir. Ancaq onlar yanılırlar, hər şey heç də onların fikirləşdiyi kimi deyil. Çoxunun Napoleon Bonaparta bənzətdiyi bu gənc prezident elə hesab edir ki, onun heç kimə borcu yoxdur – o bu siyasi zirvəyə öz bacarığı, öz ağlı ilə heç kimin köməyi olmadan qalxıb. Elə ilk gündən Makron bunu hamıya hiss etdirəcək...

Fransua Hollandın prezidentliyi dövründə Makrona həmişə əl tutan, onu hər yerdə dəstəkləyən Yelisey sarayının keçmiş baş katibi Jan-Pier Juyet artıq onun gözündən düşüb. Bütün siyasi elita bilir ki, Jan-Pier Makrona həmişə bir ata kimi məsləhət verib, onu qoruyub. Buna baxmayaraq, Makron otuz ildən bəri Fransua Hollandla dostluq edən bu adama indi etibar eləmir. Niyə? Çünki o əmindir ki, Holland ondan qisas almaq istəyir, özü də Jan-Pier Juyetin əli ilə. (?) Ona görə də Yelisey sarayına prezident kimi daxil olan gündən, onu həmişə dəstəkləyən himayədarı ilə ünsiyyəti kəsir. Hal-hazırda Fransanın Londondakı səfiri, Paris siyasi səhnəsindən çox-çox uzaqda olan Jan-Pier Juyet, bir vaxtlar oğlu kimi sevdiyi, arxasında durduğu Makronun, istəyinə çatandan sonra onu saymamasından narahat olub, təzə prezidentə dəfələrlə SMS və e-mail göndərir. Ancaq onun bütün cəhdləri boşa çıxır. Makron nə onun zənglərinə cavab verir, nə mesajlarına. Makron artıq oynamır. Onun üçün Juyet artıq bədənsiz ruhdur.

**(ardı var)**

# Ölkəmizin yatırım imkanları artır

*Azərbaycan İnvestisiya Şirkəti 4 ildə layihələrə 1,7 milyard manat yönəldib*

**İqtisadiyyat Nazirliyinin məlumatına görə, son 5 ildə Azərbaycan İnvestisiya Şirkəti (AİŞ) dayanıqlı iqtisadi artıma və xarici investisiyaların cəlb olunmasına xüsusi diqqət yetirərək əsas fəaliyyət istiqamətlərini inamla və uğurla inkişaf etdirib.**



















AİŞ bu dövrdə müasir korporativ standartların və qabaqcıl idarəetmə təcrübələrinin tətbiqi sayəsində əməkdaşlıq etdiyi bir sıra müəssisələrin fəaliyyətini sağlamlaşdıra və səmərəliyini artıra bilib. Xarici tərəfdaşlarla əməkdaşlıq şirkətin strategiyasının ayrılmaz hissəsinə çevrilib, bu isə beynəlxalq arenada quruma etimadın güclənməsinə səbəb olub.

Əsası 2006-cı ildə qoyulan AİŞ-in son 4 illik fəaliyyətində iqtisadiyyatın əsas sektorlarının transformasiyası və dayanıqlı inkişafa xidmət edən layihələrin həyata keçirilməsi ilə bağlı bir sıra mühüm uğurlar qeydə alınıb. Həmin müddətdə vəsaitlərin yatırıldığı layihələrin ümumi dəyəri 1,7 milyard manata yüksəlib. Bu məbləğin 292 milyon manatı bilavasitə şirkət tərəfindən təsdiqlənmiş investisiya vəsaiti olub. Bundan başqa 476 milyon manat məbləğində birbaşa xarici investisiyanın cəlbi gerçəkləşdirilib.

Xüsusən cəlb edilən vəsaitlərin nisbətini qeyd etmək yerinə düşər: AİŞ-in yatırdığı hər 1 manata görə beynəlxalq və yerli investorlardan, həmçinin maliyyə institutlarından 6,5 manat cəlb olunub. Birbaşa xarici investisiyalar çərçivəsində isə bu nisbət AİŞ-in yatırdığı hər 1 manata 1,62 manat təşkil edib. Bu multiplikator effekti şirkətin investisiya tərəfdaşı kimi yüksək səmərəliliyini nümayiş etdirib.

Cəlb edilmiş investisiyalar 23 layihənin həyata keçirilməsinə, o cümlədən 19 yeni istehsal müəssisəsinin tikintisinə yönəldilib. Bu təşəbbüslər ölkənin istehsal imkanlarını gücləndirməklə yanaşı, növbəti bir neçə il ərzində 2300-ə yaxın iş yerinin yaradılmasına imkan verəcək. AİŞ rəqabətqabiliyyətli və əlavə dəyər yaradan, xüsusilə də ixrac və idxalın əvəzlənməsinə yönəlmiş layihələrdə iştirak edir. Hazırda adıçəkilən şirkət qida və əczaçılıq sənayesi, eləcə də tikinti materialları və geyim sahələrində strateji məhsulların fəal istehsalını həyata keçirməklə iqtisadiyyatın, biznesin və əhalinin həyati önəm daşıyan məhsullarla təmin edilməsini şərtləndirir.

Azərbaycanın səhiyyə infrastrukturunu gücləndirməklə yanaşı, bu gün həm də ölkə daxilində ən üstün beynəlxalq standartlara cavab verən yüksək keyfiyyətli tibbi ləvazımatların və dərman preparatların istehsalına imkan yaradan əczaçılıq layihələrinə investisiyaların ayrılmasına xüsusi diqqət yetirilir. Bu tərəfdaşlığa nümunə kimi "Diamed" şirkətlər qrupu ilə əməkdaşlıq çərçivəsində müəssisələrin istifadəyə verilməsi layihələrini qeyd etmək olar. Müəssisələrdən biri birdəfəlik şprislərin, digəri isə natrium xlorid, ringer laktat və qlükoza kimi həyati əhəmiyyət daşıyan venadaxili infuziya məhlullarının istehsalı üzrə ixtisaslaşıb.

Sadalananlardan əlavə sözügedən şirkətin Azərbaycanın digər regionlarının da iqtisadi inkişafı üçün həyata keçirdiyi mühüm layihələri qeyd etmək önəmlidir. Balakən rayonunda "Balkhoorma" və "Balacans Agro Food" zavodlarında quru meyvələr istehsal olunur. Həmin layihələr yerli istehsalçılara dəstək verir, istehsal olunan məhsullar isə regionun, o cümlədən bütünlükdə ölkənin ixrac potensialının artırılmasına kömək edir.

Ağdam rayonunun Şahbulaq kəndində daş karxanasını, eləcə də Xocalıda bərpa edilmiş sement zavodu da əsas layihələr sırasında yer alır. Bu müəssisələrdə buraxılan tikinti daşı və sement işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa işlərində istifadə edilir. AİŞ, həmçinin Ağdam Sənaye Parkında müxtəlif sənaye sahələrində çalışan işçilər üçün maksimum təhlükəsizlik və rahatlığı təmin edən işçi ayaqqabı istehsal edən "Bafco" fabrikinə də sərmayə yatırıb.

Yevlaxda illik 22 milyon ədəd damazlıq yumurta istehsal gücünə malik zavodun birinci fazasının tikintisi başa çatıb. Bu layihə yüksək keyfiyyətli və münasib qiymətə damazlıq yumurtaların istehsalı ilə ölkənin idxaldan asılılığının azaldılması və ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədi daşıyır.

Hazırda Azərbaycanda iqtisadiyyatın strateji sahələrinin inkişafına yönəlmiş bir neçə layihənin tikintisi yekun mərhələdədir. Ölkəmizdə geniş çeşiddə dərman preparatları istehsal edən zavodun tikintisi bu baxımdan diqqət çəkir. Burada Türkiyənin ən böyük dərman şirkətlərindən olan "GEN İlaç ve Sağlık Ürünleri A.Ş." ilə birlikdə tezliklə ölkə əhalisinin sağlamlığı və rifahı üçün strateji əhəmiyyət kəsb edən, ampullar və həblər daxil olmaqla, 70 adda dərman preparatının istehsalı nəzərdə tutulur. Bununla yanaşı, İmişli rayonunda pivəlik arpa emalı zavodunun da tikintisi yekunlaşmaq üzrədir. Yeni müəssisə ölkəmizin bu sahədə mövqeyini gücləndirmək məqsədi daşıyır.

AİŞ işğaldan azad edilmiş ərazilərdə "yaşıl", o cümlədən ölkənin regionlarının inkişafına yönəlmiş layihələrin həyata keçirilməsinə də investisiya qoyuluşunu getdikcə artırır. Qurum hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən dörd layihənin inkişaf etdirilməsinə və dirçəldilməsinə dəstək çərçivəsində şirkət 44,8 milyon manat investisiya yatırır.

AİŞ-in portfelində Türkiyənin "Demirören Holding"i ilə birgə həyata keçirilən beş kiçik su elektrik stansiyasının bərpası layihəsinin də xüsusi önəmi var. Həmin layihə su elektrik stansiyaların regionu təmiz enerji ilə təmin edərək ənənəvi enerji təchizatı mənbələrindən asılılığı azaltması ilə AİŞ-in davamlı inkişafa sadiqliyini əks etdirir. Bundan əlavə, AİŞ-in Cəbrayıl rayonunda 240 meqavat gücündə "Şəfəq" Günəş Elektrik Stansiyasının tikintisi layihəsində iştirakı enerji infrastrukturunun inkişafı məqsədilə atılan mühüm addım kimi dəyərləndirilməlidir. Xatırladaq ki, bu, "SOCAR Green" və BP şirkətləri ilə birgə işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən ən böyük "yaşıl" enerji layihələrindən biri olacaq.

İşğaldan azad olunmuş ərazilərdə həyata keçirilən ekoloji təşəbbüslərdən əlavə, AİŞ ölkənin digər regionalarında da "yaşıl" layihələrin inkişaf etdirilməsində xüsusu fəallığı ilə seçilir. Bu layihələrdən biri də İtaliyanın "Technip Energies" şirkəti ilə birgə Sumqayıtda innovativ həll yollarının tətbiqi ilə plastik tullantıların emalı zavodunun tikintisidir. Zavod qabaqcıl termokimyəvi texnologiyadan istifadə yolu ilə plastik tullantıları emal edərək müxtəlif sənaye sahələri üçün qiymətli resurs olan piroliz yağına çevirəcək. Bütövlükdə isə, AİŞ-in "yaşıl" layihələrə ayırdığı investisiyaların ümumi həcmi 74 milyon manat təşkil edib ki, bu da şirkətin ətraf mühitin qorunması məqsədilə müasir həllərin tətbiqinə olan sadiqliyini göstərir.

Eyni zamanda, yaxın vaxtlarda Qəbələ rayonunda gürcüstanlı tərəfdaşlarla birlikdə spirtsiz və yüngül spirtli içkilərin istehsalı zavodunun tikintisi nəzərdə tutulur. Bu da ölkəmizin qida sənayesinin inkişafında mühüm addım olacaq. Hazırda Gəncədə "Azərbazalt" MMC ilə birgə bazaltın çıxarılması və ondan bazalt tozu və qranullarının istehsalı layihəsi həyata keçirilir. Sözügedən xammala tikinti sənayesində və digər sahələrdə yüksək tələbatın olması bu layihəni ölkə sənayesinin inkişafı üçün strateji əhəmiyyətli edir.

Macarıstanın "HELL Energy" şirkəti ilə birlikdə həyata keçirilən "Quality Pack Caspian" layihəsi də son illər ölkəmizdə reallaşdırılan ən böyük və mühüm layihələrdən biri hesab olunur. Xatırladaq ki, sözügedən layihə Cənubi Qafqazda alüminium içki qutuları istehsal edən ilk müəssisə olacaq. Ələt Azad İqtisadi Zonasında yerləşəcək həmin zavodun isə illik istehsal gücü 700 milyon ədəd alüminium qutu təşkil edəcək. Layihə yerli bazarın tələbatını tam ödəməklə ixrac potensialının inkişafına da imkan yaradacaq.

2024-cü ildə COP29 konfransında uğurla iştirak edərək bir sıra ekoloji layihələr üzrə sazişlər bağlaması AİŞ-in əhəmiyyətli nailiyyətlərindən hesab olunur. Həmin təşəbbüslər arasında plastik və şüşə qabların toplanması, karbontutma texnologiyalarının inkişafı və stasionar batareyaların istehsalı layihələrini qeyd etmək olar. Bu sazişlər AİŞ-in qlobal ekoloji əməkdaşlıqlarda fəal iştiraka hazır olduğunu bir daha təsdiq edir.

Gələcəkdə AİŞ xarici tərəfdaşlarla birlikdə iqtisadiyyatın strateji əhəmiyyətli sektorlarının gücləndirilməsi və innovativ həllərin tətbiqi ilə bir sıra mühüm layihələr həyata keçirməyi planlaşdırır. Avstriyanın "Fibron Pipe" şirkəti ilə əməkdaşlıq çərçivəsində kompozit və paslanmayan polad boruların istehsalına başlanılacaq. Layihənin reallaşdırılması bazarın yüksək keyfiyyətli məhsullarla təmin olunmasına imkan yaradacaq. Eyni zamanda, Avstriyanın "Grabher Group" şirkəti ilə birlikdə tibb və gigiyena kimi önəmli sahələrdə istifadə üçün beynəlxalq standartlara cavab verən qabaqcıl materiallara çıxışı təmin edəcək innovativ "ağıllı" tekstil məhsullarının istehsalı layihəsinin həyata keçirilməsi planlaşdırılır.

Bundan əlavə, AİŞ-in Çinin "BYD Auto Industry Co. Ltd." şirkəti və "Electrify Azerbaijan" MMC ilə birgə əməkdaşlıq çərçivəsində Sumqayıt Kimya Sənaye Parkında elektrik avtobusların yığımı üzrə zavod inşa olunacaq. Bu isə ölkəmizdə ekoloji cəhətdən təmiz nəqliyyatın və maşınqayırmanın inkişafına mühüm töhfə verəcək. AİŞ Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə birlikdə təmiz enerji istehsalı üçün məişət tullantılarının təkrar emalı layihəsinin həyata keçirilməsini planlaşdırır. Ümumilikdə, 15 ölkə ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən layihələr beynəlxalq əlaqələri genişləndirməklə yanaşı, ölkə iqtisadiyyatını gücləndirəcək qarşılıqlı faydalı tərəfdaşlıq üçün yeni imkanlar yaradır.

Yeri gəlmişkən, Azərbaycan İnvestisiya Şirkətinin icraçı direktoru Ülvi Mansurov çıxışlarının birində rəhbərlik etdiyi qurumun missiyasının təkcə kapital cəlb etmək deyil, həm də gələcək nəsillərə xidmət göstərəcək dayanıqlı infrastruktur yaratmaqdan ibarət olduğunu vurğulayıb. O deyib ki, AİŞ-in layihələri Azərbaycanın perspektiv investisiyalar üçün regional mərkəzə çevrilməyə hazır olduğunu bir daha sübut edir.

## "Odlar yurdu"nun neft ehtiyatları – 7 milyard barel!

**Azərbaycanın təsdiq edilmiş neft ehtiyatları 2025-ci il yanvarın 1-nə 7 milyard barel həcmində olub. Bu barədə açıqlama ilə ABŞ-ın Enerji Məlumatları İdarəsi çıxış edib.**



Məlumata görə, Azərbaycanda xam neft hasilatı (kondensat istisna olmaqla) 2009-2010-cu illərdə gündəlik, təxminən, 1 milyon barel həcmində olub. "2024-cü ildən 2026-cı ilə qədər ümumi neft mayelərinin istehsalının orta hesabla gündəlik 600 min bareldən bir qədər çox olacağı proqnozlaşdırılır", – deyə məlumatda qeyd olunub.

"Azəri–Çıraq–Günəşli" yatağını Azərbaycanda neft mayeləri hasilatının əsas mənbəyi kimi xarakterizə edən hesabat müəllifləri bildiriblər ki, burada neft hasilatı 2010-cu ildə gündəlik 823,1 min barellə pik həddə çatıb. 2023-cü ilin birinci yarısında yatağından 375 min barel "Azeri Light" markalı xam neft hasil edilib. Bu xam neft və "Şahdəniz" təbii qaz yatağından hasil olunan kondensat Azərbaycanın hasil etdiyi və ixraca yönəltdiyi əsas neft mayeləridir.

Bununla yanaşı, ABŞ-ın Enerji Məlumatları İdarəsi son məlumatında 2025-ci il yanvarın 1-nə Qazaxıstan, Türkmənistan və Özbəkistanın təsdiqlənmiş neft ehtiyatları barədə də mülahizələrini bölüşüb. Qurum bu ehtiyatların müvafiq olaraq 30 milyard barel, 600 milyon barel və 594 milyon barel həcmində olduğu qənaətindədir.

## KOBİA-ya beynəlxalq sertifikat verilib

**Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə (KOBİA) ISO 10002:2018 "Keyfiyyətin idarə edilməsi, müştəri məmnuniyyəti, təşkilatlarda şikayətlərə baxılması üzrə təlimatlar" beynəlxalq standartı üzrə sertifikat təqdim edilib.**




Bu yenilik qurumda sahibkarların şikayətlərinə baxılması prosesinin keyfiyyətinin yüksəlməsinə və sahibkar məmnunluğunun daha da artmasına xidmət edəcək.

Bu beynəlxalq standart şikayətlərin quruma daxil olması, onların nəzərə alınması, həlli və cavablandırılması prosesini qiymətləndirir, şikayətlərə baxılması işinin daha effektiv həyata keçirilməsi üzrə tələbləri müəyyən edir.

Qeyd edək ki, 2024-cü ilin sonlarında başlayan sertifikatlaşma prosesi çərçivəsində agentliyin müvafiq sahədə prosedurları və iş təcrübəsi daha da təkmilləşdirilərək beynəlxalq standartın tələblərinə uyğyunlaşdırılıb. Bununla yanaşı, agentliyin aidiyyəti struktur bölmələrinin əməkdaşları təlimlərə cəlb olunub.

## Dünya Bankı: Azərbaycan orta gəlirli ölkədir




**Dünən Bakıda Dünya Bankının illik qlobal açıqlaması olan 2024-cü ildə "Dünyanın İnkişafı haqqında Hesabatı"nın təqdimatı keçirilib. Qurumun builki hesabatında "Orta gəlir tələsi" adlanır və inkişaf etməkdə olan iqtisadiyyatların bu maneədən qaçmaq və yüksək gəlir statusuna çatmaq üçün qarşılaşdıqları çağırışlar və imkanlar haqqında dərin təhlil təqdim edir.**

Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Rolande Pryce çıxış edərək bildirib ki, təmsil etdiyi qurum 1978-ci ildən bəri hər il dünya inkişafı ilə bağlı hesabatı dərc edir. Hər bir hesabatı iqtisadi inkişafın bu və ya digər aspektlərinin dərin təhlilinin məhsulu kimi dəyərləndirən R. Pryce deyib ki, sözügedən sənədlər Dünya Bankının inkişaf problemlərinin araşdırılmasına verdiyi ən mühüm töhfələrdən biri hesab olunur.

Qurum rəsmisi Azərbaycanın yüksək gəlirli ölkəyə çevrilməsi üçün güclü institutların yaradılmasının vacibliyini vurğulayıb. Qeyd olunub ki, Azərbaycanın 1993-cü ildə adambaşına düşən gəliri cəmi 110 ABŞ dolları təşkil etdiyi halda, 30 il sonra bu göstərici 60 dəfə artaraq 2023-cü ildə 6 min 660 dollara çatıb. "Azərbaycan öz təbii resurslarından səmərəli istifadə edərək bu səviyyəyə yüksəlib və bu, doğrudan da təsiredicidir", – deyə o əlavə edib.

Bununla belə, Azərbaycanın hədəflərinin daha da yüksək olduğunu vurğulayan Rolande Pryce deyib ki, yüksək gəlirli ölkəyə çevrilmək üçün fiziki investisiyalarla yanaşı, insan kapitalının inkişaf etdirilməsi, istedadların ölkədə saxlanması və iqtisadiyyatın diversifikasiyasına kömək edəcək güclü institutların yaradılması olduqca vacibdir. Dünya Bankı Qrupu olaraq Azərbaycanla artıq 30 ildən çoxdur ki, əməkdaşlıq etdiklərini xatırladan regional direktor təmsil etdiyi qurumun ölkənin yüksək gəlirli statusa doğru irəliləməsi prosesində hökumətə və Azərbaycan xalqına dəstək verməyə daim hazır olduğunu diqqətə çatdırıb.

Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov çıxışında hazırda Azərbaycanın 54 orta gəlir təbəqəli ölkələr sırasında yer almasını qısa müddət ərzində qazanılmış yüksək nailiyyət kimi dəyərləndirib. Qeyd olunub ki, bank ötən illər ərzində Azərbaycanda 50-dən çox investisiya layihəsi vasitəsilə enerji, kənd təsərrüfatı, nəqliyyat və səhiyyə kimi əsas sektorları modernləşdirməyə kömək edib. Prezidentin köməkçisi bildirib:

"Bu, yalnız iqtisadiyyatımızı gücləndirmədi, həm də həyat keyfiyyətini artırdı. Dünya Bankının ekspertizası iş mühitini yaxşılaşdırmağa və investisiyaları cəlb etməyə, yollar və suvarma sistemləri daxil olmaqla kritik infrastrukturu genişləndirməyə, rəqəmsal transformasiyanı təşviq etməyə və Azərbaycanın rəqabət qabiliyyətini artırmağa, iqlimə davamlılıq və yaşıl enerji həllərini dəstəkləməyə kömək edib. Gələcəyə baxarkən Dünya Bankı institutları gücləndirmək, innovasiyaları təşviq etmək və inklüziv artımı təmin etmək üçün əsas tərəfdaş olaraq qalır".

Bir sıra vacib çağırışların Azərbaycan iqtisadiyyatının şaxələndirilməsinə imkan yaratdığını bildirən Ş.Mövsümovun sözlərinə görə, 2011-ci ildə qeyri-neft-qaz sektorunun ümumi daxili məhsuldakı payı 49 faiz olduğu halda, 2024-cü ildə bu göstərici 68 faizə çatıb. Bununla yanaşı, əhalinin rifahı yüksəlib, minimum əməkhaqqı, pensiya və məşğulluq imkanları artıb. Azərbaycanın 1992-ci ildə Dünya Bankına üzv olduqdan sonra çox ciddi transformasiyadan keçdiyini vurğulayan Prezidentin köməkçisi deyib ki, ötən müddətdə respublikamız xarici yardıma möhtac dövlət statusundan hazırda Beynəlxalq İnkişaf Assosiasiyasına maliyyə yardımı göstərən ölkəyə çevrilib.

Təqdimat mərasimində Avropa və Mərkəzi Asiya regionuna diqqət yetirməklə "Dünyanın İnkişafı haqqında Hesabatı"n əsas mesajları təqdim olunub. Tədbir çərçivəsində təşkil olunan yüksək səviyyəli plenar və panel müzakirələrində Azərbaycan hökumətinin nümayəndələri və Dünya Bankının rəsmiləri iştirak edərək fikir və mülahizələrini bölüşüblər.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

## Regional proqramın qəbulundan 21 il ötür



# Azərbaycanda regional inkişaf marafonu uğurla davam edir

*(əvvəlu 1-ci səhifədə)*

Azərbaycanda regional dövlət proqramlarının (2004-2008, 2009-2013, 2014-2018 və 2019-2023-cü illər üzrə) uğurla həyata keçirilməsi ötən 21 ildə ölkəmizdə qeyri-neft sektorunun davamlı inkişafına, kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəlməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına və nəticədə əhalinin məşğulluğunun artmasına, eləcə də yoxsulluq səviyyəsinin azalmasına təkan verib.

Bütün bu qeyd edilənlərlə yanaşı, 2004-cü ildən uğurla icra olunan regional proqramlar şəhər, qəsəbə və kəndlərin simasını köklü şəkildə dəyişib, bölgələrdə sosial-iqtisadi inkişaf potensialının artmasına, biznes və investisiya mühitinin yaxşılaşmasına və ekoloji təhlükəsizliyin güclənməsinə əlverişli şərait yaradıb.

Ümumiyyətlə, regional dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində aşağıdakı nəticələr əldə olunub:

– regionların, o cümlədən kənd yerlərinin inkişaf potensialı daha da güclənib və bu potensialdan istifadənin səmərəliliyi yüksəlib;



– regionlarda iqtisadiyyat daha da şaxələndirilib, yeni müasir emal müəssisələri açılıb, qeyri-neft sənayesi daha da inkişaf edib;

– yerli iqtisadiyyatın rəqabət qabiliyyətliyi daha da artıb;

– kənd təsərrüfatı məhsullarının istehsal və emal həcmində yüksək artım dinamikası əldə edilib;

– regionların məhsul istehsalı və emalı üzrə ixtisaslaşması dərinləşib;

– qeyri-neft ixracının həcmi və çeşidi daha da artıb;

– fermer tərəfdaşlığı və kənd təsərrüfatında kooperasiya, o cümlədən aqrar-sənaye inteqrasiyası inkişaf edib.

Bütün bunlarla bərabər, regional dövlət proqramlarının yüksək səviyyədə icrası ilə iqtisadiyyatda məhsuldarlıq və əlavə dəyər yüksəlib, bölgələrdə məşğulluq imkanları genişlənib, turizm potensialı daha da güclənib, KOB-ların sayı çoxalıb, onların fəaliyyəti genişlənib və yerli iqtisadiyyatda əlavə dəyərin artımına təkan verilib.

Prezident İlham Əliyevin 2004-cü il 11 fevral tarixli fərmanı ilə təsdiqlənən ilk regional dövlət sənədinin – “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)”nın isə əsas məqsədi qeyri-neft sektorunun davamlı inkişafı, ölkə regionlarının tarazlı inkişafının təmin edilməsi, regionlarda kommunal xidmət və sosial infrastruktur təminatının yaxşılaşdırılması, yeni iş yerlərinin və müəssisələrin yaradılması nəticəsində əhalinin məşğulluq səviyyəsinin artırılması və həyat səviyyəsinin yüksəldilməsindən ibarət olub. Adıçəkilən proqramın uğurlu icrası bütün regionların inkişafında yeni bir mərhələnin yaranması ilə nəticələnib, eyni zamanda, bu əsasda formalaşan əlverişli iqtisadi mühit ölkənin sosial-iqtisadi inkişafı sahəsində başlanan tədbirlərin davam etdirilməsini sürətləndirib.

Ölkədə qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın diversifikasiyası, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılması məqsədilə 2004-cü ildən başlanılan və hazırda da uğurla gerçəkləşdirilən tədbirlərin davam etdirilməsi üçün dövlətimizin başçısının 2009-cu il 14 aprel tarixli fərmanı ilə təsdiqlədiyi ikinci regional sənədin – “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” dövlət proqramının uğurlu icrası nəticəsində ölkədə makroiqtisadi göstəricilərin səviyyəsində yüksək artım əldə olunub, əhalinin həyat səviyyəsi daha da yüksəlib.

Regionların hərtərəfli inkişafı sahəsində 2004-cü ildən başlanılan məqsədyönlü siyasətin davamı olaraq 3-cü və 4-cü regional dövlət proqramlarının əsas məqsədi isə ölkədə qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın diversifikasiyası, regionların sürətli inkişafı istiqamətində tədbirlərin davam etdirilməsi, xüsusilə kəndlərin inkişafı ilə bağlı infrastrukturun, eləcə də sosial xidmətlərin daha da yaxşılaşdırılmasından ibarət olub.

Prezident İlham Əliyevin bölgələrə mütəmadi səfərləri 4 regional proqramın icrasını stimullaşdırıb, regionların tarazlı inkişafının gerçəkləşdirilməsi, yeni iş yerlərinin yaradılması və əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsi sahəsində görülən işləri sürətləndirib. Proqramların reallaşdırıldığı dövr ərzində dövlət başçısı 1800-dən çox infrastruktur obyektlərinin açılış və təməlqoyma mərasimlərində iştirak edib, istehsal təyinatlı müəssisələrin fəaliyyəti ilə tanış olub, yerlərdə ictimaiyyətin nümayəndələri ilə, o cümlədən sahibkarlarla görüşlər keçirib, qaldırılan məsələlərlə yaxından maraqlanıb, eyni zamanda müxtəlif rayon və şəhərlərin sosial-iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində 650-dək sərəncam imzalayıb.

Regional proqramların qəbulundan ötən müddət ərzində ölkədə sahibkarlığın dinamik inkişaf etdirilməsi və genişləndirilməsi, sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi, eləcə də onların hüquqlarının etibarlı müdafiə mexanizmlərinin yaradılması istiqamətində kompleks tədbirlər həyata keçirilib, respublikada güclü özəl sektor formalaşdırılıb, biznes və investisiya mühiti daha da yaxşılaşdırılıb, iş adamlarının sayı artaraq ölkə iqtisadiyyatının aparıcı qüvvəsinə çevrilib.



Ümumiyyətlə, 4 regional dövlət proqramı çərçivəsində bölgələrə 100 milyard manatdan çox investisiya yatırılıb. Nəticədə, regionların siması müasirləşib, əhalinin rifahı, sosial şəraiti getdikcə yaxşılaşıb. ÜDM istehsalı, təxminən, 4 dəfə çoxalıb, qeyri-neft sektoru üzrə isə 3,4 dəfəyə yüksəlib.

Prezident İlham Əliyev 2024-cü ilin sonunda iqtisadi məsələlərə həsr olunmuş müşavirədə çıxışı zamanı il ərzində Azərbaycanın iqtisadi artım tempinin inkişaf etmiş bir çox ölkələrdə olan iqtisadi inkişaf templərini üstələdiyini vurğulayıb. Ölkə rəhbərinin həyata keçirdiyi siyasət nəticəsində hesabat ilində iqtisadiyyatın neftdən asılılığı minimuma endirilib və sahibkarlığın inkişafını şərtləndirən rəqabətqabiliyyətli milli iqtisadiyyatda yeni mərhələnin əsası qoyulub. Biznes və investisiya mühitinin yaxşılaşdırılması, dövlət tənzimləməsi, o cümlədən inzibati qayda və prosedurların təkmilləşdirilməsi kimi məsələlər də diqqətdə saxlanılıb.

Bütün bunların nəticəsində hesabat dövründə iqtisadi sektorda yüksək göstəricilər əldə olunub. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ildə ölkədə 126,3 milyard manatlıq və ya 2023-cü illə müqayisədə 4,1 faiz çox ÜDM istehsal edilib. Bu dövrdə iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər istehsalı 0,3 faiz, qeyri neft-qaz sektorunda isə 6,2 faiz yüksəlib.

Son illər ölkə iqtisadiyyatının əsasını təşkil edən sənayedə yeni istehsal müəssisələrinin yaradılması, bu sahədə infrastruktur təminatının yaxşılaşdırılması ilə bağlı çoxsaylı layihələr icra olunur, bir sıra stimullaşdırıcı tədbirlər həyata keçirilir. Eyni zamanda, iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində görülən mühüm işlər sənaye sahəsində ümumi istehsalın artmasına səbəb olmaqla yanşı, qeyri-neft sektorunun inkişafına da mühüm töhfələr verir.

Bu baxımdan 2024-cü il də ölkə sənayesi üçün dinamik inkişaf dövrü kimi xarakterizə oluna bilər. Dövlət Statistika Komitəsinin məlumatına görə, sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən hesabat ilində 64,1 milyard manatlıq və ya 2023-cü illə müqayisədə 1,1 faiz çox sənaye məhsulu istehsal edilib. Neft–qaz sektorunda məhsul istehsalı 0,5 faiz, qeyri– neft–qaz sektorunda isə 7,3 faiz çoxalıb. Sənaye məhsulunun 64,3 faizi mədənçıxarma, 29,8 faizi emal, 4,9 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub.

Regional dövlət proqramları çərçivəsində kənd təsərrüfatının inkişafı ilə bağlı həyata keçirilən tədbirlər də əsas prioritet istiqamətlərdəndir. Aqrar sahənin vergilərdən azad edilməsi, subsidiyaların, güzəştli kreditlərin verilməsi və digər dövlət dəstəyi mexanizmlərinin tətbiqi, bu sahədə infrastrukturun yaxşılaşdırılması, dövlət investisiyaları hesabına Taxtakörpü, Şəmkirçay, Tovuzçay və Göytəpə su anbarları, Baş Mil-Muğan kollektorunun tikintisi və digər iri layihələrin reallaşdırılması, həyata keçirilən meliorativ tədbirlər, aqrotexniki xidmət işlərinin yerinə yetirilməsinin keyfiyyətini yüksəltmək üçün “Aqrolizinq” ASC-nin yaradılması, 2015-ci ilin “Kənd təsərrüfatı ili” elan edilməsi kimi tədbirlər bu sahənin inkişafına təkan verib. Bunun nəticəsidir ki, ötən dövrdə ölkədə ərzaq təhlükəsizliyinin təmin olunması üçün bitkiçilik və heyvandarlıq sahələri inkişaf etdirilib, ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsi daha da yaxşılaşdırılıb. Ötən müddət ərzində iri fermer təsərrüfatları, aqroparklar, intensiv bağçılıq təsərrüfatları, müasir istixanalar, logistik mərkəzlər yaradılıb, kənd təsərrüfatı məhsulları istehsalının inkişafına xidmət edən infrastrukturun maddi-texniki bazası möhkəmləndirilib.

Aqrar sektorun innovativ əsaslara keçirilməsi, o cümlədən aqroparkların yaradılması əsas hədəflərdəndir. Dövlət başçısının tapşırığına uyğun olaraq hazırda 33 rayon üzrə 258,3 min hektar ərazidə 51 aqroparkın, o cümlədən 17 müasir cins heyvandarlıq kompleksinin və 34 iri bitkiçilik təsərrüfatlarının yaradılması üzrə işlər sürətlə davam etdirilir. Bununla yanaşı, Prezident İlham Əliyev tərəfindən ənənəvi kənd təsərrüfatı sahələrinin, o cümlədən pambıqçılığın, baramaçılığın, ipəkçiliyin, tütünçülüyün, çəltikçiliyin, çayçılığın, fındıqçılığın, sitrus meyvəçiliyinin, üzümçülüyün və şərabçılığın inkişafı istiqamətində imzalanmış sərəncamlar, təsdiq olunmuş sahəvi proqramlar, həmçinin istehsalçılara subsidiyaların verilməsi haqqında qəbul olunmuş qərarlar müvafiq sahələr üzrə istehsal və ixrac potensialının artırılmasına və məşğulluq səviyyəsinin yüksəlməsinə mühüm təkan verib.

Aqrar sahədə həyata keçirilmiş sistemli tədbirlər nəticəsində ölkəmizin kənd təsərrüfatı və ərzaq məhsulları üzrə özünütəminetmə səviyyəsi yüksəlib, ərzaq məhsullarının istehsalı çoxalıb, ixrac imkanları genişlənib. Dövlət proqramlarının icrası dövründə sahibkarlığın inkişafı sahəsində sistemli və ardıcıl tədbirlər həyata keçirilib, qanunvericilik bazası təkmilləşdirilib, inzibati prosedurlar sadələşdirilib, vergi yükü azaldılıb, sahibkarlığa sistemli dövlət dəstəyi tədbirləri həyata keçirilib.

Regional inkişafla bağlı dövlət proqramları çərçivəsində qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək, ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq, müasir texnologiyalara əsaslanan sənaye müəssisələrini təşkil etmək, əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədilə regionlarda sənaye parklarının, sənaye məhəllələrinin yaradılması istiqamətində xeyli işlər görülüb və müsbət nəticələr əldə olunub. Məsələn, respublikamızın sənaye zonalarında investisiya portfeli 7,9 milyard manat olan 152 sahibkarlıq subyektinə rezidentlik, 10 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Sahibkarlar tərəfindən sənaye zonalarına 6,9 milyard manat investisiya yatırılıb ki, bunun da hesabına 84 müəssisə fəaliyyətə başlayıb, 10 min 700-dən artıq daimi iş yeri yaradılıb.

Qeyd edək ki, 2024-cü ildə sənaye zonalarında 31 sahibkarlıq subyektinə rezidentlik statusu verilib ki, bunun da 14-ü Ağdam Sənaye Parkının, 8-i “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının, 3-ü Sumqayıt Kimya Sənaye Parkının, 1-i Pirallahı Sənaye Parkının, 1-i Hacıqabul Sənaye Parkının, 2-si Masallı Sənaye Məhəlləsinin, 2-si Sabirabad Sənaye Məhəlləsinin payına düşüb. Bununla yanaşı, “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkında 1 sahibkarlıq subyektinə qeyri-rezidentlik statusu verilib. Onun sözlərinə görə, ötən il sənaye zonalarında fəaliyyətə başlayan 10 müəssisə tərəfindən, ümumilikdə, 48,6 milyon manat investisiya yatırılıb, 389 daimi iş yeri yaradıb. Hazırda həmin müəssisələrdə müxtəlif təyinatlı tikinti materialları, ayaqqabılar, dəmir yolu avadanlıqları, elektrik malları və s. məhsullar istehsal olunur.



Son illərdə ölkədə aqroparkların yaradılması istiqamətində də genişmiqyaslı layihələr reallaşdırılıb. Respublikada 2-si dövlət, 22-si özəl olmaqla, ümumilikdə, 24 aqropark qeydiyyata alınıb. Həmin parklardan 6-sı heyvandarlıq, 6-sı meyvəçilik, 11-i əkinçilik, 1-i isə çeşidləmə, qablaşdırma və logistika üzrə ixtisaslaşıb. Aqroparkların ümumi layihə dəyəri 1,1 milyard manat təşkil edir ki, bunun da faktiki olaraq 0,9 milyard manatı özəl investisiya şəklində layihələrin reallaşdırılmasına yatırılıb.

İndiyədək aqroparkların yaradılması və ya fəaliyyətlərinin genişləndirilməsi məqsədilə 158,9 milyon manat dövlət dəstəyi göstərilib. Bugünədək Sahibkarlığın İnkişafı Fondu tərəfindən 16 aqroparkın yaradılmasına 142,4 milyon manat güzəştli kredit ayrılıb. İnvestisiya təşviqi sənədi almış 17 aqropark isə texnika, texnoloji avadanlıqlar və qurğuların idxalına görə 16,5 milyon manat dəyərində güzəşt əldə edib.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin ən mühüm istiqaməti işğaldan azad edilmiş ərazilərdə şəhər və kəndlərin yenidən salınması, müasir sosial-mədəni infrastrukturun qurulması, kommunikasiya və nəqliyyat xətlərinin bərpasıdır. Həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi fəallığın təmin olunmasına xidmət edir.

Nəhəng vəsait və qüvvə tələb edən bu işləri Azərbaycan öz imkanları hesabına həyata keçirir. Yaxın 3 ildə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində Qarabağa və Şərqi Zəngəzura 140 min insanın köçürülməsi planlaşdırılır. Bu fakt ölkəmizin ildən-ilə artan iqtisadi gücünün daha bir əyani göstəricisinə çevrilir.

Qarabağ və Şərqi Zəngəzurda salınan “ağıllı kənd”lərdə “ağıllı” texnologiyalardan istifadə edilir. “Yaşıl” enerjidən istifadə olunmaqla kanalizasiya təmizləmə qurğuları quraşdırılır. Bütün növ qənaətli texnologiyalar “ağıllı kənd” konsepsiyası çərçivəsində tətbiq edilir. Evlərin inşası zamanı təbii materiallardan, “smart” texnologiyaların istifadə olunur.

Hazırda işğaldan azad edilən ərazilərdə ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgələrdə reallaşdırılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 30 minə yaxın insan yaşayır.

Bütün bunlarla bərabər, Qarabağ və Şərqi Zəngəzurun ölkə iqtisadiyyatına reinteqrasiyası məqsədilə mühüm tədbirlər həyata keçirilir. Erməni faşizmi tərəfindən tamamilə dağıdılan iqtisadiyyatın qurulması üçün iqtisadi fəaliyyətin canlanması sürətləndirilir və əlverişli biznes mühitinin formalaşdırılması təmin edilir.

Regional inkişafdan danışarkən, bu sahədə mühüm önəm daşıyan bir məqama da xüsusi toxunmaq istərdik. Belə ki, 2004-cü il fevralın 11-də ilk regional Dövlət Proqramı qəbul edildikdən indiyədək avtomobil yolları şəbəkəsinin yeniləşməsi və inkişafı istiqamətində paytaxtda və regionlarda çoxsaylı yol ötürücüləri, körpülər, tunellər, yeraltı və yerüstü piyada keçidləri inşa olunub. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən ümumi istifadədə olan avtomobil yollarında və Bakı şəhər yollarında 2004-2024-cü illər ərzində beynəlxalq standartlara cavab verən, müasir texnologiyalar əsasında, orijinal dizaynda 335 körpü və yol ötürücüsü tikilmiş, 56-ı təmir edilmiş, 163 yeraltı və yerüstü piyada keçidi və 45 tunel inşa edilib.

Təbii ki, bu qurğuların istismara verilməsi nəqliyyat sistemində sıxlıq və tıxacların aradan qaldırılması, vətəndaşların avtomobil yollarını rahat və təhlükəsiz şəkildə



keçməsinin təmin edilməsi baxımından xüsusi əhəmiyyətə malikdir.

Ölkəmizdə yeni yolların salınması, mövcud yolların əsaslı şəkildə yenidən qurulması ilə bağlı layihələr durmadan uğurla davam etdirilir. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazandığımız qələbə Azərbaycanda yol-nəqliyyat məsələləri ilə bağlı vəzifələri və hədəfləri də yenilədi. Bu gün işğaldan azad edilmiş ərazilərdə Prezident İlham Əliyevin şəxsi nəzarəti ilə dünyanın ən modern yol infrastrukturu yaradılır.

2020-2024 cü illərdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı” çərçivəsində, həmçinin dövlət başçısının sərəncamları əsasında 44 avtomobil yolu layihəsinin tikintisi yerinə yetirilir.

İşğaldan azad edilmiş ərazilərdə icra olunan avtomobil yolları üzərində ümumi uzunluğu 70,8 km olan 45 tunel, ümumi uzunluğu 9581,6 m 447 körpü və ümumi uzunluğu 3871 m olan 16 viaduk inşa edilir. İndiyədək uzunluğu 59,6 km təşkil edən 28 tunelin, uzunluğu 8339,1 metr təşkil edən 392 körpünün və uzunluğu 1695 metr olan 9 viadukun tikintisi başa çatıb.

***VB AYRAMOV,***
***M.QULİYEV***
***XQ***

# Aqrar Universitetin tarixində Heydər Əliyev mərhələsi



**Azərbaycan Mərkəzi Dövlət Arxivində və ADAU-nun arxivində saxlanılan sənədlərə, həmçinin digər mənbələrə istinadən müəyyən edilmişdir ki, 1919-cu ilin sentyabr ayında Azərbaycan İnqilab Komitəsinin qərarı ilə respublikamızda ilk ali məktəb – Bakı Dövlət Universiteti yaradıldıqdan sonra, 1920-ci il noyabrın 13-də İnqilab Komitəsinin sədri Nəriman Nərimanovun imzaladığı qərarla ikinci ali məktəb – Bakı Politexnik İnstitutu, dekabrın 14-də isə bu institutun nəzdində 5 fakültə, o cümlədən, kənd təsərrüfatı fakültəsi yaradılır və tədris prosesinə start verilir.**

Adətən, hər işin başlanğıcı çətin olur. Vaxtilə Moskva Dövlət Universitetinin ilk azərbaycanlı məzunu Həsən bəy Zərdabinin "Əkinçi"sində və maarifpərvər insanlarımızın xəyallarındakı arzular reallaşır, bitkiçiliyin və heyvandarlığın elmi sirlərini öyrənmək uğrunda gərgin işlər gedir. Doğrudur, o dövrlərdə Cənubi Qafqaza sürgün edilmiş bir qrup rus və digər əcnəbi alimlərin də bu işdə danılmaz xidmətləri olmuşdur. Onlardan biri torpaqşünaslıq elminin banisi V.V.Dokuçayevin tələbəsi olmuş professor Vladimir Pavloviç Smirnov-Loginov 1921-ci ildən 1929-cu ilin may ayınadək kənd təsərrüfatı fakültəsinin dekanı seçilmişdir. Bu təhsil və elm ocağında kafedra müdiri və professor kimi fəaliyyət göstərmiş A.A.Qrossheym və P.M.Jukovski sonradan SSRİ Elmlər Akademiyasının həqiqi üzvləri, A.A.Fyodorov və K.A.Krassuyski isə SSRİ Elmlər Akademiyasının müxbir üzvləri olmuşlar.

Ümumiyyətlə, burada pedaqoq kimi çalışanlar arasında Rusiya, Ukrayna, Belarus, Qazaxıstan, Almaniya, Gürcüstan, Polşa, Estoniya, Latviya, Fransa, İngiltərə və İsveç vətəndaşları da olmuşdur. Professor-müəllim heyətinin formalaşdırılmasında sonralar əcnəbi alimlərlə birlikdə Azərbaycan ziyalılarının görkəmli nümayəndələri Məmməd Mİrzəyev, Əli Xudaverdiyev, İmran Kaşıyev, Mürşüd Vəzirov, Fətulla bəy Rzabəyli, Camo Cəbrayılbəyli, Hacı Poladzadə, Tağı Nağızadə, Cəfər Cəfərov, Məmmədtağı Əsgərbəyli və başqaları bilavasitə iştirak etmişlər. Bu təhsil ocağında Dövlət Himnimizin sözlərinin müəllifi Əhməd Cavad, akademik Yusif Məmmədəliyev, akademiklər Çingiz Cuvarlı, Əlisöhbət Sümbatzadə. Məmmədtağı Qəniyev, İosif Yesman və digərləri pedaqoq kimi (kafedra müdiri, professor) mütəxəssis hazırlığında iştirak etmişlər. Milli kadrların yetişdirilməsində sonralar yeni uğurlar əldə edilmişdir. AKTİ-nin yetirmələri arasında akademiklər Həsən Əliyev, Firuz Məlikov, Validə Tutayuq, İmam Mustafayev, İlyas Abdullayev, Ələkbər Quliyev, Siddiqə Məmmədova, Musa Musayev, Müzəffər Abutalıbov, Cəbrayıl Hüseynov, Vahid Hacıyev, Məmməd Salmanov, Məmmədtağı Cəfərov, Məhərrəm Babayev, EA-nın müxbir üzvləri Ağaxan Ağabəyli, Kazım Ələkbərov, Rəhim Hüseynov və digərləri tanınmış aqrar mütəxəssislər var.

1930-cu ilin dekabr ayında Azərbaycanda ali kənd təsərrüfatı mütəxəssislərinin hazırlığına başlanılmasının 10 illiyi ilə əlaqədar 1932-ci ildə AKTİ-də dar çərçivədə 10 illik yubiley tədbiri keçirilir, 50 çap vərəqi həcmində 1000 nüsxə (500-ü türk, 500-ü rus dilində) yubiley toplusu Bakıda "Qızıl Şərq" mətbəəsində nəşr edilir. O dövrdə institutun tarixi təbii olaraq kənd təsərrüfatı fakültəsinin yarandığı ildən, yəni 1920-ci ildən hesablanırdı. Respublikamızda hazırda fəaliyyət göstərən bir neçə universitet də vaxtilə filial, fakültə və ya məntəqə kimi yaradılmış, onların da yaradıldığı tarix birmənalı olaraq mütəxəssis hazırlığına başladığı ildən qəbul edilir.

1940-cı ildə respublikamızda ali kənd təsərrüfatı təhsili üzrə mütəxəssis hazırlığının 20 illiyi ilə əlaqədar Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun yubileyi keçirilmiş, kənd təsərrüfatı istehsalının və elminin inkişafında böyük xidmətlərini nəzərə alaraq SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə İnstitutun bir qrup əməkdaşı Sovet İttifaqının orden və medalları ilə təltif edilmişdir.

1950-ci ildə institutun 30 illiyi ilə əlaqədar "SSRİ Ali Təhsil Nazirliyinin 10 aprel 1951-ci il tarixli 594 nömrəli əmri ilə AKTİ-nin dar çərçivədə yubileyi keçirilmişdir.

Kənd Təsərrüfatı İnstitutunun inkişafı ulu öndər Heydər Əliyevin diqqəti və qayğısı ilə bilavasitə bağlıdır. 1969-cu il iyulun 14-də Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi seçilən Ulu öndərimizin respublikada yüksək ixtisaslı kadr hazırlığında və kənd təsərrüfatı elminin inkişafında böyük xidmətləri nəzərə alınaraq 1969-cu il iyulun 22-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin və Azərbaycan SSR Nazirlər Sovetinin "S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun 50 illiyinə hazırlıq və onun keçirilməsi tədbirləri haqqında" qərarı qəbul olunmuşdur. Yubileyin keçirilməsi 1970-ci il dekabrın 14-ə təyin edilmişdir. Azərbaycan KP Mərkəzi Komitəsi katibinin sədrliyi ilə 27 nəfərdən ibarət hökümət yubiley komissiyası yaradılmış və həmin qərardan irəli gələn müddəaların icrasını təmin etmək məqsədilə müvafiq orqan və təşkilatlara göstərişlər verilmişdir. Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili naziri Z.Hüseynovanın 14 avqust 1969-cu il tarixli 291 nömrəli əmrində yubileyin keçirilməsi ilə bağlı tədbirlər planı təsdiq edilmişdir. Lakin bəzi səbəblərdən yubiley təyin olunmuş müddətdə keçirilməmişdir.

1974–1977-ci illərdə yubileyin keçirilməsi yenidən gündəmə gəlmişdir. Müvafiq yazışmalardan sonra Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1979-cu il 13 mart tarixli qərarı ilə AKTİ-nin 50 illik yubileyinin keçirilməsinə icazə verilmişdir. O illərdə respublikamızın rəhbəri Heydər Əliyevin təşəbbüsü ilə yüksəkixtisaslı mütəxəssis hazırlığında və kənd təsərrüfatı elminin inkişafında xidmətlərinə görə Azərbaycan Kənd Təsərrüfatı İnstitutu SSRİ Ali Soveti Rəyasət Heyətinin 1979-cu il 16 may tarixli fərmanına uyğun olaraq "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir. 1980-ci il dekabrın 16-da Ulu öndər Gəncəyə gəlmiş, keçmiş "Bakı" kino-teatrının böyük salonunda keçirilmiş təntənəli yığıncaqda ordeni Sovet İttifaqı rəhbərliyi adından institutun kollektivinə təqdim etmişdir.

Bu təhsil ocağı 1969 – 1982-ci illərdə Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə daim diqqət mərkəzində olub. 1970-ciilədək bu ali məktəbə tələbə qəbulu planı, orta hesabla, hər il 400-500 nəfər olduğu halda, 1970–1982-ci illərdə 1000–1200 nəfərə çatıb. 1970–1974-cü illərdə İnstitutda 5666, 1975–1979-cu illərdə 4482, 1980–1982-ci illərdə 6009 tələbə qəbul olunmuşdu. 1982-ci ildə institutun əyani və qiyabi təhsil formalarında 12000-dən artıq tələbə təhsil almışdır.

1978-ci ilin iyun ayında məhz Ulu öndərin təşəbbüsü ilə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi, SSRİ Kənd Təsərrüfatı Nazirliyi və Azərbaycan SSR Nazirlər Sovetinin "Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda kadr hazırlığının daha da yaxşılaşdırılması və onun tədris-maddi bazasının möhkəmləndirilməsi tədbirləri haqqında 9 iyun tarixli 210 nömrəli birgə qərarı qəbul olundu. Bu qərarda tədris prosesinin, elmi tədqiqatların və tərbiyə işlərinin keyfiyyətinin daha da yaxşılaşdırılması proqramı nəzərdə tutulmuşdu. Həmin qərarın tələblərinə uyğun olaraq Gəncə–Göygöl (Xanlar) şəhərləri arasında 300 hektarlıq sahədə Kənd Təsərrüfatı İnstitutunun böyük kompleksinin tikilməsi planlaşdırılmış, bu məqsədlə keçmiş İttifaq büdcəsindən külli miqdarda maliyyə vəsaiti ayrılmışdı.

Ulu öndərin daim nəzarəti altında olan bu kompleksdə 1979-cu ilin əvvəlindən ciddi şəkildə işlərə başlanıldı, xeyli tikintilər, kommunikasiya işləri həyata keçirildi, 2 yataqxana, 1 qazanxana inşa edildi, bir neçə tədris korpusunun, dendroloji parkın, ippodromun əsası qoyuldu. 1990-cı ildən sonra bu işlər məlum səbəblərdən dayandırıldı.

Ümumiyyətlə, zamanın hər bir mərhələsində dövlətin və millətin inkişafında təhsilin müstəsna xidməti olub. Təsadüfi deyil ki, Ulu öndər təhsili millətin gələcəyi adlandırırdı. Elmi və təhsili olmayan millət, əlbəttə, qabaqcıl millətlər sırasında yer ala bilməz. Bu baxımdan, elm və təhsilin inkişafına daha çox ehtiyac və tələbat duyulur. Bu həm də onunla bağlıdır ki, dünyada maddi sərvətlər tükənməkdədir. Alimlər, elm adamları yeni qaynaqlar axtarışındadır. Hazırda inkişaf etmiş ölkələrdə elmə əsaslanan iqtisadiyyatın qurulması ən prioritet sahələrdəndir.

Cəmiyyətin bugünkü səviyyəsi elmin, yeni texnologiyaların inkişafını bir başa zərurət kimi qarşıya qoyur. Bu prosesdə, şübhəsiz, ali təhsilin müstəsna rolu var. Yəni ali təhsil bu işdə lokomotiv rolunu oynamaqla bir tərəfdən ölkədə təhsilin inkişafını təmin edirsə, digər tərəfdən kadr potensialını formalaşdırır.

1969-1982-ci illərdə Heydər Əliyevin bilavasitə diqqəti sayəsində Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna hər il güzəştli tələbə qəbulu həyata keçirilirdi, ucqar və dağlıq rayonlardan gənclərin, xüsusən, azsaylı xalqların (ləzgi, avar, ingiloy, lak, tat və s.) nümayəndələrinin qəbuluna daha ciddi yanaşılırdı, onlara böyük üstünlüklər verilirdi. Yeri gəlmişkən, məhz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 1970-ci ildən başlayaraq hər il keçmiş İttifaqın nüfuzlu ali təhsil müəssisələrinə azərbaycanlı gənclərin müsabiqədənkənar qəbulu həyata keçirilirdi. 1969–1982-ci illərdə keçmiş İttifaqın 170 nüfuzlu ali məktəbində 150 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gəncin ali təhsil almasına şərait yaradılmışdı. Həmin gənclər bu gün də Azərbaycanın inkişafında mühüm rol oynayırlar. Hər dərs ilinin başlanğıcı ərəfəsində – avqust ayının sonlarında Heydər Əliyevin rəhbərliyi, hökumət üzvlərinin, dövlət xadimlərinin iştirakı ilə indiki Heydər Əliyev Sarayında yeni qəbul olunmuş tələbələrin Ulu öndərlə görüşü keçirilirdi. Bu görüşlərin hamısında Heydər Əliyev geniş nitq söyləyir, tapşırıq və tövsiyələrini verirdi. Bununla yanaşı, hər il iyul ayının ortalarında Heydər Əliyevin rəhbərliyi ilə Mərkəzi Komitənin büro iclaslarında tələbə qəbulu ilə bağlı müvafiq orqanların rəhbərləri, ali məktəb rektorları və ictimai təşkilatların nümayəndələrinin iştirakı ilə geniş müzakirələr aparılırdı. Bu görüşlərdə və iclaslarda institut komsomol komitəsinin katibi və həmkarlar ittifaqı komitəsinin sədri kimi mən də iştirak etmişəm.

Ulu öndər müstəqillik illərində də xarici ölkələrə təhsil almağa gedən, həmçinin ölkəmizin ali məktəblərinə yuksək balla qəbul olunmuş tələbələrlə görüşlərini davam etdirirdi.

Ölkənin yeganə ali aqrar təhsil müəssisəsinə Ümummilli liderin göstəridyi diqqət və qayğı 20 ildən artıqdır ki, onun ən layiqli davamçısı, möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən ən yüksək səviyyədə davam etdirilir. Cənab İlham Əliyev 2016, 2017 və 2020-ci illərdə Gəncəyə səfərləri çərçivəsində bir neçə obyektin, o cümlədən ADAU-da müasir standartlara cavab verən 2 tələbə evinin və 1 tədris korpusunun açılışlarında iştirak etdi. Bu mərasimlərdə Prezidentimizin iştirakı ADAU-nun professor-müəllim heyətinin və tələbələrin böyük ruh yüksəkliyinə səbəb olmuşdur. Hazırda ölkə rəhbəri İlham Əliyevin sərəncamı ilə bu ali məktəbə rektor təyin olunmuş texnika üzrə fəlsəfə doktoru, dosent Zəfər Qurbanovun rəhbərliyi ilə qocaman təhsil və elm məbədi müasirləşir, dünyanın aparıcı aqrar təhsil müəssisələri ilə sıx əməkdaşlıq əlaqələri qurulur, aqrar təhsil sahəsində yeniliklərə imza atılır.

***Nüsrət HÜSEYNOV,***
***ADAU-nun dosenti,***
***qabaqcıl təhsil işçisi***

***"Azərişıq" – 10***

# İşıqlarımız daha gur yansın



**"Azərişıq"Açıq Səhmdar Cəmiyyətinin yaradılmasının 10 illiyini ölkənin elektrik enerji təchizatı qurumları peşə bayramı günü kimi qeyd ediblər. Bu münasibətlə keşirilən yubiley şənliklərində Azərbaycanda fasiləsiz və keyfiyətli elektrik təchizatına nail olunması energetiklərin böyük uğuru kimi dəyərləndirilib.**



Balakən Elektrik Şəbəkəsində keçirilən toplantı "Azərişıq" ASC-nin fəaliyyətindən bəhs edən videoçarxın nümayişi ilə başlanıb.

Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev kollektivi əlamətdar hadisə münasibətilə təbrik edib, ölkə rəhbərliyinin gerçəkləşdirdiyi uğurlu enerji strategiyasının əhalinin rifahının yüksəldilməsində və sosial-iqtisadi inkişafda önəmli rolundan söhbət açıb. O, ölkəmizdə enerji bolluğu yaradılmasında və qlobal ekoloji böhranın qarşısının alınmasında gerçəkləşdirilən yaşıl layihələrin dünyada yüksək dəyərləndirildiyini də vurğulayıb.

Balakən Elektrik Şəbəkəsinin rəisi Sabit Məmmədov rayonun enerji təchizatının yüksək səviyyədə saxlanılması üçün kollektivin gördüyü işlər, qarşıda duran vəzifələr barədə məlumat verib. Şimal-Qərb Reqional Elektrik Təchizatı və Satışı İdarəsinin rəisi Nəriman Mahmudov "Azərişıq"ın ötən 10 ildə həyata keçirdiyi mühüm layihələrdən, sahədə aparılan islahatların uğurlarından danışıb.

Toplantıda yerli elektrik şəbəkəsinin bir qrup işçisinə nümunəvi xidmətə görə Balakən Rayon İcra Hakimiyyətinin "Fəxri fərmanı" təqdim edilib.

Həmin gün keçirilən ağacəkmə aksiyasında peşə bayramının iştirakçıları çoxlu sayda ağac əkiblər.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# Cəbrayılda tibbi aksiya

**"Böyük Qayıdış" proqramı çərçivəsində Səhiyyə Nazirliyi işğaldan azad olunan ərazilərdə müxtəlif xəstəliklərin aşkarlanması ilə bağlı kompleks müayinələrin aparılması, sakinlərə tibbi məsləhətlərin verilməsi və sağlamlıq məmnunluğunun təmin edilməsi məqsədilə silsilə aksiyalar keçirir.**

Növbəti tibbi aksiya zamanı Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun tibb heyəti ilk dəfə Cəbrayıl şəhərində tibbi xidmətlər göstərib.

Müayinələr institutun tibbi avadanlıqlarla təchiz olunan səyyar klinikasında aparılıb. Müxtəlif diaqnostik prosedurlardan başlayaraq, ilkin tibbi yardıma qədər istifadə edilən mobil klinikaların modul avadanlığı ucqar ərazilərdə yaşayan əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətini və əlçatanlığını təmin edir.

Aksiya zamanı döş qəfəsi orqanlarının flüoroqrafiyası, elektrokardioqrafiya, exokardioqrafiya, spirometriya, USM müayinəsi və qan analizlərinin öyrənilməsi həyata keçirilib.

Müayinələr nəticəsində problemi aşkarlanan şəxslərə məsləhətlər verilib və müvafiq müalicə təyin olunub. Aksiya zamanı 300-ə yaxın Cəbrayıl sakini müayinələrdən keçib.

Maarifləndirici söhbətdə isə institutun əməkdaşları qeyd ediblər ki, məqsəd işğaldan azad edilən ərazilərdə səyyar tibbi müayinələrin keçirilməsi yolu ilə əhalinin sağlamlığını yaxşılaşdırmaqdır. Eyni zamanda, Cəbrayıl sakinlərinin sağlamlığının qorunmasında dəstək göstərmək, ağciyər sağlamlığı haqqında maarifləndirmə nəzərdə tutulur.

Aksiyada iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***ZH ÜSEYNOVA***
***XQ***

# Özbəkistan tələbələri ilə əməkdaşlıq qurulur



**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Akif Mariflinin Daşkənd Dövlət Şərqşünaslıq Universitetinin rektoru, professor Gülçöhrə Rixsiyeva ilə görüşündə iki dövlət arasında çoxillik səmərəli əməkdaşlığı genişləndirmək üçün həyata keçirilən birgə layihələrin önəmi vürğulanıb.**

Özbək tələbələrin xalqımızın zəngin mədəniyyətinə və ədəbiyyatına artan marağından danışan rektor rəhbərlik etdiyi ali məktəbdə Azərbaycan dili tədrisinin uğurla davam etdirildiyini söyləyib. O, bu layihənin həyata keçirilməsinə göstərdiyi dəstəyə görə Azərbaycan Mədəniyyət Mərkəzinə təşəkkürünü bildirib.

Akif Marifli səmimi qəbula görə təşəkkür edərək deyib ki, Azərbaycan dili təkcə öz xalqımızın ünsiyyət vasitəsi deyil, həm də qardaş türk toplumları ilə genişlənən əməkdaşlığa körpü salır. Soydaşımız layihənin davam etdirilməsi, universitetdə yaradılan Heydər Əliyev adına Azərbaycanşünaslıq Mərkəzini zənginləşdirilməsi üçün nəzərdə tutulan növbəti dəstək barədə məlumat verib.

Mədəniyyət Mərkəzinin iki ölkənin bakalavr, magistr və doktorantura tələbələrinin elmi əməkdaşlığı, tələbə mübadiləsi, birgə nəşrlərin hazırlanması ilə bağlı təklifləri görüşdə maraqla qarşılanıb.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***

**Daşkənd**

**Günün sənət söhbəti**

# Dəyişən fəsillər və ədəbi nəsillər

*(əvvəli 8 və 9 fevral tarixli saylarımızda)*

**Kimin qayım poetik yaddaşı varsa, o, yüz yaşında da yeni nəsə deyəcək. Belinskinin sözlərini təsdiqləyəsi olsaq, "poeziya hər şeydən öncə poeziya olmalıdır". Aşağıda oxuyacağınız ayrı-ayrı şeirlərdən gətirdiyim misallar, elə bilirəm, dediklərimə yetərli sübutdur:**



**...Bəlkə də, hiss edib qarşıdan gələn**
**Qışın soyuğunu, qışın qarını.**
**Qara tüstüsündə traktorların**
**İsidir qarğalar qanadlarını.**

*("Lövhə")*

**...Hamletin atası düşür yadıma**
**Adını deyimmi? Yaddaqalandı.**
**Oturub içimdə əlində güzgü**
**Kədərin gözünə güzgü salandı.**

**...Mən onun adına ümid deyirəm,**
**Mən onun adına çiçək... solmasın.**
**Mənə kölgəmdən də yaxın adam var,**
**Kölgəsi üstümdən əskik olmasın...**

*("Kölgə adam")*

**...Belə kor-koranə baxma arxaya,**
**Boylansan, pis olmaz, sağ-soluna da.**
**Babəkin qoluna güvənmək yetər,**
**Bir azca güc elə öz qoluna da!**

*("Babəkin qoluna tapınmaq yetər")*

Nədən güllər, çiçəklər özgürcə zamanı gələndə açıla bilir, nədən sular istədiyi məkandan çıxıb çağlaya bilir, amma bu dünyanın düşüncə sahibi insan rejimlər qəlibinə salınıb sıxılır, azadlıqları əllərindən alınır? Nədən insan yaşadığı zamanın, məkanın "nə deyərlər"indən, "necə deyərlər"indən qurtula bilmir? Bunun günahını harda, kimdə axtarmalı?

**Üzü narın-narın tutulub göyün,**
**Qışın əlindədir qar azadlığı.**
**Əsli yaxasında qırx düymə-düyün,**
**Alınıb Kərəmin yar azadlığı...**

**Bir ana bətnindən üzülüb gəlir**
**Körpə azadlığı – bir az ərköyün.**
**Bulud əmcəyindən süzülüb gəlir**
**Yağış azadlığı anamız göyün.**

*("Qışın əlindədir qar azadlığı")*

Saz-söz mühitindən çıxıb qoşma əlhavasına köklənib şeirlər yazan və hətta haqsız ad-san qazananlar da yox deyil. Abbas Tufarqanlının, Xəstə Qasımın, Ələsgərin yaratdığı qəlibləri, qafiyə və rədifləri pis bir şəkildə istismar etməklə, yalnız sağ-solundakı ümumi şablona uyğunlaşdırılmış zövqləri, yaşadığın zamanı aldada bilərsən. Vəssalam! Forma, ritm, fikir, qafiyədə yenilik arayışları olmayan şeirin gələcəklə yaxından-uzaqdan bir bağlantısı olmaz. Və alışılmış təkrar mızıltılarla keçici rəğbət və şöhrət qazananların, əslində, özlərindən sonra gələn təcürbəsiz ədəbi qüvvələrin yollarını çaşdırmalarından başqa bir xidmətləri də yoxdur. Olmaz da!

Saz-söz, qoşma, gəraylı mühitindən çıxmasına baxmayaraq, Akifin şeirlərində mənə ən çox xoş gələn bu şeirlərin arayış içində olmasıdır:

**Bu torpaq qan "içir", batır günaha.**
**Əlində oğlunun qara kağızı,**
**Gözündə oğlunun ölüm sevinci**
**Bir ana üzünü tutur Allaha:**
**Bir söylə nə vaxtdan açar olubdur**
**Cənnət qapısına düşmən gülləsi?**

*("Müharibə uğrunda mübarizə")*

**...O gün Sərdar Əsəd asdı özünü**
**Bir vaxt paltosunu asarmış belə.**
**...Özünü öldürən söz dəlisinin**
**Kim deyir qatili peşəkar deyil...**

Və o şairin xanımını göz önünə gətirsəniz, gördüyünüz mənzərədən qanınız donar:

**Sevirmiş, ondakı ürəyə bir bax –**
**Sevirmiş ərinin cəlladını da!"**

*("O gün Sərdar Əsəd...")*

Akifin şeirlərinin fikir yükü bəzən yazdığı misralara sığışmır. Cəmi üç misradan ibarət olan aşağıdakı şeirə diqqətinizi çəkmək istərdim:

**Paltosuz çiyinlərimə qonan qar,**
**sən atlısan,**
**mən piyada.**

*("Piyada və atlı qar")*

Əhmədgil istəsə də, pis şeirlər yaza bilməz, yazmağa haqqı da yoxdur, çünki özü öz şeiri ilə pis şeirlərə gedən kəsə yolları çoxdan bağlayıb:

**...ilhamın pis vaxtına düşüb,**
**elə bil pis oğul**
**yaxşı bir atanın baxtına düşüb,**
**ilhamın aciz bir vaxtına düşüb**
**yaxşı şairlərin**
**pis şeirləri.**
***("Yaxşı şairlərin pis şeirləri")***

Və beləcə, yaxşı şairlərin yaxşı şeirinə misal olaraq yazımı A.Əhmədgilin "Sənin adınadır" şeiri ilə tamamlamaq istədim:

**Qar.**
**Həsrətindən ağarar**
**papağımın da saçları.**
**Görüşə çıxmışam-**
**Sənin adınadır bu görüş.**

**Adını yazdığım qardan**
**qartopası hazırlayıb**
**tutmuşam**
**sağ əlimdə,-**
**sənin adınadır bu qartopu,-**
**adınla**
**özünü vurasıyam!**

**Gecikirsən,**
**əriyir**
**əlindən tutduğum qartopu da.**
**Barmaqlarımdan**
**yağış yağır torpağa-**
**Sənin adınadır bu yağış!**

**Sevgi yağışları yaz soraqlı,**
**hardasa əlində qartopu,**
**dizəcən qar içində**
**dayanıb səni gözləyir bahar-**
**Sənin adınadır bu bahar!**

***Məmməd İSMAYIL***

# Qəbələ "Qış nağılı" söyləyir



**Heydər Əliyev Fondunun təşkilatçılığı ilə ilk dəfə keçirilən "Qış nağılı" Beynəlxalq Musiqi Festivalı Qəbələ şəhərində uğurla davam edir.**

Festival çərçivəsində Heydər Əliyev Konqres Mərkəzində Bakı Kamera Orkestrinin konserti olub. Orkestrin bədii rəhbəri Bakı Musiqi Akademiyasının rektoru, professor, Xalq artisti Fərhad Bədəlbəyli, dirijoru Əməkdar artist Fuad İbrahimov, direktoru Xalq artisti Yeganə Axundovadır.

Tərkibinə beynəlxalq müsabiqə laureatları və istedadlı ifaçıların daxil olduğu orkestrin ifasında A.Vivaldinin "İlin fəsilləri" silsiləsindən "Qış", P.İ.Çaykovskinin Simli alətlər üçün serenadasından "Vals" və "Final", A.Piatsollanın "Buenos-Ayresdə ilin fəsilləri" silsiləsindən "Yaz", Niyazinin "Arzu", S.İbrahimovanın "Piano və orkestr üçün 4 nömrəli konsert", N.Kapustinin "Piano və orkestr üçün 2 nömrəli konsert", F.Əmirovun "Azərbaycan elləri", F.Bədəlbəylinin "Dəniz" əsərləri səsləndirilib. Solistlər Murad Adıgözəlzadə (piano), Yeganə Axundova (piano), Nəzrin Aslanlı (skripka), Nigar Cəfərovadır (soprano).

***XQ***

**Gündüz Əlizadə – 70**

# "Metrolu kənd"in rəssam oğlu

**"Azərbaycan" nəşriyyatının dəhlizlərində dəfələrlə qarşılaşmışdıq. Şəxsən tanış olmasaq da, haqqında yetərincə məlumatlı idim, istedadlı olduğunu mərhum şair dostum Məmməd Aslandan da çox eşitmişdim. Şair bizi tanış etməyə söz vermişdi, amma qismət deyilmiş. Bir də eşitdim ki, Gündüz günün gündüz vaxtı xaricə köçüb…**

Gündüz Əlizadə 1955-ci ildə Bakıda müəllim ailəsində dünyaya göz açıb. Uşaqlıqdan rəssamlığa olan həvəsi onu Yuri Qaqarin adina pionerlər sarayının rəsm dərnəyinə gətirib, mərhum Məsumə Ağayevanın rəhbərlik elədiyi dərnəkdə rəsm dərsi almağa baslayıb. Sonra Əzim Əzimzadə adına Rəssamlıq Məktəbini bitirib, Leninqradda ali təhsil almaq ücün bron qazansa da, müəyyən səbəblərdən oraya gedə bilməyib, Volqoqradda hərbi xidmət keçərkən rəssamlıq fəaliyyətini davam etdirib. Tərxis olunandan sonra isə Mirzəağa Əliyev adına İncəsənət İnstitutuna daxil olub. 1982-ci ildə ali təhsilini bitirən gənc rəssam Bakı reklam idarəsinə təyinat alıb. Sevimli müəllimi Mikayıl Abdullayevdən aldığı dərslər hər zaman köməyinə çatıb onun.





Ötən əsrin 90-cı illərinə qədər dizayner kimi çalışan, sonra "İsıq" nəşriyyatında bədii redaktor olan Gündüz Əlizadə "Kirpi" və "Gənclik" jurnallarında, müxtəlif qəzetlərdə karikaturaları, vətənpərvərlik ruhunda kompozisiya, plakat, qrafik işləri ilə tanınıb. Əl-əl gəzən həmin jurnalların əməkdaşları onun haqqında fəxrlə: "Molla Nəsrəddin"in Əzim Əzimzadəsi olduğu kimi, bizim də Gündüz Əlizadəmiz var", – deyiblər. Məmməd Aslan, Nəriman Həsənzadə, Məmməd İsmayıl onunla yaradıcı söhbətlərdən doymayıblar.

Bir çox kitabın tərtibatını vermiş Gündüz Əlizadə 1999-cu ildə karikatura və plakatlarından ibarət kitabını çap etdirib. Dahi Füzulinin 500 illiyinə son dərəcə maraqlı illustrasiyalar işləyib. "Ədəbiyyat və incəsənət" qəzetinin redaksiyasında bədii redaktor kimi çalışdığı zaman həmin qəzetdə Ağdərədən yazdığı təsirli bədii-publisistik məqaləsi, "Sil gözün yaşın, Qaragilə" kimi hekayələri dərc olunub. 1999-cu ildə qardaş Türkiyədə uluslararası karikatura yarışmasında 1-ci yerə layiq görülən rəssam həyatının son illərini qürbətdə — Almaniyanın qədim Trier şəhərində yaşayıb, orada öz qalereyasını açıb, yağlı boya ilə tablolar yaradıb. Onun təşəbbüsü ilə Berlində "20 Yanvar" hadisələrinə və Qarabağ müharibəsinə həsr olunmuş "Azadlığa gedən yollar" adlı anma mərasimi də keçirib, sərgiləri təşkil edilib.

Dostlarının dediyinə görə, Gündüz Əlizadə qürbətə, bəzi sənətkarlar kimi, inciyib gedənlərdən deyildi. Tək oğlu Azərin düçar olduğu qan xəstəliyinə görə müalicəsi davamlı keçsin deyə, Almaniyada yaşamağa, işləməyə qərar vermiş və oradakı nüfuzlu nəşriyyatların birinin dəvətini qəbul etmişdi. Həm Azərin müalicəsini nəzarətdə saxlayır, həm nəşriyyatın tapşırıqlarını yerinə yetirir, həm də köşkdə sifarişçilərin portretlərini çəkirdi. Amma oğlunun 23 yaşında erkən ölümünün kədəri rəssamın da ömrünə vaxtsız balta çaldı. Gündüz Əlizadə Azərdən bir neçə il sonra – 2017-ci il dekabrın 9-da, 62 yaşında qürbət ölkədə vəfat elədi, onun nəşi Bakıya gətirilərək, Əhmədli kənd qəbiristanlığında torpağa tapşırıldı.

Rəssamdan yadigar çoxlu rəsmləri, karikaturaları və bir də "Metrolu kəndin nağılı" (Əhmədli nəzərdə tutulur) adlı xatirə yazıları qalıb. Güclü bədii fəhmi vardı onun. Xatirələrinin elə "İlk qapı" hissəsini oxumaq bəs edər ki, bunu təsdiqləyək: "Bu doğulduğum Ağalı məhəlləsinin böyük darvazasıydı. 10–12 evdən ibarət Ağalı həyətində ən çox qohumlarımız yaşayırdı, elə indi də yaşayır, tək o darvazadan başqa. Nədəni babamın yataq xəstəsi düşməsi oldu. Hər gün səhər sübhdən açılar, axşam saat 10-da bağlanardı bu qapı. Sonradan babamın əllərinin hərarətindən məhrum olan qapının öncə dəstəyini pas yeməyə başladı, daha sonra nə açanı, nə də bağlayanı tapıldı. Yaxşı yadımdadır, 1974-cü ildə əsgərlikdən qayıdanda o qapını yerində görmədim".

Sonra həyat yolları Gündüzü həmin darvazadan dünyaya çıxartdı. Xaricdə sərgilərdə uğurla çıxış etdi. Bir dəfə danışırdı ki, Almaniyada natural portretlərini çəkdiyi 2 amerikalı onun işini çox bəyənib və haralı olduğunu soruşublar. Qürurla "Azərbaycandanam", – deyə cavab verib. Onlar da "Bizdən Azərbaycana salam çatdır" – deyiblər. Gündüz həmişə özünü Azərbaycanın bir zərrəsi sayıb, incəsənətimizi təbliğ edib, əsərlərinin arasında mütləq dövlət bayrağımızı da qoyub ki, yaxşı tanısınlar.

8 ildən bəri Gündüzsüz qalan dünyanın, sanki, gündüzləri solğunlaşıb. O, fani dünyanı başqa bir donda, başqa bir tonda çəkirdi. Daha onun rəngləri dünyanın hüsnünə bəzək vurmur. Amma dünya öz dünyalığındadır, Gündüz Əlizadə isə rəsmlərinin əlvanlığında, bir də solmaz xatirələrin qoynunda yaşayır.

***Ə.DOSTƏLİ***
***XQ***

**İncəsənət Kolleci – 105**

# Akademiyaya çevrilmiş rəssamlıq ocağı

**Ə.Əzimzadə adına İncəsənət Kolleci Azərbaycan təsviri sənətinin inkişafında böyük rol oynayıb. Bu istedadlar ocağının məzunlarının əsərləri mədəniyyətimizin qızıl fonduna daxil edilib.**



Böyük fırça ustaları Səttar Bəhlulzadə, Tağı Tağıyev, Kazım Kazımzadə, Mircavad Mircavadov, Mikayıl Abdullayev, Elbəy Rzaquliyev, Toğrul Nərimanbəyov, Tahir Salahov, heykəltəraşlar Fuad Əbdürrəhmanov, Ömər Eldarov, Tokay Məmmədov, Mirəli Mirqasımov və digər onlarla görkəmli sənətkarımız ilk uğurlu addımlarını "Əzimzadə məktəbi"ndə atıblar.

Kollec fəaliyyətində keçmiş ənənələrə əsaslanaraq, bilikli, bacarıqlı gənc rəssam kadrları yetişdirməyi qarşıya məqsəd qoyub. Burada ixtisas fənləri ilə yanaşı, tələbələrə tarix, ədəbiyyat, kimya, fizika, xarici dillər, hərbi vətənpərvərlik və idman dərsləri də tədris olunur.

Hazırda 105 yaşı olan bu təhsil ocağı gənc fırça ustalarına, istedadlara bilik, qol-qanad vermiş, onları sənətin böyük yoluna çıxarmış bir sənət məbədi sayılır. Ensiklopediyanın diqqət çəkən bir bölməsi də məktəbin rəssam olmayan məşhur məzunları haqqında yazılanlardır. Orada göstərilir ki, Xalq artisti Mirzə Babayev, tarixçi Sara Aşurbəyli, yazıçı Fərman Kərimzadə, aktyorlar Fazil Salayev, Gündüz Abbasov, ədəbiyyatşünas alim Təhsin Mütəllimov, Avropa və Paralimpiya çempionu Gündüz İsmayılov və başqaları Dövlət Rəssamlıq Məktəbinin məzunu olublar.

Ötən il Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin müvafiq əmri ilə Elşad Əhmədov ADRA-nın nəzdində İncəsənət Kollecinə direktor vəzifəsinə təyin olunub. Akademiyanın rektoru, Xalq rəssamı Natiq Əliyev kollecə yeni təyinatın buradakı pedaqoji və yaradıcı səviyyənin daha da yüksəlməsinə xidmət edəcəyinə inamını ifadə edib. Təcrübəli pedaqoqlar gənc həmkarlarının etimadı doğruldacağına əminliklərini bildiriblər.

Elşad Əhmədov Ağcabədi şəhərində anadan olub. 2012-ci ildə ADRA-da A.İsaev və F.Qulamovun rəhbərliyi altında "Rəngkarlıq" ixtisası üzrə bakalavriat təhsili alıb. Daha sonra 2012–2018-ci illərdə Sankt-Peterburq Rəssamlıq Akademiyasında "Dəzgah rəngkarlığı" ixtisası üzrə oxuyub. Məşhur rus rəssamları İ.Ovçerenko, K.Qraçov, akademik A. Bliok, Y.Kalyuta, professorlar İ.Petrov, G.Manaşerov və V.Mogilevtsevdən nəzəri və təcrübi dərslər alıb. Beş il əvvəl orada assisentura-stajirovkada olub və "Yüksək ixtisaslı rəssam-rəngkar. Ali təhsil müəssisələrində yaradıcılıq fənləri üzrə pedaqoq" ixtisasına yiyələnib. "Mənim Azərbaycanım" seriyasını yaradıb.

İnişildən etibarən ADRA-da rəsm müəllimi kimi çalışan Elşad Əhmədov bir çox sərginin iştirakçısı olub. Əsərləri Azərbaycan, Rusiya, ABŞ, Çin, Türkiyə, Gürcüstan və digər ölkələrdə müxtəlif kolleksiyaları bəzəyir.

**Direktor Elşad Əhmədov bizimlə söhbətində dedi:**

– Azərbaycanın dövlət rəhbəri cənab İlham Əliyevin sənətə, xüsusilə, rəssamlığa göstərdiyi qayğı bizi daha məsuliyyətlə işləməyə, keyfiyyətli kadrlar hazırlamağa ruhlandırır. Kollecin 5 illik strateji planını hazırlamışıq. Bu təhsil ocağının Bakı və paytaxt ətrafında əhatə dairəsini artırmaq, daha çox istedadlı gəncləri cəlb etmək əsas hədəfimizdir. Biz planlaşdırırıq ki, tədris daha geniş coğrafiya üçün sənətçi kapitalı yetişdirsin. Bu gün kolleci bitirmiş tələbə təkcə ölkə daxilində deyil, dünyanın müxtəlif ali təhsil ocaqlarına qəbul ola bilsin. Bizim arealımız rəssamlıq sahəsidir, odur ki, artmenecment və artmarketinq kadrları da yetişdirmək istəyirik. Hazırda bununla bağlı auditoriyanın istək və təkliflərini araşdırırıq. Axı rəssam sifarişçi ilə işləməyi bacarmalıdır. Gənc rəssamların bazarda yerlərini tapa bilməsi bizim də uğurumuzdur.

Hazırda pedaqoji şurada yeni layihəmizin müzakirəsi gedir. Könüllü tələbə qrupları yaratmaq istəyirik ki, muzeylərdə keçirilən sərgilərdə iştirak etsinlər. Məqsəd tələbələrin inzibati məkanlarda gedən proseslərlə tanış olmasına imkan yaratmaq, səlahiyyətli, vəzifəli şəxslərlə əlaqələrini gücləndirməkdir ki, onlar kolleci bitirdikdən sonra bu istiqamətdə çətinlik çəkməsinlər.

Yubilyar tədris ocağının kollektivinə yeni uğurlar arzusu ilə:

***Əli NƏCƏFXANLI***
***XQ***

# Rusiya –Ukrayna savaşı: 3 il tərəfləri sülhə qovuşdurmadı



**13 gündən sonra Rusiyanın Ukraynaya geniş miqyaslı hücuma başlamasının 3 ili tamam olacaq. Moskva “xüsusi hərbi əməliyyat” adlandırdığı bu savaşı uzağı 1 həftəyə uğurla başa çatdıracağını düşünürdü. Lakin ukraynalılar ölkələrinin suverenliyini qorumaq naminə ciddi mübarizəyə qalxdılar.**

Rusiya ilə Ukrayna arasındakı müharibə İkinci Dünya müharibəsi bitəndən sonra planetimizdə miqyasına görə ən böyük silahlı qarşıdurmadır. Lakin tarix boyu ən amansız və dağıdıcı müharibələr belə sonda sülhlə bitir. Böyük ehtimalla bu müharibəyə də son qoyulacaq. Bu, nə vaxt baş verəcək, hələlik heç kim bilmir.

ABŞ Prezidenti Donald Tramp bir daha Vaşinqtonun Ukraynadakı münaqişənin həlli üçün səylər göstərdiyini və bu istiqamətdə artıq müəyyən irəliləyiş olduğunu açıqlayıb: “Biz bu problemi həll etmək üçün çox çalışırıq. Düşünürəm ki, bunun (müharibənin – red.) dayandırılmasını təmin etmək baxımından irəliləyiş əldə edirik”. Donald Tramp onu da qeyd edib ki, Ukraynada müharibənin başlanmasında günahın bir hissəsi keçmiş prezident Cozef Baydenin üzərinə düşür.

Bu, bir həqiqətdir ki, Ağ ev 3 il əvvəl Rusiyanın Ukraynaya hücumunu önləmək üçün ciddi səylər göstərməyib. Üstəlik, münaqişənin ilk mərhələsində Rusiyanı qıcıqlandırmamaq üçün Ukraynaya daha güclü silahlar verməyib.

C.Bayden administrasiyasının əsas hədəfi Rusiyanı müharibəyə cəlb etməklə onu iqtisadi cəhətdən zəiflətmək idi. Vaşinqton Rusiyanın Avropa və Çin ilə geniş iqtisadi əlaqələr qurmasını arzulamırdı. Avropa da Ukraynaya kifayət qədər dəstək verməyib. Bununla bərabər, qeyd etmək lazımdır ki, qeyri-rəsmi məlumatlara görə, Ukrayna tərəfində Avropa ölkələrindən minlərlə könüllü döyüşür.

Rusiya sözdə sülh danışıqlarının əleyhinə çıxmır. Bir çoxları düşünürlər ki, bu, imitasiyadır və Moskva müharibəni uzatmaqda maraqlıdır. Bəzi mənbələr yazırlar ki, Kreml Qərb tərəfindən əlavə sərt şərtlər sürülmədiyi təqdirdə Ukrayna qarşı savaşı cəbhənin hazırkı təmas xətti boyu dayandırmaq variantı üzərində düşünür. Əslində ataşkəsin elan olunması Avropa və ABŞ-ı təmin edir. Belə ki, Ağ ev Avropada problemləri “qaydaya salıb” Çinə qarşı böyük mücadiləyə hazırlaşır. “Köhnə qitə” isə hər cür məkrli vasitələrlə Rusiyanı özündən uzaqlaşdırıb Qafqaz və Orta Asiyaya yönəltməyə cəhd edir. Makron Fransası bu sahədə xüsusi canfəşanlıq edir.

Yeri gəlmişkən, Volodimir Zelenski bir neçə gün əvvəl britaniyalı jurnalist Pirs Morqana verdiyi müsahibədə Rusiya Prezidenti Vladimir Putinlə eyni masa arxasında sülh danışıqlarında iştirak etməyə hazır olduğunu bildirib. “Əgər bu, Ukrayna vətəndaşlarına sülh gətirə biləcəyimiz və insanlarımızı itirməkdən qurtula biləcəyimiz yeganə variantdırsa, biz mütləq buna gedəcəyik”, – deyə Zelenski vurğulayıb. O, Putinə münasibətinin bu məsələdə əhəmiyyətsiz olduğunu vurğulayıb: “Mənim ona münasibətimin nə fərqi var? Mən onu qarşı mehriban olmayacağam. Mən onu düşmən hesab edirəm, açığı, o da məni düşmən hesab edir”.

Zelenski əlavə edib ki, Ukraynanın hazırda Rusiya tərəfindən işğal olunmuş bütün əraziləri geri qaytarmaq imkanı yoxdur, çünki ölkə “hələ nəticəsi qeyri-müəyyən



olan bir uğur naminə milyonlarla insanını itirə bilməz”. Bununla belə, o vurğulayıb ki, Kiyev heç vaxt Krım, Donbas, Zaporojye və Xerson vilayətləri üzərində Rusiyanın suverenliyini tanımayacaq.

Bundan əvvəl Putin Zelenskini Ukraynanın legitim prezidenti hesab etmədiyini və onun sülh sazişi imzalaya bilməyəcəyini bildirmişdi. Onun sözlərinə görə, Ukrayna tərəfdən danışıqlarda Ali Radanın sədri iştirak edə bilər. Buna cavab olaraq Zelenski Putinin “danışıqlardan qorxduğunu, güclü liderlərdən çəkinərək müharibəni uzatmağa çalışdığını” söyləyib.

Ən son məlumatlara görə, dünən gecə Rusiya ordusu 151 pilotsuz təyyarədən istifadə edərək Ukrayna ərazisinə hücum edib. Ukrayna tərəfi bildirib ki, hava hücumundan müdafiə qüvvələri Kiyev, Xarkov, Poltava, Sumı Vinnitsa, Jitomir də daxil olduğu 14 regionda 70 “Şahed” pilotsuz uçuş aparatını vurub. Moskva da Ukraynanı onlarla raket və dronlarla Rusiyanın neft emalı zavodlarına hücum cəhdinə görə pisləyib.

Son vaxtlar bu qanlı savaşda durum Avropanı daha çox təşvişə salıb. Başa düşürlər ki, Rusiya cəbhədə tam üstünlüyü ələ ala bilər və bu dəfə artıq Şərqi Avropa dövlətləri Moskvanın hərbi maşını ilə üzüzə qala bilər. Ən böyük təhlükə Polşa və Rumıniya üçün yarana bilər. Moldova isə lap əvvəldən özü üçün belə bir qorxulu ssenarini istisna etmir.

Bu arada Prezident Trampın Ağ evdə Ukrayna Prezidenti Volodimir Zelenski ilə yaxın günlər ərzində görüşüb müzakirələr aparacağı barədə xəbərlər yayılıb. Böyük ehtimalla Vaşinqton Ukrayna hərbi və maliyyə dəstəyini artıracağını elan edəcək. Eyni zamanda, Rusiyaya qarşı daha kəskin sanksiyaların tətbiq ediləcəyi ehtimal olunur.

*Məsaim ABDULLAYEV*
*XQ*

***EKSPERT RƏYİ***



**Şahbaz ŞAMIOĞLU, professor, siyasi şərhçi**

Bəllidir ki, hər bir ölkənin xarici siyasəti daxili siyasətin davamıdır. Demək istəyirəm ki, Rusiya-Ukrayna müharibəsi təsadüfi başlamayıb. Bu, təhtəlşüurunda imperiyanın bərpasını arzulayan Rusiya cəmiyyətinin sosial sifarişidir.

Rusiya–Ukrayna müharibəsi tərəflər üçün əsl humanitar fəlakətə çevrilib. Düşmənçilik pik nöqtəyə çatıb, rəqiblər bir-birinə qarşı qəddarcasına davranır. Niyyət düşməni taqətdən salmaq, bir növ tükəndirib zəifləməkdir.

Reallıq budur ki, son 3 il ərzində hər iki ölkə ağır itkilər verib və infrastruktura ciddi zərbə dəyib. Əlbəttə, Ukrayna ərazisində dağıntılar daha çoxdur. Çünki Kurskda gedən döyüşləri nəzərə almasaq, hərbi əməliyyatlar məhz Ukrayna ərazisində aparılır.

Ağ evin yeni sahibi Donald Tramp müharibəni həle özünün seçkiqabağı kampaniyası zamanı dayandıracağını vəd edib. Bildirib ki, prezident Co Bayden qətiyyət və prinsipiallıq göstərsəydi, Ukrayna böhranı başlamaya bilərdi. Unutmayaq ki, tarix felin şərt şəklini tanımır. Fakt faktlığında qalır, müharibə artıq başlayıb və günbəgün şiddətlənir.

Son aylar Rusiyanın cəbhənin bir çox istiqamətlərində nisbi üstünlüyü hiss olunur. Moskva Kiyevdə hakimiyyətin dəyişəcəyinə ümid bəsləyir. Eyni arzuda da Kiyev belə bir adekvat arzuda bulunur. Lakin arzu başqa, reallıq başqadır. Dünya bu gün cəngəllik qanunları ilə idarə olunur: kim güclüdür, o da haqlıdır. Təəssüf ki, bu, həqiqətən belədir!

Rusiya-Ukrayna savaşı bir daha göstərdi ki, hazırda planetimizdə beynəlxalq hüquq işləmir, mən deyərdim ki, hətta iflic vəziyyətdədir. Dünyanın super gücləri fürsətgirlik edir, yaranan xaosdan sui-istifadə edərək yaxın və uzaq qonşularından daha çox torpaq və sərvət qoparmağa çalışır. Bu, çox təhlükəli tendensiyadır və bəşəriyyət üçün böyük fəlakətlərə gətirib çıxara bilər.

Dünyanın sülhə böyük ehtiyacı var. Hələlik münaqişələrin həlli mexanizmini tapmaq mümkün olmur. Super güclər – ABŞ, Çin, Avropa İttifaqı və Rusiya heç cür ortaq məxrəcə gələ bilmirlər. Üfüqdə Türkiyənin liderliyi ilə Böyük Turan boy göstərir.

Ankara digər böyük güclərdən fərqli olaraq, beynəlxalq məsələlərdə daha pozitiv və humanist mövqedən çıxış edir. Bu, isə qısqanclıqla qarşılanır. Rəqibləri hər cür məkrli vasitələrlə Türkiyənin ədalətli mövqeyini gözdən salmağa cəhd edirlər. Ümid edək ki, siyasətçilər, nəhayət, bəşəriyyət qarşısında öz məsuliyyətlərini başa düşəcəklər.

**Dünyanı heyran qoyanlar**

**Gözübağlı şahmat nadir idman hadisəsidir. Dahi oyunçular bir neçə şahmat lövhəsində rəqiblərinə gözübağlı qalib gələ bilirlər. Burada oyunçular fiqurların vəziyyətini görə bilmir və onlara toxunmaq ixtiyarları da yoxdur. Bu oyunçuları fiqurların vəziyyətinin zehni modelini qurmağa məcbur edir. Gedişləri şahmat işarələri sistemi ilə oyunçular bir-birlərinə çatdırırlar. Bəs “ağ-qara” oyununun ustadları bunu necə edirlər?**

# Gözübağlı şahmat – “ağ-qara” oyunun “sehrbaz”ları

*Bu möcüzədir, yoxsa insan zəkasının görən gözü?*

Eyni anda bir neçə lövhədə şahmat oynamaq! Çox sayda müxtəlif mövqelər və eyni zamanda, bir sıra tapşırıqları yerinə yetirmək! Bütün bunları necə xatırlamaq olar? Bu suala hər peşəkar şahmatçı cavab verə bilmir. Amma bununla belə, öz müasirlərini heyrətləndirən dahilər olub. Məsələn, ilk gözübağlı şahmatı Orta Şərqdə Said ibn Jubayr (665–714) oynayıb. Avropada ilk gözübağlı şahmat yarışı 1266-cı ildə Florensiyada keçirilib. XVIII əsrin şahmatçısı Fransua-Andre Filidor da bir neçə rəqiblə gözübağlı şahmat oynayıb. Maraqlıdır ki, “Piyada şahmatın canıdır” prinsipini bəyan edən fransız şahmatçısı həmkarları ilə adi qaydada oynamaqdan bezib və qarşılaşmaları maraqlı etməyin yollarını düşünüb. Çox keçməyib ki, Filidor gözbağlı seans vermək qərarına gəlib və o, yerli idman ictimaiyyətini xeyli təəccübləndirib.



Gözləri bağlı oynamağı bacaran usta şahmatçılardan biri də Pol Morfi olub. O, oyunlardan 6-sını udub, 2-sini isə uduzub. Mixail Çiqorin və İohann Zukertortun gözübağlı şahmat seansları da çox populyar olub. Hər iki şatmatçı kəskin kombinasiya üslubunda oynayıb, çoxlu qurbanlar verib və belə oyunlarda gözəl mat vəziyyətləri yaradıb.

Amerikalı Harri Nelson Pillsberi də həmin vaxt seansları ilə əsl sensasiyaya səbəb olub. O, eyni zamanda, gözübağlı şahmat, dama və kart oynayıb! O zaman belə seanslar inanılmaz dərəcədə gəlirli işə çevrilib. Çox təəssüf ki, dahi şahmatçılardan biri Emmanuel Laskeri taxtdan uzaqlaşdıra bilən Pillsberi çox erkən ölüb.

Sonralar da bir çox ustad şahmatçı gözübağlı seanslar verib: Dyula Breyer, Riçard Reti, Migel Najdorf, George Koltanovski, Mixail Tal. Hətta belə bir əfsanə var ki, eyni vaxtda gözübağlı şahmat seansının gərginliyindən Yanoş Fleş möcüzəvi şəkildə beyin xəstəliyindən sağalıb. Baxmayaraq ki, həkimlər ona ölüm diaqnozu qoymuşdular. Amma təəssüf ki, Fleş də çox yaşamayıb, avtomobil qəzasında həyatını itirib.

Yeni Avropa rekordunu 2010-cu ilin noyabrında Sontheymdə alman Mark Lanq müəyyən edib. Yarış 23 saat ərzində 35 oyun 19 qələbə, 13 heç-heçə və 3 məğlubiyyətlə nəticələnib. Bir il sonra Sontheymdə Lanq yeni rekord əldə edib. Gözübağlı 46 sinxron oyununda 25 qələbə, 19 heç-heçə və 2 məğlubiyyəti olub.

Gözübağlı şahmat üzrə superturnir də keçirilib. Eyni zamanda, sürətli şahmat da oynanılıb. Bu ideyanı holland milyonçu Joop van Oosterə məşhur qrossmeyster Lev Poluqayevski təklif edib. Turnirdə, demək olar ki, dünyanın bütün güclü şahmatçıları güclərini sınayıblar. Lakin ağır insultdan sonra Ooster 2011-ci ildə yarışları dayandırıb və qısa müddət sonra vəfat edib.

Maraqlıdır ki, “Ginnesin rekordlar kitabı” üçün belə sessiyaların xüsusi qaydaları hazırlanıb: rəqiblərin hansı kvalifikasiya qrupu yığılmalıdır, oyun prosesinin şərtləri necədir, sessiya iştirakçısı neçə faiz xal toplamalıdır. Hazırda rekordçu 2016-cı ildə eyni vaxtda 48 rəqiblə mübarizə aparan amerikalı Timur Qareyevdir.

Gözübağlı sessiyalar tarixinə düşən dahi şahmatçılardan biri də Aleksandr Alexin olub. Rusiyadan mühacirət edən Alexin Amerikaya gedib, burada bir çox kommersiya seansları və gözübağlı seanslar verib. O həm də bir neçə lövhədə gözübağlı oynamağın qaydaları barədə məqalələr də yazıb. Şahmatçı onların birində deyirdi: “Əqli işin ən böyük hissəsi məntiqi yaddaşın köməyi ilə həyata keçirilir. Bu o deməkdir ki, oyunçu ağ və qara kvadratları, ağ və qara fiqurları olan bütün lövhəni gözləri önündə canlandırmağa çalışmır, çoxunun inandığı kimi, o, yalnız hansısa xarakterik hərəkəti, lövhənin bir hissəsinin konfiqurasiyasını xatırlayır... Mən belə oynayıram və bildiyimə görə, bütün gözübağlı oyun ustaları belə oynayır. Vizual yaddaş yalnız xüsusilə kəskin anda vəziyyəti yoxlamaq, mümkün yanlış təsəvvürü tapmaq və s. lazım olduqda köməyə çağırılır. Hər hansı mnemonik sxemlərə (Mürəkkəb və ya uzun sözlər yığınının yadda saxlanılmasını asanlaşdırmaq üçün istifadə olunan söz, qafiyə və ya başqa obraz. Mnemonik vasitələr hesablama texnikasında geniş istifadə olunur-red.) gəlincə, mən onlardan heç vaxt istifadə etməmişəm. Fərdi partiyaları tez bir zamanda bitirmək və bununla da onların sayını azaltmaq çox vacibdir. Hər bir əsas seansı başlamazdan əvvəl, mən lövhələrin ümumi sayını ayrı-ayrı açılış qruplarına bölərək, özüm üçün sadə bir plan tərtib edirəm”.

Şahmatda psixologiya və təfəkkür məsələlərini elmi şəkildə tədqiq edən qrossmeyster Nikolay Kroqius da Alexinin bu fikrini təsdiqləyir: “Əzbərləmənin semantik xarakterini, eyni zamanda, oyun seansları vaxtı apardığım lövhədə fiqurların düzülüşünə dair təcrübələr də sübut edir. Fiqurun yeri, adətən, xatirələrin məntiqi silsiləsi ilə müəyyən olunur”.

Hazırkı rekordçu Timur Qareyev, əksinə, sessiyalarında “yaddaş sarayı”nın mnemonik texnikasından istifadə edir, hər oyunu saraydakı bir otaq kimi təsəvvür edir: “Hər şey gözümün qabağındadır: mətbəxə gedirəm və bir dəstə banan görürəm - hərəkətlər mücərrəd şəkillərə uyğun gəlir”.

Bəs mnemonist kimi heç bir xüsusi təhsil almayan oyunçu nə etməlidir? Alexin bütün mövqelərin şəkillərini başınızda saxlamağa çalışmamağı, ancaq lövhənin ən vacib hissəsinə (şahın mövqeyi, ona hücum edən fiqurlar və s.) cəmləşərək, hər birini düzgün anda məntiqi bir hərəkət zənciri boyunca “burub çıxartmağı” tövsiyə edir: “Rəqibləriniz arasında daha zəif oyunçular varsa, lövhələrin sayını kəskin şəkildə azaltmaq üçün onları mümkün qədər tez məğlub etməyə çalışın. O zaman aydın fəaliyyət planı ilə sessiya oyunçusu üçün tanış, asan başa düşülən mövqelər əldə etmək üçün debüt strategiyanız üçün bir plan hazırladığınızdan əmin olun”.

Əlbəttə, bunu bacarmaq üçün illərlə məşq etmək tələb olunur! 48 oyundan ibarət rekord sessiyada Timur Qareyev 6 dəfə uduzub, 7 heç-heçə edib, baxmayaraq ki, onun rəqiblərinin səviyyəsi uşaq-gənclər idman məktəbinin tələm keçmiş şagirdlərindən də aşağı olub. Bu, həqiqətən, çox çətin məsələdir!

Yeri gəlmişkən, məşhur “Rusiyanın ağ qarı” filminə baxmısınızsa, Alexin filmdə alman zabitlərinə qarşı 32 lövhədə gözləri bağlı bir seans verir və hamını məğlub edir. Əslində, rus şahmatçısı Çikaqodakı yarışda 32 lövhədə oynayıb, 4 oyunda məğlub olub və 9 heç-heçə edib. Alexinin həqiqətən də, Vermaxt zabitlərinə eyni vaxtda şahmat seansı verməsi barədə heç bir sənədli sübut yoxdur. Bunun sovet ssenaristlərinin uydurması olduğu bildirilir.

Bu da bir faktdır ki, sovet Rusiyasında Alexinin Qərb ölkələrində şahmat seanslari verməsinə isti münasibət göstərilməyib. Bu da anlaşılan idi, ideoloji rəqiblərin idmançıları ilə görüşlər keçirməsi Alexinə layiq olduğu dəyərin veilməsinə mane olub. Yalnız İkinci Dünya müharibəsindən sonra keçmiş SSRİ-də gözübağlı oyuna münasibət dəyişib, Alexinə dair kitablar yazılıb, film çəkilib. Xatırladaq ki, şahmat üzrə 4-cü dünya çempionu Alexin dövrünün əsas turnirlərində rəqibləri üzərində böyük fərqlə qalib gələ bilmiş dahi şahmatçı olub. O, vəfat edənə qədər (1946) Dünya çempionu titulunu saxlamağı bacaran qrossmeystr kimi tarixə düşüb.

*S.ELAY*
*XQ*

“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti

*“Picus Security”, “Cloudflare” və “F5 Networks” lisenziyalarının satın alınması üçün*

AÇIQ TENDER ELAN EDİR

“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin 2 lot üzrə lisenziyaların satın alınması üçün açıq tenderində iştirakçılar arzu.qasimli@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 19 fevral 2025-ci il saat 17.00-dəkdir.

Prosedur üzrə əlaqələndirici şəxs – Arzu Qasımlı, mütəxəssis, arzu.qasimli@azal.az, iş – (+99412) 4972600 daxili 6989.

**“SUMQAYIT SƏNAYETİKİNTİ AVTONƏQLİYYAT” ASC səhmdarlarının nəzərinə!**

27 mart 2025-ci il saat 11.00-da Sumqayıt şəhəri, İnşaatçılar qəsəbəsində yerləşə cəmiyyətin inzibati binasında səhmdarların illik ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:
1. “Sumqayıt Sənayetikinti Avtonəqliyyat” ASC-nin idarə heyətinin 2024-cü ilin yekunları və 2025-ci ildə müəssisənin görəcəyi işlər haqqında hesabatı;
2. Müşahidə şurasının hesabatı;
3. Maliyyə-təftiş komissiyasının hesabatı;
4. 2024-cü ilin balansının, hesabatlarının təsdiq edilməsi və xalis mənfəətin bölüşdürülməsi.

Əlaqə telefonu: 051-271-32-45.

*İdarə heyəti*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 30 (30724) 11 fevral 2025-ci il, çərşənbə axşamı

**İdman**

## Güləşçilərimizin Xorvatiya uğuru



**Azərbaycanın yunan-roma güləşçiləri Xorvatiyada keçirilən reytinq turnirinin son günündə 1-i qızıl olmaqla 5 mükafat qazanıblar.**

Təmsilçilərimizdən Elmir Əliyev (55 kq) bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Ruslan Nurullayev (72 kq), Qurban Qurbanov (82 kq), Murad Əhmədiyev (97 kq), Beka Kandelaki (130 kq) bürünc medala yiyələniblər.

Qeyd edək ki, bundan əvvəl turnirdə sərbəst güləşçilərimiz 7, qadın güləşi üzrə təmsilçilərimiz isə 2 medala sahib olublar.

## Millimiz Latviyada 2-ci olub

**Çimərlik voleybolu üzrə kişilərdən ibarət Azərbaycan millisi Latviya açıq çempionatında iştirak edib.**



Azərbaycan Voleybol Federasiyasından verilən məlumata görə, yarışda ümumilikdə səkkiz komanda mübarizə aparıb. Ölkəmiz açıq çempionatda iki cütlə (Məhəmməd Aslanlı/İbrahim Məmmədov və Heydər Məmmədli/Nəriman Bayramlı) təmsil olunub. Olimpiya sistemi ilə keçirilən turnirdə Azərbaycan komandası uğurla çıxış edərək mükafatçılar sırasında yer alıb. Belə ki, Heydər Məmmədli/Nəriman Bayramlı cütü yarışın gümüş medallarına sahib çıxıblar. Digər təmsilçilərimiz isə (Məhəmməd Aslanlı/İbrahim Məmmədov) dördüncü yeri tutublar.

## Avropa tennisində bürünc medal

**Azərbaycanın stolüstü tennisçiləri Xorvatiyanın Osiyek şəhərində təşkil olunan "Europe Youth Series" turnirində fəxri kürsüyə qalxıblar.**



Təmsilçilərimizdən Onur Quluzadə ilə Tunar Bağırov qoşa mübarizədə bürünc medala layiq görülüblər.

Onlar yarışa baş məşqçi Mixail Timofeyev və məşqçi Səbinə Əzizlinin rəhbərliyi ilə qatılıblar.

*L.QURBANOVA*
*XQ*

***Futbol tariximizdən***

# "Neftçi"nin fevral yubilyarları



**Maraqlıdır, 2025-ci ilin fevral ayı 40 il əvvəl Sovet İttifaqı çempionatlarında "Neftçi"nin şərəfini qorumuş və Azərbaycanın futbol ictimaiyyətinin dəfələrlə alqışladığı 2 məşhur ustanın Yunis Hüseynovla Nazim Süleymanovun 60 illik yubileyləri ilə əlamətdardır. Onlardan birincisi bu münasibətlə fevralın elə ilk günündən təbrikləri qəbul etməyə başlayıb, digəri isə yubiley yaşını fevralın 17-də qeyd edəcək.**

Azərbaycan milli komandasının Dünya çempionatlarının seçmə yarışlarında ilk qolu və ilk qələbəsi məhz bu 2 yarımmüdafiəçinin adı ilə sıx bağlıdır. Həmin tarixi qələbəni bir daha yada salaq.

31 avqust 1996-cı il. Tofiq Bəhramov adına Respublika Stadionu. Dünya çempionatının seçmə oyunu. Azərbaycan—İsveçrə. Birinci hissənin ortalarıdır. Qonaqların növbəti hücumunun qarşısını alan meydan sahibləri sürətli əks-hücuma keçir, dərhal da stadionu alqış sədaları bürüyür. N. Süleymanovun başladığı hücumu davam etdirən Y. Hüseynov gözəl ötürmə ilə Vidadi Rzayevi irəli çıxarır. Sonuncu da həlledici anda dəqiq zərbə ilə hesabı açır. Polşalı hakimin 26-cı dəqiqədə qeydə aldığı bu qol Azərbaycan millisi üçün tarixi uğur idi. Yığmamız dünya çempionatlarının seçmə yarışlarında qol və qələbələrinin hesabını açmışdı. Həmin anlarda və oyundan sonra özümüzü elə xoşbəxt hiss edirdik ki!..

Stadionun mərkəzi tribunasından ulu öndər Heydər Əliyevin də izlədiyi görüşdən artıq 30 ilə yaxın vaxt keçsə də, Nazimin, Yunisin və Vidadinin həmin hücumda yüksək texnikası və stadionu bürüyən gurultulu alqışlar heç vaxt unudulmur.

Hər iki yubilyar "Neftçi"də eyni dövrdə, ötən əsrin 80-ci illərində oynamışdır. İkisi də Azərbaycan futbolu flaqmanının heyətində özünü ən yaxşı cəhətdən göstərmiş, elə buna görə də kollektivdə yüksək nüfuz sahibi olmuşdur.




Keçmişi xatırladan, tarixin səhifələrində özünə layiqli yer edən xoş hadisələrin sevincini yaşayarkən statistikanın köməyi də çox yerinə düşür.

İndi onu bir daha nəzərdən keçirərkən məlum olur ki, Y. Hüseynov "Neftçi"də 1984–1988-ci illərdə oynamış, 70 matçda meydana çıxmış və 4 qolun müəllifi olmuşdur. O, həmçinin Azərbaycan milli komandası heyətində 34 oyunun iştirakçısı olmuş, 4 dəfə oyundaşlarının başladığı hücumu dəqiq zərbə ilə başa çatdırmışdır. Statistika Yunisin 1987-ci il sentyabrın 8-də Çexoslovakiya (indi Çex Respublikası) və SSRİ-nin olimpiya yığma komandaları arasında yoldaşlıq görüşündə (1:0) oynadığını da xatırladır.

Y.Hüseynov hazırda Azərbaycan milli çempionatında medallara iddialı komandalardan biri olan "Turan Tovuz" klubunun baş məşqçisinin köməkçisi kimi fəaliyyət göstərir. Əlbəttə ki, özünün 60 illik yubileyi ilində çalışdığı kollektivi qarşıdakı avrokuboklar mövsümündə beynəlxalq meydanda görmək onun üçün çox xoş olar.

N.Süleymanov da elə həmin dövrdə, 1983–1988-ci illərdə "Neftçi"də 125 oyundan ibarət bir yol qət etmiş və bu yolda 17 qol sevinci yaşamışdır. Onun milli komandamızda isə göstəriciləri belə olmuşdur—24 oyun, 5 qol.

Yaşlı futbol həvəskarlarımız Süleymanovun 1995-ci ildə Vladiqafqazın "Alaniya" komandası heyətində Rusiya çempionluğunu bayram etdiyini, daha iki dəfə isə həmin çempionatın ikinci mükafatçısı olduğunu da unutmayıblar.

Həmyerlimizin yüksək səviyyəli oyunu ilə "Alaniya"nın uğurlarına verdiyi böyük töhfələrə görə "Osetiyanın fəxri vətəndaşı" adına, "Osetiyanın şöhrəti naminə" medalına layiq görülməsi təsadüfi deyildi.

Göründüyü kimi, Yunis Hüseynov da, Nazim Süleymanov da yaşıl meydanlarda keçdikləri yoldan razı qala bilərlər. Yubilyarların SSRİ çempionatlarında Azərbaycan futbolu flaqmanının heyətinə dəvət olunmaları və göstərilən etimadı layiqincə doğrultmaları onların həyatında xoş xatirədir.

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

**Sağlamlıq**

# Mədəaltı vəzin dərmansız müalicəsi

***Mədəaltı vəz, adından göründüyü kimi, mədənin altında yerləşən və çəkisi 100 qram olmağına baxmayaraq, çox böyük bir işin öhdəsindən gələn orqandır. Vəz yağ, zülal və karbohidratların parçalanması üçün xüsusi maddələr ifraz edir.***



Mədəaltı vəzin iltihabının – pankreatitin müalicəsi öd və öd yollarının təmizlənməsindən başlanır. Bu zaman mədənin alt nahiyəsində şiddətli kəmərvari ağrılar, yeməkdən sonra isə köpmə, ağrı və ürəkbulanma əmələ gəlir. Temperatur artır, çəki itkisi və təzyiqin düşməsi müşahidə olunur.

Mədəaltı vəzin iltihabının qarşısını alan çoxlu dərman bitkiləri var. Fitoterapevt Füzuli Hüseynovun fikrincə, müalicə üçün tərkibi təbii nişasta ilə zəngin olan atpıtrağı, udi-hindi, andız və zəncirotu kökləri faydalıdır. Hər birindən 100 qram olmaqla 2 xörək qaşığı qarışıq 3 stəkan suda dəmlənir. Sonra süzülüb, termosa tökülür. Məlhəm gündə 3 dəfə yeməkdən yarım saat əvvəl 1 stəkan içilir.

Boymadərən otu, gülümbahar çiçəyi və solmazçiçəyinin hərəsindən 1 orta qaşıq götürülüb 3 stəkan suda dəmlənir, gündə 3 dəfə yeməkdən 50 dəqiqə əvvəl 1 stəkan içilir. Bundan başqa, 3 ədəd qoz ləpəsi əl ilə xırdalanır, 1 xörək qaşığı yulaf toxumu ilə 200 qram suda 20 dəqiqə dəmlənir və gündə 3 dəfə acqarına içilir.

Yaxşı olar ki, mədəaltı vəzində iltihab olanlar qara çay yox, yaşıl çaya hər dəfə bir çimdik zəncəfil tozu qarışdırıb içsinlər. Çiy su daha çox içilməli, yağlı və qızardılmış yeməklər süfrədən çıxarılmalıdır.

*Z.HÜSEYNLİ*
*XQ*

## Günəş Yerə maqnit qasırğası göndərir

**Günəşdəki ən böyük dəlik səbəbindən Yerdə maqnit qasırğalarının olacağı gözlənilir. Bu barədə Rusiya Elmlər Akademiyasının Kosmik Tədqiqatlar İnstitutunun günəş astronomiyası laboratoriyası xəbər yayıb.**



Məlumatda bildirilir ki, keçən ayın ortalarından başlayaraq, Günəşdəki ən böyük tac dəliklərdən biri onun oxu ətrafında tam fırlanaraq, Yerə tərəf qayıdır. Bu hal Yerdə qasırğalara gətirib çıxara bilər. Lakin bu hadisə Günəşdə partlayışlardan sonra yaranan qasırğalar kimi güclü deyil.

Qeyd edək ki, bir gün əvvəl astrofiziklər bu gün maqnit qasırğasının olacağını xəbər vermişdilər. Onların proqnozlarına görə, bu, təxminən, 6 saat davam edəcək.

*S.FİDAN*
*XQ*

**HAVA**

# Yağmursuz, lakin çiskin və duman...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən fevralın 11-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər bəzi şəhərətrafı ərazilərdə az çiskinli olacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək. Gecə 1° şaxtadan 2°-dək isti, gündüz 3-6° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 772 mm civə sütunu, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1-6° şaxta, gündüz 5-10° isti, dağlarda gecə 5-10°, yüksək dağlıq ərazilərdə 13-18°, gündüz 0-5° şaxta olacaq. Gecə və səhər bəzi dağlıq rayonlarda yolların buz bağlama ehtimalı var.**

*Q.QASIMOV*
*XQ*

## "Azərbaycan Atabəyləri" Laçında

**Kinosevərlərin maraqla gözlədikləri "Azərbaycan Atabəyləri" bədii-sənədli filminin növbəti təqdimatı Laçın şəhərindəki "Lacinema" Kino Mərkəzində təşkil olunub.**



Filmin prodüseri və ssenari müəllifi Sərvər Bayramov bildirib ki, bu ekran əsərinin Laçında təqdim edilməsində məqsəd "Böyük Qayıdış" proqramı çərçivəsində öz doğma torpaqlarına, dədə-baba yurduna dönən laçınlılar və ətraf ərazilərdə yaşayan soydaşlarımızın asudə vaxtlarının səmərəliliyinə töhfə verməkdir. Eyni zamanda, mövzu məkan anlamında Şərqi Zəngəzur–Laçın üçün səciyyəvidir və azad ərazilərdə nümayişi rəmzi məna daşıyır.

Bildirilib ki, "Azərbaycan Atabəyləri" bədii-sənədli filmi milli dövlətçiliyimizin, mədəniyyətimizin intibah dövrü sayılan XII–XIII əsrləri əks etdirir.

Xalq artisti Mehriban Zəki filmin Laçında təqdimatını böyük uğurun başlanğıcı adlandırıb: "Biz arzularımıza çatmışıq. İndi tam təhlükəsiz bir şəraitdə Laçında, dağlar qoynunda film izləyirik. Hər birinizi bu gün münasibətilə təbrik edirəm".

Sonra "Azərbaycan Atabəyləri" bədii-sənədli filminin nümayişi olub. Təqdimatda şəhid ailələri, qazilər, Laçın sakinləri və ətraf ərazilərdə yaşayan vətəndaşlar iştirak ediblər.

*XQ*

**ALLAH RƏHMƏT ELƏSİN**

Azərbaycan Dövlət Pedaqoji Universiteti biologiya və onun tədrisi texnologiyası kafedrasının əməkdaşları dosent Elnurə Səfərovaya atası

**FAZİL MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3085
SİFARİŞ 243
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır 00:00